# NAXÇIVAN MR ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ 2010(2)


**Buraxılış üçün məsul şəxs:**

*R.R.Süleymanov*



**Redaksiya heyəti :**
*Ə.K.Allahverdiyev*
*İ.M.Mirzəyev*
*Y.S.Qurbanov*
*V.K.Quliyev*
*Y.F.Xəlilov*

**Məsul katib :**
*G.Ə.Qurbanova*



**Redaksiyanın ünvanı :**

*Naxçıvan şəhəri,*
*Atatürk küçəsi, 19*

*Tel: 544-61-71*
*Faks: 544-70-82*





## MÜNDƏRİCAT


Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi - 85

**Yeni sənədlər, normativ aktlar**

"Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında", "Məhkəmə qərarlarının icrası haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi və "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında", "Məhkəmə qərarlarının icrası haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Məhkəmələr və hakimlər haqqında", və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Məhkəmə quruluşunda bəzi dəyişikliklər, hakimlərin ümumi sayı və məhkəmələrin ərazi yurisdiksiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (əlavə)

Azərbaycan Respublikası Prezidentinin İnzibati və yardımçı vəzifələrin təsnifat toplusunun təsdiq edilməsi haqqında 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanına və Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında 2008-ci il 9 iyul tarixli 2934 nömrəli Sərəncamına əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbacan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (çıxarış)

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin

**təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

**Azərbaycan Respublikasının bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)**

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında Naxçıvan Muxtar Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə  Naxçıvan Muxtar Respublikasının Qanunu**

**Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında Naxçıvan Muxtar Respublikasının Qanununa  dəyişikliklər və əlavə edilməsi barədə  Naxçıvan Muxtar Respublikasının Qanunu**

**Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı**

## Məhkəmə fəaliyyəti

### Mülki kollegiyadan

Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair  2010-cu ilin birinci yarısının yekunları  üzrə statistik məlumatların təhlili

### Cinayət kollegiyasından

Məhkəmə fəaliyyətinə dair 2010-cu ilin birinci yarısının yekunları  üzrə statistik məlumatların təhlili

### Hərbi kollegiyadan

Hərbi kollegiyanın 2010-cu ilin birinci yarısının yekunları  üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

## İnsan hüquqları və məhkəmə təcrübəsi

**Ədalət mühakiməsinin həyata keçirilməsində insan hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi təcrübəsi**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

**Yaşayış binasının tərkib hissəsindən istifadə hüququna  müvafiq kompensasiya verilməsi yolu ilə xitam verilməsinin  bəzi xüsusiyyətləri**

## Hakimlərin milli və beynəlxalq qurumlarında

**Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2010-cu ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında**

## Azad tribuna

**Azərbaycan Respublikasında hüquqi islahatların mühüm elementi kimi İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi**

## Ali Məhkəmənin mətbuat xidmətindən

2010-cu ilin iyun-oktyabr aylarında keçirilən tədbirlərin xülasəsi

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 85 illiyinə həsr olunmuş tədbir keçirilmişdir

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin internet saytı istifadəyə verilib

Ali Məhkəmənin nəşri olan Bülletenin onuncu nömrəsinin işıq üzü görməsi qısa müddət öncə əlamətdar bir hadisənin baş verdiyi vaxta təsadüf edir. Belə ki, oktyabr ayının 3-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 85-ci ildönümü qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi bu günədək uzun bir tarixi inkişaf yolu keçmişdir. Bu yol Naxçıvan Muxtar Respublikasının, bütövlükdə isə Azərbaycanın hüquq tarixi ilə sıx bağlı olub ölkəmizin və muxtar respublikamızın müxtəlif zaman kəsiyində keçdiyi dövrü özündə əks etdirir.

İlk dəfə Azərbaycan Demokratik Cumhuriyyəti dövründə (1918-1920) məhkəmə orqanları sisteminin yaradılması prosesi milli hakimiyyətin süqutu nəticəsində başa çatdırılmamışdı. Sovet hakimiyyətinin qurulmasından az müddət sonra isə Azərbaycanda yenidən məhkəmə orqanlarının təşkilinə başlanılmışdır. 3 oktyabr 1925-ci il tarixdə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin qərarı ilə Naxçıvan MSSR-də Baş Məhkəmə yaradılmışdır. Bundan sonra ayrı-ayrı vaxtlarda müxtəlif cür, 1937-ci ildən isə Naxçıvan MSSR Ali Məhkəməsi adlandırılan bu məhkəmə sonrakı dövrlərdə ciddi struktur dəyişikliyinə uğramamış və ona aid edilmiş işlərə birinci və yuxarı instansiya məhkəməsi qismində baxmaq, həmçinin fəaliyyəti dairəsində olan məhkəmələr üzərində məhkəmə nəzarətini həyata keçirmək funksiyalarını saxlamışdır.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar Azərbaycan SSR-in məhkəmə orqanları sistemini müəyyən edən qanunvericiliyin də dəyişdirilməsi zərurəti yaranmış, nəticədə 1981-ci ilin iyun ayının 16-da Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında yeni Qanun qəbul edilmişdir. Həmin Qanun Naxçıvan MSSR Ali Məhkəməsinin səlahiyyətlərini daha da genişləndirmişdir.

1990-cı il 26 iyun tarixdə Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında Qanun qəbul edilmiş və bu Qanunla 1981-ci il tarixli qanunda təsbit edilən bir sıra qaydalar təkmilləşdirilmişdir. Həmin dövrdə SSRİ-də, o cümlədən Azərbaycanda cərayan edən hadisələr, ən başlıcası 18 oktyabr 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi məhkəmə quruluşunun, ədalət mühakiməsi qaydalarının daha geniş və köklü şəkildə dəyişdirilməsini tələb etmişdir. Lakin digər sahələrdə olduğu kimi məhkəmə orqanları sistemində də aparılan dəyişikliklər yetərli deyildi.

Yalnız 1993-cü ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi məhkəmə hakimiyyəti sahəsində də köklü islahatların həyata keçirilməsinin əsası qoyulmuş, Azərbaycanın milli məhkəmə sisteminin formalaşdırılması və müasirləşdirilməsi, eləcə də məhkəmə orqanlarının beynəlxalq standartlara cavab verən səviyyədə qurulması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

Müasir tələblərə cavab verən hüquqi islahatların bünövrəsində Ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dayanır. Konstitusiyada dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti qollarına ayrılmışdır. Əsas Qanunda Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi təsbit edilmişdir.

Azərbaycan Respublikasında ədalət mühakiməsinin qabaqcıl təcrübə əsasında həyata keçirilməsini təmin etmək və müstəqil məhkəmə hakimiyyətini daha da möhkəmləndirmək məqsədi ilə 10 iyun 1997-ci ildə Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir ki, həmin qanunun X fəsli bütövlüklə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin statusunun tənzimlənməsinə həsr olunmuşdur. Qanunda Ali Məhkəminin tərkibi, Rəyasət Heyəti, Ali Məhkəmənin kollegiyalarının səlahiyyətləri və digər əlaqəli məsələlər nizama salınır.

Hazırda Ulu öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə məhkəmə sisteminin inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən məhkəmə hakimiyyətinin müasirləşdirilməsi məsələlərinə həsr olunmuş 19 yanvar 2006-cı il tarixli fərmanın imzalanması məhkəmə islahatlarının növbəti mərhələyə qədəm qoymasına böyük təkan vermişdir. Bu mərhələdə həyata keçirilən genişmiqyaslı məhkəmə islahatları ölkəmizin digər bölgələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında da fəaliyyət göstərən məhkəmə orqanlarını əhatə etmişdir. Məhz adı çəkilən fərmandan sonra Naxçıvan Muxtar Respublikasında Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmə yaradılmış və bununla əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin tərkibində olan Ağır Cinayətlərə dair İşlər üzrə birinci instansiya kollegiyası ləğv olunaraq ağır və xüsusilə ağır cinayətlərə baxmaq səlahiyyəti Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsinə verilmişdir. Eyni zamanda Ali Məhkəmədə əvvəldən mövcud olan Mülki işlər üzrə və Cinayət işləri və inzibati xətalara dair işlər üzrə kollegiyalarla yanaşı, daha iki kollegiya - İqtisadi mübahisələrə dair işlər üzrə və Hərbi məhkəmələrin işləri üzrə kollegiyalar yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi ədalət mühakiməsi üzrə fəaliyyətlə yanaşı, qanunla onun üzərinə qoyulmuş digər vəzifələri də yerinə yetirir, o cümlədən məhkəmə təcrübəsini ümumiləşdirir, məhkəmə fəaliyyəti üzərində ictimai nəzarətin gücləndirilməsi, hakimlərin, məhkəmə işçilərinin ixtisaslarının daha da artırılmasına yönələn tədbirlər həyata keçirir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözü gedən fərmanını və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun məhkəmə orqanlarına ünvanlanan tövsiyələrini fəaliyyətində rəhbər tutan Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 2006-cı ildən öz Bülletenini nəşr etdirir. Bülleten vasitəsi ilə Ali Məhkəmənin keçirdiyi tədbirlər və qəbul etdiyi qərarlar, məhkəmə fəaliyyəti haqqında statistik məlumatlar ictimaiyyətə çatdırılır, hakimlər, eləcə hüquq sferasında işləyən digər şəxslər yeni, xüsusilə də Naxçıvan Muxtar Respublikasının normativ-hüquqi aktları, həmçinin hüquq təcrübəsinin yenilikləri, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent praktikası ilə tanış edilir. Bülleten muxtar respublikanın hələlik yeganə hüquq nəşri olduğundan onun səhifələrində məhkəmə orqanlarında işləməyən, lakin hüquqa maraq göstərən başqa şəxslərin də məqalələrinə yer verilir və beləliklə, həm Bülletenin əhatə dairəsi genişləndirilir, həm də Bülleten hüquqi nəşr olaraq daha da inkişaf etdirilir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanının böyük rolu olmuşdur. Fərmanın qəbul edilməsindən sonra ötən 4 ilə yaxın müddət ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində muxtar respublikanın hüquq institutlarının inkişaf etdirilməsi, o cümlədən məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının yaxşılaşdırıması istiqamətində mühüm işlər görülmüşdür.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmə orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasında, eləcə də məhkəmə orqanlarının strukturunun müasirləşdirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük xidmətləri vardır.

Məhkəmə hakimiyyətinə göstərilən diqqət və qayğını muxtar respublikanın bütün məhkəmə orqanlarının normal fəaliyyət göstərmələri üçün hər cür şəraitin yaradılmasında, həmçinin hakim korpusunun peşəkar hüquqşünaslarla formalaşdırılmasında görmək olar.

Hüquq institutlarının inkişaf etdirilməsi və məhkəmə orqanlarının maddi-texniki bazasının möhkəmələndirilməsi sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi, Babək, Ordubad, Kəngərli, Şərur və Sədərək Rayon Məhkəmələri üçün müasir tələblərə cavab verən inzibati

binaların tikilməsi xüsusi yer tutur. Həmin binaların istifadəyə verilməsi bu məhkəmələrin fəaliyyətinin daha da yaxşılaşdırılmasına, muxtar respublika sakinlərinin hüquq xidmətlərinə olan tələbatlarının yüksək səviyyədə ödənilməsinə ciddi təsir göstərmişdir.

Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə 22 iyun 2010-cu il tarixli Azərbaycan Respublikasının Qanunu, eləcə də Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında 15 iyul 2010-cu il tarixli, habelə Məhkəmə quruluşunda bəzi dəyişikliklər, hakimlərin ümumi sayı və məhkəmələrin ərazi yurisdiksiyası haqqında Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2010-cu il tarixli fərmanları ölkəmizdə Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli fərmanı ilə başlayan məhkəmə islahatının yeni mərhələsinin daha da inkişaf etdirilməsinə geniş imkanlar yaratmışdır. Hər üç qanunvericilik aktı özündə məhkəmə sisteminin müasirləşdirilməsi sahəsində bir sıra yenilikləri ehtiva edir. Sözü gedən qanunla Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Məhkəmələrinin, eləcə də Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsinin adları dəyişdirilib müvafiq olaraq Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi, həmçinin Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi adlandırılmışdır. Bundan başqa, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Ali Məhkəmələrinin tərkibində fəaliyyət göstərən mülki işlər, iqtisadi mübahisələrə dair işlər, cinayət işləri və inzibati xətalara dair işlər və hərbi məhkəmələrin işləri üzrə kollegiyaların adları müvafiq olaraq mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiya ifadələri ilə əvəz edilmişdir.

Məhkəmə hakimiyyətinə göstərilən qayğının digər nümunəsi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Sədrinin və hakimlərinin, eləcə də məhkəmə işçilərinin əməyinin yüksək qiymətləndirilməsi və onlara dövlət təltiflərinin verilməsi ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Sədrinə Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərmanına uyğun olaraq isə Ali Məhkəmənin üç hakiminə Naxçıvan Muxtar Respublikasının Əməkdar hüquqşünası, məhkəmənin bir işçisinə isə Naxçıvan Muxtar Respublikasının Əməkdar dövlət qulluqçusu fəxri adı verilmiş, Ali Məhkəmənin bir hakimi Tərəqqi medalı ilə təltif edilmişdir.

Bütün bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə «Dövlət qulluğu haqqında» qanununa dəyişikliklər edilmiş, nəticədə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin Aparatı 3-cü kateqoriya dövlət orqanları sırasından 2-ci kateqoriya dövlət orqanları sırasına keçirilmişdir. Bu isə Ali Məhkəmədə çalışan dövlət qulluqçularının maddi təminatının yüksəldilməsinə və onlara daha yüksək ixtisas dərəcələrinin verilməsinə səbəb olmuşdur.

Muxtar Respublikamızda məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətində informasiya təminatının həyata keçirilməsinin daha da təkmilləşdirilməsi, eləcə də məhkəmələrdə yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində də mühüm işlər görülmüşdür. Həmin sahədə görülən işlərin davamı kimi bu ilin iyul ayında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin www.supremecourt.nakhchivan.az adlı internet saytı hazırlanıb istifadəyə verilmişdir. On beş minə yaxın yazılı materialı özündə cəmləşdirən sayt muxtar respublikada yaşayan əhalinin hüquqi maarifləndirilməsi işinin həyata keçirilməsində xüsusi əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasını göstərən başqa bir amil də məhkəmədə on minə yaxın qanunvericilik elektron bazası və mindən artıq hüquq ədəbiyyatı ilə təchiz olunmuş kitabxananın fəaliyyət göstərməsidir. Bu isə məhkəmədə fəaliyyət göstərən hakimlərin və aparat işçilərinin müxtəlif sahələrə aid qanunvericilik və hüquq ədəbiyyatına olan tələbatının ödənilməsini təmin edir.

Göründüyü kimi bir tərəfdən qanunvericiliyə gətirilən yeniliklər, digər tərəfdən isə məhkəmələrin maddi təminat məsələlərinə göstərilən diqqət, o cümlədən hakimlərin, məhkəmə işçilərinin iş şəraitinin müasir tələblər səviyyəsinə çatdırılması Naxçıvan Muxtar Respublikası

Ali Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrinin keyfiyyətlə yerinə yetirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiə olunmasına xidmət edir. Şübhə yoxdur ki, görülən bu işlər Naxçıvan Muxtar Respublikasının bütün məhkəmə orqanları sisteminin sürətlə inkişaf etdirilməsinə böyük təkan vermiş və nəticədə muxtar respublikada insan hüquq və azadlıqlarının daha möhkəm təminatı üçün münbit zəmin yaratmışdır.

Beləliklə, şərəfli bir tarixi inkişaf yolu keçərək bu il böyük ruh yüksəkliyi ilə 85 illiyini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin bütün əməkdaşlarını yubiley münasibətilə təbrik edir, onlara öz məsuliyyətli işlərində uğurlar arzulayırıq.

***Redaksiya Heyəti***

## "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında", "Məhkəmə qərarlarının icrası haqqında"
## Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati
## Xətalar Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə
## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında, Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 18; 2001-ci il, № 11, maddə 687, № 12, maddə 731; 2003-cü il, № 1, maddə 23; 2004-cü il, № 2, maddə 57, № 3, maddə 133; 2006-cı il, № 11, maddə 928; 2007-ci il, № 1, maddə 4, № 7, maddə 712) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. Qanunun adında Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları sözləri İcra məmurları sözləri ilə əvəz edilsin;

2. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları sözləri ismin müvafiq hallarında icra məmurları sözləri ilə əvəz edilsin;

3. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə nəzarətçiləri sözləri ismin müvafiq hallarında icra məmurları sözləri ilə əvəz edilsin;

4. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə nəzarətçisi və məhkəmə icraçısı sözləri ismin müvafiq hallarında icra məmurları sözləri ilə əvəz edilsin;

5. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti sözləri ismin müvafiq hallarında icra xidməti sözləri ilə əvəz edilsin;

6. 1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**Maddə 1. İcra məmurlarının funksiyaları**

İcra məmurları Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, apellyasiya məhkəmələrinin, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin, Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikası məhkəməsinin, yerli iqtisad məhkəmələrinin, Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası hərbi məhkəməsinin, hərbi məhkəmələrin, Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası məhkəməsinin, rayon (şəhər) məhkəmələrinin (bundan sonra - məhkəmələr) müəyyən olunmuş fəaliyyət qaydasını təmin edir, habelə məhkəmələrin mülki, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə qərarlarının, cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların və qanunvericiliklə icrası icra məmurlarına həvalə edilmiş digər orqanların aktlarının icrasını həyata keçirirlər.;

7. 3-cü maddə üzrə:

7.1. ikinci hissədə və Azərbaycan Respublikası Ali Məhkəməsinin məhkəmə nəzarətçiləri istisna olmaqla digər məhkəmə nəzarətçilərinin, habelə məhkəmə icraçılarının sözləri , Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin icra məmurları istisna olmaqla digər icra məmurlarının sözləri ilə əvəz edilsin;

7.2. üçüncü hissədə və Azərbaycan Respublikasının Ali Məhkəməsində məhkəmə nəzarətçilərinin sözləri , Azərbaycan Respublikasının Ali Məhkəməsində və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində icra məmurlarının sözləri ilə əvəz edilsin;

8. 5-ci maddənin ikinci hissəsində və 6-cı maddədə Baş məhkəmə məmuru sözləri Baş icra məmuru sözləri ilə əvəz edilsin;

9. 5-ci maddənin dördüncü hissəsində məhkəmə nəzarətçiləri, habelə məhkəmə icraçıları sözləri icra məmurları sözləri ilə əvəz edilsin;

10. 7-ci və 8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**Maddə 7. İcra məmurlarının vəzifələri**

İcra məmuru icra ilə əlaqədar aşağıdakı vəzifələri yerinə yetirir:

icraata daxil olmuş icra sənədlərinin vaxtında, tam və düzgün icra edilməsi üçün tədbirlər görür;

icrada iştirak edən tərəflərə və onların nümayəndələrinə icra sənədləri ilə tanış olmağa, onlardan çıxarış etməyə və ya həmin sənədlərin surətini çıxarmağa imkan yaradır;

icrada iştirak edən tərəflərin icraya dair ərizə və vəsatətlərinə müəyyən olunmuş müddətdə baxır, müvafiq qərar qəbul edir, onlardan şikayət vermək müddətini və qaydasını izah edir;

alimentin məhkəmənin qətnaməsində və ya aliment ödənilməsi barədə sazişdə göstərilən miqdarına uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada borcları müəyyən edir;

icra xidməti və ya qurumunun rəhbərinin göstərişlərini yerinə yetirir.

İcra məmuru məhkəmələrin müəyyən olunmuş fəaliyyət qaydasının təmin edilməsi ilə əlaqədar aşağıdakı vəzifələri yerinə yetirir:

məhkəmədə hakimlərin, andlı iclasçıların, məhkəmə prosesinin digər iştirakçılarının və şahidlərin təhlükəsizliyini təmin edir;

məhkəmənin fəaliyyəti ilə əlaqədar hakimlərin sərəncamlarını icra edir;

məhkəmə və hakimin qərarı ilə təqsirləndirilən şəxs və digər şəxslər barəsində qanunda nəzərdə tutulmuş prosessual məcburiyyət tədbirlərini tətbiq edir;

iş vaxtı məhkəmə binalarının, müşavirə otaqlarının və məhkəmə iclas zalının mühafizəsini təmin edir;

məhkəmə iclas zalının iclasa hazırlığını yoxlayır, hakimin tapşırığı ilə cinayət işinin və maddi sübutların məhkəmə iclas zalına gətirilməsini və mühafizəsini təmin edir;

həbsdə saxlanılan məhkumların müşayiət edilməsində, onların mühafizəsi və təhlükəsizliyi məsələlərində hərbiləşdirilmiş qurumlarla qarşılıqlı fəaliyyət göstərir;

məhkəmənin ərazisində ictimai qaydaları təmin edir, qanun pozuntularının qarşısını alır, onları aradan qaldırır, nizam-intizamı pozanları aşkar edərək qanunvericilikdə nəzərdə tutulmuş müvafiq tədbirlər görür;

məhkəmə çağırışı, habelə məhkəmə qərarının icrası ilə əlaqədar gəlməkdən imtina edən şəxslərin məcburi qaydada gətirilməsini həyata keçirir;

icra xidməti və ya qurumunun rəhbərinin göstərişlərini yerinə yetirir.

**Maddə 8. İcra məmurlarının hüquqları**

İcra məmurunun icra ilə əlaqədar aşağıdakı hüquqları vardır:

öz səlahiyyətləri daxilində müəssisə, təşkilat, idarə və vətəndaşlardan icra ilə əlaqədar məlumat, arayış və izahat almaq;

borclunun iş yerində icra sənədlərinin icrası vəziyyətini yoxlamaq;

müəssisələrə, təşkilatlara, idarələrə və vətəndaşlara icra ilə əlaqədar konkret tapşırıqlar vermək;

zəruri hallarda borcluya məxsus mənzilə və ya otağa daxil olmaq, orada baxış keçirmək və bütün saxlama yerlərini açmaq və baxmaq, habelə müvafiq məhkəmənin qərarına əsasən bu hərəkətləri borcluya məxsus digər şəxslərin tutduqları mənzil və otaqlarda da həyata keçirmək;

əmlaka həbs qoymaq, əmlakı götürmək, saxlanmağa vermək və üzərinə həbs qoyulmuş əmlakı realizə etmək (qanuna əsasən icra sənədləri üzrə tələb yönəldilə bilməyən əmlak növlərindən başqa);

tələbi borclunun hesabında olan pul vəsaitlərinə və digər qiymətli əşyalarına, banklarda və ya digər kredit təşkilatlarındakı əmanətlərinə yönəltmək;
tələbi borclunun əməkhaqqına, pensiyasına, təqaüdünə və sair gəlirlərinə yönəltmək;
tələbi borclunun digər şəxslərdə olan pul məbləğinə və əmlakına yönəltmək;
icra sənədlərində göstərilmiş predmetləri borcludan almaq və tələbkara vermək;
icra üçün daxil olmuş sənəddə aydın olmayan məsələlər haqqında məhkəməyə, yaxud icra sənədini verən orqanlara müraciət etmək;
borclunun yerinin, əmlakının, uşağının olduğu yerin müəyyən edilməsi üçün qanunla nəzərdə tutulmuş qaydada tədbirlər görmək;
icra hərəkətləri ilə əlaqədar vətəndaşları və vəzifəli şəxsləri çağırmaq;
icra sənədlərində göstərilən digər tədbirləri həyata keçirmək;
Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda fiziki güc, xüsusi vasitə və xidməti silah tətbiq etmək.
İcra məmurunun məhkəmələrin müəyyən olunmuş fəaliyyət qaydasının təmin edilməsi ilə əlaqədar aşağıdakı hüquqları vardır:
kömək üçün polis və təhlükəsizlik orqanlarının əməkdaşlarının, daxili qoşunların hərbi qulluqçularının dəvət olunması üçün icra qurumunun rəhbərinə müraciət etmək;
Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda fiziki güc, xüsusi vasitə və xidməti silah tətbiq etmək.
Cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaları icra edən icra məmurlarının vəzifə və hüquqları Azərbaycan Respublikasının cəza-icra qanunvericiliyi ilə tənzimlənir.;
11. 11-ci maddənin beşinci hissəsində məhkəmə icraçıları qurumunun sözləri icra qurumunun sözləri ilə əvəz edilsin.
II. Məhkəmə qərarlarının icrası haqqında Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 3, maddə 114; 2003-cü il, № 6, maddə 277; 2004-cü il, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007-ci il, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008-ci il, № 6, maddə 462, № 7, maddə 602; 2009-cu il, № 12, maddə 952; 2010-cu il, № 2, maddə 75) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:
1. Qanunun adında Məhkəmə qərarlarının icrası sözləri İcra sözü ilə əvəz edilsin;
2. preambulada iqtisadi mübahisələrə dair işlər üzrə qərarlarının sözlərindən sonra, cinayət işləri üzrə hökmlərinin və qərarlarının əmlakın alınmasına dair hissəsinin sözləri əlavə edilsin;
3. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə nəzarətçiləri və icraçıları, məhkəmə icraçıları və nəzarətçiləri sözləri ismin müvafiq hallarında icra məmurları sözləri ilə əvəz edilsin;
4. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə icraçıları sözləri ismin müvafiq hallarında icra məmurları sözləri ilə əvəz edilsin;
5. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə icraçısı sözləri ismin müvafiq hallarında icra məmuru sözləri ilə əvəz edilsin;
6. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə icraçıları qurumu sözləri ismin müvafiq hallarında icra qurumu sözləri ilə əvəz edilsin;
7. 1-ci maddənin adında Məhkəmə və digər orqanların qərarlarının icrası sözləri İcra sözü ilə əvəz edilsin;
8. 1.1-ci maddədə Məhkəmə və digər orqanların qərarlarının icrası sözləri İcra sözü ilə, Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında sözləri İcra məmurları haqqında sözləri ilə əvəz edilsin;
9. 1.2-ci maddədə məhkəmə və digər orqanların qərarlarının icrasına sözləri icraya sözü ilə əvəz edilsin;
10. aşağıdakı məzmunda 1-1-ci maddə əlavə edilsin:

Maddə 1-1. İcra qanunvericiliyinin prinsipləri

İcra qanunvericiliyi qanunun aliliyinin təmin olunması və hamının qanun qarşısında bərabərliyi, obyektivlik, ədalətlilik prinsiplərinə əsaslanır.;

11. 5.1-ci maddədə icra sənədini sözləri icra sənədinin icra qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş surətini sözləri ilə əvəz edilsin;

12. 5.3-cü maddədə təşkilatı sözündən sonra icra məmurunun inzibati xəta haqqında protokoluna əsasən sözləri əlavə edilsin;

13. 8.2-ci maddənin ikinci hissəsinin birinci cümləsində beş gün sözləri on gün sözləri ilə əvəz edilsin;

14. 10.4-cü maddənin ikinci cümləsində mübahisələrə yol verilmir sözləri yaranmış mübahisələr icra xidmətinin rəhbəri tərəfindən həll olunur sözləri ilə əvəz edilsin;

15. 12.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

Müstəsna hallarda icra sənədində göstərilən tələblərin icra olunması icra qurumunun rəhbərinin təqdimatı əsasında icra xidmətinin rəhbəri (baş icra məmuru) tərəfindən 1 ay müddətinədək uzadıla bilər.;

16. 16.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

16.2. İcra məmuru icra hərəkətlərinin təxirə salınması haqqında qərar qəbul edir və həmin qərar icra qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur. Bu barədə tərəflərə, habelə müvafiq məhkəməyə və ya digər orqana bildiriş göndərilir.;

17. 17.1.7-ci maddə 17.1.8-ci maddə hesab olunsun və aşağıdakı məzmunda 17.1.7-ci maddə əlavə edilsin:

17.1.7. İcraatda olan iş üzrə qəbul olunmuş məhkəmə aktlarından verilmiş apellyasiya və kassasiya şikayəti müvafiq məhkəmələrin icraatına qəbul olunduqda;;

18. 19.1.6-cı maddə 19.1.7-ci maddə hesab olunsun və aşağıdakı məzmunda 19.1.6-cı maddə əlavə edilsin:

19.1.6. İcraatda olan iş üzrə qəbul olunmuş məhkəmə aktlarından verilmiş apellyasiya və kassasiya şikayəti ilə əlaqədar həmin məhkəmələrin qərarları qanuni qüvvəyə minənədək;

19. 27.1-ci maddədə Alimentlərin tutulması, sağlamlığa vurulmuş ziyanın ödənilməsi, yaxud ailəni dolandıranın itkisi nəticəsində zərər çəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsi, habelə uşağın borcludan alınıb tələbkara verilməsi barədə icra sözləri İcra sözü ilə əvəz edilsin;

20. 27.6-cı, 27.7-ci və 27.8-ci maddələr çıxarılsın;

21. 27.9-cu maddədən və axtarış xərclərinin tutulması sözləri çıxarılsın;

22. 29.2-ci maddədə məhkəmə və digər orqanların qərarlarının icrası sözləri icra sözü ilə əvəz edilsin;

23. 38.1-ci maddədə binaların və anbarların sözləri yaşayış və ya qeyri-yaşayış sahələrinin, obyektlərin sözləri ilə əvəz edilsin;

24. 42.3-cü maddədə qurumunun sözündən sonra və ya icra xidmətinin sözləri, tərəfindən sözündən sonra on gün müddətində sözləri əlavə edilsin;

25. 42.4-cü maddənin ikinci cümləsində tərəfindən sözündən sonra on gün müddətində sözləri əlavə edilsin;

26. 42.5-ci maddənin ikinci cümləsində qurumunun sözündən sonra və ya icra xidmətinin sözləri əlavə edilsin;

27. 53.1-ci maddədə və əmlakın növlərindən sözləri, əmlakın növündən və mənsubiyyətindən sözləri ilə əvəz edilsin;

28. 53.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

Dəyəri 500 manatdan artıq olmayan daşınar əmlak icra xidmətinin müəyyən etdiyi ticarət şəbəkələrində müvafiq müqavilə əsasında satıla bilər.;

29. 54.3-cü maddədə məhkəmə icraçıları qurumunun sözləri icra xidmətinin sözləri ilə əvəz edilsin;

30. 54.4-cü maddədə məhkəmə icraçıları qurumunun rəhbəri sözləri icra xidməti sözləri ilə əvəz edilsin;

31. 70.3-cü maddədən və icra sənədinin icrası üçün yeni müddət təyin edir sözləri çıxarılsın;

32. 72-ci və 73-cü maddələrin adında və mətnində ismin müvafiq hallarında verilmiş mənzil (bina) sözləri ismin müvafiq hallarında yaşayış və ya qeyri-yaşayış sahəsi sözləri ilə əvəz edilsin;

33. IX fəslin adında, 76-cı maddənin adında və mətnində Əcnəbi vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xarici təşkilatlar sözləri Əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və xarici hüquqi şəxslər sözləri ilə əvəz edilsin;

34. 79.2.4-cü, 80.2-ci və 81.5-ci maddələr çıxarılsın;

35. 82.1-ci maddənin ikinci cümləsində Eyni zamanda sözləri İnzibati məsuliyyətə cəlb etmə haqqında qərar qəbul edildikdən sonra sözləri ilə əvəz edilsin;

36. 82.3-cü maddədə üzrsüz səbəbdən yenidən sözləri qərəzli olaraq sözləri ilə, müvafiq orqana, məhkəmə icraçıları qurumunun rəhbəri sözləri müvafiq cinayətlərə dair işlər üzrə ibtidai istintaq aparan orqana, icra xidmətinin rəhbəri (baş icra məmuru) sözləri ilə əvəz edilsin;

37. 84.1-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

Eyni zamanda, icra qurumunun və ya icra xidmətinin rəhbəri tərəfindən icra məmurunun qanuni tələblərini yerinə yetirməyən vəzifəli şəxsin qanunsuz hərəkətlərinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlərin görülməsi barədə yuxarı və ya aidiyyəti təşkilatlara təqdimat göndərilə bilər. Vəzifəli şəxsin qanunsuz hərəkətlərinə şərait yaradan halların aradan qaldırılması barədə təqdimata baxılmasının nəticələri haqqında 1 ay müddətində məlumat verilməlidir.;

38. 84.4-cü maddədə məhkəmə icraçısı məhkəmə icraçıları qurumunun rəhbəri sözləri icra məmuru müvafiq cinayətlərə dair işlər üzrə ibtidai istintaq aparan orqana, icra xidmətinin rəhbəri (baş icra məmuru) sözləri ilə əvəz edilsin;

39. aşağıdakı məzmunda 84-1-ci maddə əlavə edilsin:

**Maddə 84-1. Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması**

84-1.1. Məhkəmə qərarları əsasında verilmiş icra sənədləri könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, borclunun ölkədən getmək hüququ icra məmurunun əsaslandırılmış təqdimatı əsasında məhkəmənin qərarı ilə müvəqqəti məhdudlaşdırıla bilər. Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə icra məmuru tərəfindən dərhal borclunun özünə, tələbkara və müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.

84-1.2. Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqdan sonra icra məmuru həmin məhdudlaşdırmanın götürülməsi barədə icra qurumunun rəhbəri tərəfindən təsdiq olunan qərar qəbul edir. Həmin qərar dərhal borcluya, tələbkara, məhkəməyə və müvafiq icra hakimiyyəti orqanına göndərilir.;

40. **86-cı maddə aşağıdakı redaksiyada verilsin:**

Maddə 86. İcra məmurunun həvəsləndirilməsi

86.1. Xidməti vəzifələrini nümunəvi icra edən icra məmuru müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada əməkhaqqının beş misli miqdarından artıq olmamaqla mükafatlandırıla bilər.

86.2. Mükafat icra məmurlarının xüsusi fondundan ödənilir..

III. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001-ci il, № 1, maddə 24, № 7, maddə 455; 2002-ci il, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003-cü il, № 6,

maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005-ci il, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006-cı il, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007-ci il, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008-ci il, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009-cu il, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010-cu il, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276) aşağıdakı dəyişikliklər edilsin:

1. 196.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə min manatdan beş min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.;

2. 196.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.;

3. 306.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

min manatdan üç min manatadək miqdarda cərimə və ya yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.;

4. 306.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır..

IV. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, I kitab, maddə 584; 2001-ci il, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002-ci il, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003-cü il, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004-cü il, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005-ci il, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006-cı il, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007-ci il, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008-ci il, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7,

maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009-cu il, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010-cu il, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276; Azərbaycan Respublikasının 2010-cu il 20 aprel tarixli 991-IIIQD, 992-IIIQD nömrəli, 11 may tarixli 1006-IIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 313-1-ci maddənin adında məhkəmə icraçılarının sözləri icra məmurunun sözləri ilə əvəz edilsin;

2. 313-1.1-ci maddə üzrə:

2.1. dispozisiyada məhkəmə icraçılarının və məhkəmə icraçısı sözləri ismin müvafiq hallarında icra məmuru sözləri ilə əvəz edilsin;

2.2. sanksiya aşağıdakı redaksiyada verilsin:

fiziki şəxslər beş yüz manatdan min manatadək miqdarda cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on günədək inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər min manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər üç min manatdan beş min manatadək miqdarda cərimə edilir.;

3. 313-1.2-ci maddənin sanksiyasında qırx manatdan altmış manatadək sözləri min manatdan üç min manatadək sözləri ilə əvəz edilsin;

4. 313-1.3-cü maddənin sanksiyasında yetmiş manatdan doxsan manatadək sözləri min manatdan üç min manatadək sözləri ilə, iki yüz manatdan iki yüz əlli manatadək sözləri dörd min manatdan altı min manatadək sözləri ilə əvəz edilsin.

V. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, III kitab, maddə 586, № 12, maddə 835; 2001-ci il, № 7, maddə 455; 2002-ci il, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004-cü il, № 6, maddə 399; 2005-ci il, № 4, maddə 278; 2006-cı il, № 11, maddə 929; 2007-ci il, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008-ci il, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010-cu il, № 3, maddə 171; Azərbaycan Respublikasının 2010-cu il 5 mart tarixli 971-IIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. Məcəllənin mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə icraçısı sözləri ismin müvafiq hallarında icra məmuru sözləri ilə əvəz edilsin;

2. Məcəllənin mətnində ismin müvafiq hallarında verilmiş məhkəmə icraçıları sözləri ismin müvafiq hallarında icra məmurları sözləri ilə əvəz edilsin;

3. 23.2-ci maddədə və ya sözlərindən sonra müddəti göstərilməklə sözləri əlavə edilsin;

4. 172.4-cü maddənin ikinci cümləsində məhkəmə icraçısına sözləri icra qurumuna sözləri ilə əvəz edilsin;

5. 172.6-cı maddədə məhkəməyə sözündən sonra və icra qurumuna sözləri əlavə edilsin;

6. 173.1-ci maddədə axtarış elan edilir sözləri icra məmurunun qərarı ilə axtarış elan edilir və qərarın surəti müvafiq icra hakimiyyəti orqanına göndərilir sözləri ilə əvəz edilsin;

7. 173.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin: Məsələyə baxarkən məhkəmə icra məmurunun mülahizəsini nəzərə alır.;

8. 178-ci maddənin mətni 178.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 178.2-178.7-ci maddələr əlavə edilsin:

178.2. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə haqqında qərarın surəti şəxsin azad olunduğu vaxtdan üç gündən gec olmayaraq onun yaşayış yeri üzrə məhkəməyə və icra qurumuna göndərilir. Eyni zamanda, cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən şəxsdən azad edildiyi vaxtdan on beş gün müddətində yaşayış

yeri üzrə icra qurumuna qeydiyyata götürülməsi ilə əlaqədar müraciət etməsi haqqında iltizam alınır.

178.3. İcra məmuru cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərin qeydiyyatını aparır, onların ictimai qaydalara riayət etməsinə və məhkəmə tərəfindən onlara həvalə olunan vəzifələrin yerinə yetirilməsinə nəzarət edir.

178.4. Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslər məhkəmə tərəfindən onlara həvalə edilən vəzifələri yerinə yetirməli və icra məmurunun çağırışı ilə gəlməlidirlər. Üzrsüz səbəblərdən gəlməyən şəxslər icra qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş icra məmurunun qərarı ilə məcburi gətirilə bilərlər.

178.5. Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən mütəmadi, yaxud qərəzli olaraq boyun qaçırdıqda və ya ictimai qaydaları pozduğuna görə barəsində inzibati tənbeh tətbiq edildikdə, icra məmuru və ya hərbi hissənin komandiri (rəisi) şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsi və cəzanın çəkilməmiş hissəsinin icra olunması haqqında məhkəməyə təqdimat verir.

178.6. Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin il ərzində dəfələrlə yerinə yetirilməməsi vəzifələri mütəmadi yerinə yetirməmə hesab edilir.

178.7. Otuz gündən artıq müddətdə olduğu yer müəyyən edilməyən şəxs ona həvalə edilmiş vəzifələri yerinə yetirməkdən qərəzli boyun qaçırmış hesab edilir.;

9. 180.4-cü maddədə məhkəmənin qərarı sözləri icra qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş icra məmurunun qərarı sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 18 iyun 2010-cu il.

## Məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi və "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında", "Məhkəmə qərarlarının icrası haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Məhkəmə qərarlarının vaxtında və tam icra olunmasının ədalət mühakiməsinin səmərəliliyinin və məhkəmə hakimiyyətinin nüfuzunun artırılmasında mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, son illərdə bu sahədə qanunvericilik bazası möhkəmləndirilmiş, bir sıra təşkilati və praktiki tədbirlər həyata keçirilmişdir.

Məhkəmə və digər orqanların qərarlarının icrası işini daha da təkmilləşdirmək və Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında, Məhkəmə qərarlarının icrası haqqında Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə icraçıları baş idarəsi İcra baş idarəsi adlandırılsın.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki:

2.1. qanunvericilikdə nəzərdə tutulmuş məcburi icra və məsuliyyət tədbirlərinin səmərəli tətbiqini təmin etsin, məhkəmə və digər orqanların qərarlarının icrasından yayınma hallarının qarşısının alınması üzrə fəaliyyətini gücləndirsin;

2.2. dövlət orqanları tərəfindən məhkəmə qərarlarının icra olunması vəziyyətinə dair hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. icra işinin keyfiyyətcə yeni səviyyədə qurulması, bu sahədə kadr potensialının gücləndirilməsi, icra xidmətinin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması üçün tədbirlər görsün;

2.4. icra məmurları tərəfindən icra intizamına ciddi əməl olunmasını təmin etsin, onların fəaliyyətində sui-istifadə, süründürməçilik və digər qanun pozuntuları ilə bağlı müraciətlərin təxirəsalınmadan araşdırılması üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

3.1. icra işini həyata keçirən ədliyyə orqanlarının zəruri təşkilati-texniki vasitələrlə təmin edilməsi məqsədilə tədbirlər görsün və bunun üçün tələb olunan vəsaitin 2011-ci il dövlət büdcəsinin layihəsində nəzərdə tutulmasını təmin etsin;

3.2. bir ay müddətində:

3.2.1. qüvvədə olan qanunvericilik aktlarının Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında, Məhkəmə qərarlarının icrası haqqında Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2.3. öz səlahiyyətləri daxilində Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında, Məhkəmə qərarlarının icrası haqqında Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Müəyyən edilsin ki:

4.1. İcra haqqında Azərbaycan Respublikası Qanununun 84-1.1-ci maddəsinin ikinci cümləsində, 84-1.2-ci maddəsinin ikinci cümləsində və 86.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

4.2. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 173.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

5. Ədliyyə orqanlarının inkişafı haqqında Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 8, maddə 671; 2007-ci il, № 12, maddə 1223; 2009-cu il, № 12, maddə 983; 2010-cu il, № 2, maddə 80) ilə təsdiq edilmiş Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Strukturunda və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının tərkibində Məhkəmə icraçıları sözləri İcra sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2010-cu il.*

## "Məhkəmələr və hakimlər haqqında", və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə
## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 5, maddə 413; 1999-cu il, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001-ci il, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002-ci il, № 1, maddə 4, № 12, maddə 706; 2003-cü il, № 6, maddə 278; 2004-cü il, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005-ci il, № 1, maddə 7, № 8, maddə 686; 2006-cı il, № 1, maddə 4, № 12, maddə 1005; 2007-ci il, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008-ci il, № 3, maddə 163, № 7, maddə 609; 2009-cu il, № 2, maddə 46, № 11, maddə 878) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə sözləri ismin müvafiq hallarında Ağır Cinayətlər Məhkəməsi sözləri ilə əvəz edilsin;

2. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsi sözləri ismin müvafiq hallarında Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi sözləri ilə əvəz edilsin;

3. Qanunun mətnində Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin sözləri Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sözləri ilə əvəz edilsin;

4. Qanunun mətnində ismin müvafiq hallarında verilmiş yerli iqtisad məhkəməsi sözləri ismin müvafiq hallarında inzibati-iqtisadi məhkəmə sözləri ilə əvəz edilsin;

5. 19-cu maddədə:

5.1. birinci hissədə:

5.1.1. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

ağır cinayətlər məhkəmələri;;

5.1.2. altıncı abzas çıxarılsın;

5.1.3. yeddinci abzas aşağıdakı redaksiyada verilsin:

inzibati-iqtisadi məhkəmələr;;

5.2. üçüncü hissə dördüncü hissə hesab olunsun və aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.;

6. 22-ci, 33-cü və 44-cü maddələrin ikinci hissələrində, 27-ci, 30-3-cü və 62-ci maddələrin üçüncü hissələrində, 53-cü maddənin dördüncü hissəsində Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq sözləri Məhkəmə-Hüquq Şurası tərəfindən sözləri ilə əvəz edilsin;

7. 23-cü, 34-cü, 45-ci maddələrin birinci hissəsinin üçüncü abzaslarında, 28-ci, 30-4-cü, 57-ci, 66-cı maddələrin üçüncü abzaslarında işlərin həcmini və sayını nəzərə

alaraq hakimlər arasında işləri bölüşdürür sözləri işlərin kargüzarlıq qaydalarına uyğun bölüşdürülməsinə nəzarət edir sözləri ilə əvəz edilsin;

8. V fəslin adı aşağıdakı redaksiyada verilsin:

Ağır cinayətlər məhkəmələri;

9. 26-cı maddə aşağıdakı redaksiyada verilsin:

Maddə 26. Ağır cinayətlər məhkəməsinin təşkili

Ağır cinayətlər məhkəməsinin təşkili, olduğu yer və ərazi yurisdiksiyası Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.;

10. 34-cü maddənin ikinci hissəsi çıxarılsın;

11. VII fəsil çıxarılsın;

12. VIII fəslin adı aşağıdakı redaksiyada verilsin:

İnzibati-iqtisadi məhkəmələr;

13. 42-ci, 61-ci və 77-ci maddələrin birinci hissələrində iqtisadi mübahisələrə dair sözlərindən əvvəl inzibati və sözləri əlavə edilsin;

14. 45-ci maddənin ikinci hissəsi çıxarılsın;

15. 53-cü maddənin birinci hissəsində mülki işlər üzrə kollegiyadan, iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyadan, cinayət işləri və inzibati xətalara dair işlər üzrə kollegiyadan və hərbi məhkəmələrin işləri üzrə kollegiyadan sözləri mülki kollegiyadan, inzibati-iqtisadi kollegiyadan, cinayət kollegiyasından və hərbi kollegiyadan sözləri ilə əvəz edilsin;

16. 54-cü maddənin üçüncü hissəsinin ikinci abzasında məhkəmə kollegiyalarının tərkiblərini təşkil edir və hakimləri kollegiyalar üzrə müəyyən edir sözləri məhkəmə kollegiyalarını və müvafiq məhkəmə tərkiblərini təşkil edir sözləri ilə əvəz edilsin;

17. 62-ci maddənin birinci hissəsində mülki işlər üzrə kollegiyadan, iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyadan, cinayət və inzibati xətalara dair işlər üzrə kollegiyadan və hərbi məhkəmələrin işləri üzrə kollegiyadan sözləri mülki kollegiyadan, inzibati-iqtisadi kollegiyadan, cinayət kollegiyasından və hərbi kollegiyadan sözləri ilə əvəz edilsin;

18. 63-cü maddənin üçüncü hissəsinin ikinci abzasında məhkəmə kollegiyalarının tərkiblərini sözləri məhkəmə kollegiyalarını və müvafiq məhkəmə tərkiblərini sözləri ilə əvəz edilsin;

19. 78-ci maddədə:

19.1. üçüncü hissədə mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyaları sözləri mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya sözləri ilə əvəz edilsin;

19.2. dördüncü hissədə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun sözləri Məhkəmə-Hüquq Şurası tərəfindən sözləri ilə əvəz edilsin;

20. 79-cu maddənin üçüncü hissəsinin üçüncü abzasında Ali Məhkəmənin kollegiyalarının tərkibini təşkil edir və hakimləri kollegiyalar üzrə müəyyən edir sözləri Ali Məhkəmənin hakimləri sırasından məhkəmə kollegiyalarını və müvafiq məhkəmə tərkiblərini təşkil edir sözləri ilə əvəz edilsin;

21. 83-cü maddənin üçüncü abzasında kollegiyalar arasında işləri və sözləri işlərin kollegiyalar arasında kargüzarlıq qaydasına uyğun bölüşdürülməsinə nəzarət edir, sözləri ilə əvəz edilsin;

22. 84-1-ci maddənin üçüncü abzasında işlərin həcmini və sayını nəzərə alaraq hakimlər arasında işləri və sözləri işlərin kargüzarlıq qaydalarına uyğun bölüşdürülməsinə nəzarət edir, sözləri ilə əvəz edilsin;

23. 86-cı maddənin birinci hissəsində məhkəmələrin fəaliyyəti üçün sözləri birinci instansiya məhkəmələrinin fəaliyyəti üçün sözləri ilə, məhkəmələrin müvafiq sözləri isə onların müvafiq sözləri ilə əvəz edilsin;

24. 94-cü maddənin beşinci hissəsində:

24.1. birinci cümlədən və bir qayda olaraq həmin vəzifəyə iki dəfədən artıq təkrarən təyin oluna bilməzlər sözləri çıxarılsın;

24.2. ikinci cümlədə ağır cinayətlərə dair işlər üzrə məhkəmələrin sözləri ağır cinayətlər məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sözləri ilə əvəz edilsin;

25. 106-cı maddənin beşinci abzası aşağıdakı redaksiyada verilsin:

ağır cinayətlər məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin, hərbi məhkəmələrin və inzibati-iqtisadi məhkəmələrin sədrlərinə Ali Məhkəmə sədrinin vəzifə maaşının 80 faizi həcmində;.

II. Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 1, maddə 8, № 8, maddə 686; 2006-cı il, № 1, maddə 4; 2007-ci il, № 4, maddə 321) aşağıdakı dəyişiklik və əlavələr edilsin:

1. 6.7-ci maddə çıxarılsın;

2. 11.0.1-ci maddədə və hakimlərin sözlərindən sonra ümumi sözü əlavə edilsin;

3. Aşağıdakı məzmunda 12.0.3-1-ci maddə əlavə edilsin:

12.0.3-1. Hakimlərin ümumi sayı çərçivəsində Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrdə hakimlərin sayını müəyyən etmək;.

III. Keçid müddəaları:

1. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi və Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi bu qanunda nəzərdə tutulmuş ağır cinayətlər məhkəmələri təşkil olunana və onların hakimləri təyin edilənədək səlahiyyətlərinin həyata keçirilməsini davam etdirirlər.

2. Yerli iqtisad məhkəmələri bu qanunda nəzərdə tutulmuş inzibati-iqtisadi məhkəmələr təşkil olunana və onların hakimləri təyin edilənədək səlahiyyətlərinin həyata keçirilməsini davam etdirirlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2010-cu il.*

## Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər
## və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan
## Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının
## 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının məhkəmə sistemini təkmilləşdirmək və Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli qanununun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Aşağıdakı yeni məhkəmələr təşkil edilsin:

1.1. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi əsasında Bakı Ağır Cinayətlər Məhkəməsi;

1.2. Lənkəran Ağır Cinayətlər Məhkəməsi - Lənkəran şəhərində;

1.3. Gəncə Ağır Cinayətlər Məhkəməsi - Gəncə şəhərində;

1.4. Şəki Ağır Cinayətlər Məhkəməsi - Şəki şəhərində;

1.5. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi əsasında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi;

1.6. 1 saylı Bakı Yerli İqtisad Məhkəməsi əsasında 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi;

1.7. 2 saylı Bakı Yerli İqtisad Məhkəməsi əsasında 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi;

1.8. Gəncə Yerli İqtisad Məhkəməsi əsasında Gəncə İnzibati-İqtisadi Məhkəməsi;

1.9. Sumqayıt Yerli İqtisad Məhkəməsi əsasında Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi;

1.10. Şəki Yerli İqtisad Məhkəməsi əsasında Şəki İnzibati-İqtisadi Məhkəməsi;

1.11. Şirvan Yerli İqtisad Məhkəməsi əsasında Şirvan İnzibati-İqtisadi Məhkəməsi.

2. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki, inzibati-iqtisadi məhkəmələrin və ağır cinayətlər məhkəmələrinin ərazi yurisdiksiyasının müəyyən edilməsinə, habelə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin say tərkibinin artırılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikası Prokurorluğuna tövsiyə edilsin ki, yeni məhkəmələrin təşkil edilməsi ilə əlaqədar məhkəmələrdə dövlət ittihamının müdafiəsi işinin təşkilində müvafiq dəyişikliklər etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

4.1. yeni təşkil edilən məhkəmələrin fəaliyyətinə zəruri şəraitin yaradılması üçün onların binalar, avadanlıq, rabitə, nəqliyyat vasitələri və digər ləvazimatlar ilə təmin edilməsi məqsədilə tədbirlər görsün;

4.2. yeni məhkəmələrin təşkil edilməsi ilə bağlı xərclərin 2011-ci il üçün dövlət büdcəsinin layihəsində nəzərə alınmasını təmin etsin;

4.3. yeni təşkil edilən məhkəmələrin hakimləri təyin edilənədək Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin və yerli iqtisad məhkəmələrinin fəaliyyətinin maliyyələşdirilməsini təmin etsin;

4.4. iki ay müddətində:

4.4.1. qüvvədə olan qanunvericilik aktlarının Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanununa və bu fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna və bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4.3. öz səlahiyyətləri daxilində Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunundan və bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2010-cu il.*

## Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının məhkəmə sistemini təkmilləşdirmək və Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli qanununun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Aşağıdakı yeni məhkəmələr təşkil edilsin:

1.1. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi əsasında Bakı Ağır Cinayətlər Məhkəməsi;

1.2. Lənkəran Ağır Cinayətlər Məhkəməsi - Lənkəran şəhərində;

1.3. Gəncə Ağır Cinayətlər Məhkəməsi - Gəncə şəhərində;

1.4. Şəki Ağır Cinayətlər Məhkəməsi - Şəki şəhərində;

1.5. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi əsasında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi;

1.6. 1 saylı Bakı Yerli İqtisad Məhkəməsi əsasında 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi;

1.7. 2 saylı Bakı Yerli İqtisad Məhkəməsi əsasında 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi;

1.8. Gəncə Yerli İqtisad Məhkəməsi əsasında Gəncə İnzibati-İqtisadi Məhkəməsi;

1.9. Sumqayıt Yerli İqtisad Məhkəməsi əsasında Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi;

1.10. Şəki Yerli İqtisad Məhkəməsi əsasında Şəki İnzibati-İqtisadi Məhkəməsi;

1.11. Şirvan Yerli İqtisad Məhkəməsi əsasında Şirvan İnzibati-İqtisadi Məhkəməsi.

2. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki, inzibati-iqtisadi məhkəmələrin və ağır cinayətlər məhkəmələrinin ərazi yurisdiksiyasının müəyyən edilməsinə, habelə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin say tərkibinin artırılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikası Prokurorluğuna tövsiyə edilsin ki, yeni məhkəmələrin təşkil edilməsi ilə əlaqədar məhkəmələrdə dövlət ittihamının müdafiəsi işinin təşkilində müvafiq dəyişikliklər etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

4.1. yeni təşkil edilən məhkəmələrin fəaliyyətinə zəruri şəraitin yaradılması üçün onların binalar, avadanlıq, rabitə, nəqliyyat vasitələri və digər ləvazimatlar ilə təmin edilməsi məqsədilə tədbirlər görsün;

4.2. yeni məhkəmələrin təşkil edilməsi ilə bağlı xərclərin 2011-ci il üçün dövlət büdcəsinin layihəsində nəzərə alınmasını təmin etsin;

4.3. yeni təşkil edilən məhkəmələrin hakimləri təyin edilənədək Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin və yerli iqtisad məhkəmələrinin fəaliyyətinin maliyyələşdirilməsini təmin etsin;

4.4. iki ay müddətində:

4.4.1. qüvvədə olan qanunvericilik aktlarının Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanununa və bu fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna və bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4.3. öz səlahiyyətləri daxilində Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunundan və bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2010-cu il.*

## Məhkəmə quruluşunda bəzi dəyişikliklər, hakimlərin ümumi sayı və məhkəmələrin ərazi yurisdiksiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında məhkəmə quruluşunu təkmilləşdirmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı 600 nəfər müəyyən edilsin.

2. Cəlilabad şəhərində Cəlilabad Hərbi Məhkəməsi təşkil edilsin.

3. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi, Ağdam Hərbi Məhkəməsi, Qazax Hərbi Məhkəməsi, Lənkəran Hərbi Məhkəməsi və Sumqayıt Hərbi Məhkəməsi ləğv edilsinlər.

4. Bakı şəhəri Əzizbəyov Rayon Məhkəməsi, Dəvəçi Rayon Məhkəməsi və Füzuli-Qubadlı Hərbi Məhkəməsi müvafiq olaraq Bakı şəhəri Xəzər Rayon Məhkəməsi, Şabran Rayon Məhkəməsi və Füzuli Hərbi Məhkəməsi adlandırılsınlar.

5. Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası müəyyən edilsin (əlavə olunur).

6. Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 447 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 8, maddə 672) qüvvədən düşmüş hesab edilsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

7.1. Cəlilabad Hərbi Məhkəməsinin təşkil edilməsi, habelə hərbi məhkəmələrin ərazi yurisdiksiyasının və səlahiyyətlərinin genişləndirilməsi ilə əlaqədar fəaliyyətlərinə zəruri şəraitin yaradılması üçün onların bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri və digər təşkilati-texniki vasitələr ilə təmin edilməsi məqsədilə tədbirlər görsün;

7.2. hakimlərin və müvafiq olaraq məhkəmə aparatları işçilərinin sayının artırılması ilə bağlı xərclərin 2011-ci il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutulmasını təmin etsin;

7.3. bir ay müddətində:

7.3.1. qüvvədə olan qanunvericilik aktlarının bu fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.3.3. öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Bu fərmanın 2-ci, 3-cü, 5-ci və 6-cı bəndləri 2011-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2010-cu il*

## Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Azərbaycan Respublikası Prezidentinin*
*2010-cu il 09 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

**Ə L A V Ə**

Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası

**1. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri:**

1.1. Naxçıvan Şəhər Məhkəməsi;
1.2. Babək Rayon Məhkəməsi;
1.3. Culfa Rayon Məhkəməsi;
1.4. Kəngərli Rayon Məhkəməsi;
1.5. Ordubad Rayon Məhkəməsi;
1.6. Sədərək Rayon Məhkəməsi;
1.7. Şahbuz Rayon Məhkəməsi;
1.8. Şərur Rayon Məhkəməsi;
1.9. Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi;
1.10. Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi;
1.11. Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi.

**2. Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri:**

2.1. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi;
2.2. Bakı şəhəri Xətai Rayon Məhkəməsi;
2.3. Bakı şəhəri Xəzər Rayon Məhkəməsi;
2.4. Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi;
2.5. Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi;
2.6. Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi;
2.7. Bakı şəhəri Nizami Rayon Məhkəməsi;
2.8. Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi;
2.9. Bakı şəhəri Səbail Rayon Məhkəməsi;
2.10. Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi;
2.11. Bakı şəhəri Yasamal Rayon Məhkəməsi;
2.12. Bakı Ağır Cinayətlər Məhkəməsi (Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);
2.13. Bakı Hərbi Məhkəməsi (Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

2.14. 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi;
2.15. 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi.

**3. Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri:**

3.1. Ağdam Rayon Məhkəməsi;
3.2. Ağstafa Rayon Məhkəməsi;
3.3. Bərdə Rayon Məhkəməsi;
3.4. Daşkəsən Rayon Məhkəməsi;
3.5. Gədəbəy Rayon Məhkəməsi;
3.6. Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi;
3.7. Gəncə şəhəri Nizami Rayon Məhkəməsi;
3.8. Goranboy Rayon Məhkəməsi;
3.9. Göygöl Rayon Məhkəməsi;
3.10. Xankəndi Şəhər Məhkəməsi;
3.11. Xocalı Rayon Məhkəməsi;
3.12. Kəlbəcər Rayon Məhkəməsi;
3.13. Qazax Rayon Məhkəməsi;
3.14. Naftalan Şəhər Məhkəməsi;
3.15. Samux Rayon Məhkəməsi;
3.16. Şəmkir Rayon Məhkəməsi;
3.17. Tərtər Rayon Məhkəməsi;
3.18. Tovuz Rayon Məhkəməsi;
3.19. Gəncə Ağır Cinayətlər Məhkəməsi;
3.20. Gəncə Hərbi Məhkəməsi (Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);
3.21. Tərtər Hərbi Məhkəməsi (Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);
3.22. Gəncə İnzibati-İqtisadi Məhkəməsi.

**4. Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri:**

4.1. Abşeron Rayon Məhkəməsi;
4.2. Xaçmaz Rayon Məhkəməsi;
4.3. Xızı Rayon Məhkəməsi;
4.4. Qobustan Rayon Məhkəməsi;
4.5. Quba Rayon Məhkəməsi;
4.6. Qubadlı Rayon Məhkəməsi;
4.7. Qusar Rayon Məhkəməsi;
4.8. Siyəzən Rayon Məhkəməsi;
4.9. Sumqayıt Şəhər Məhkəməsi;
4.10. Şabran Rayon Məhkəməsi;
4.11. Şamaxı Rayon Məhkəməsi;
4.12. Şuşa Rayon Məhkəməsi;
4.13. Zəngilan Rayon Məhkəməsi;
4.14. Bakı Ağır Cinayətlər Məhkəməsi (Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);
4.15. Bakı Hərbi Məhkəməsi (Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);
4.16. Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi.

**5. Şirvan Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri:**

5.1. Ağcabədi Rayon Məhkəməsi;
5.2. Ağsu Rayon Məhkəməsi;
5.3. Astara Rayon Məhkəməsi;
5.4. Beyləqan Rayon Məhkəməsi;
5.5. Biləsuvar Rayon Məhkəməsi;
5.6. Cəbrayıl Rayon Məhkəməsi;
5.7. Cəlilabad Rayon Məhkəməsi;
5.8. Füzuli Rayon Məhkəməsi;
5.9. Hacıqabul Rayon Məhkəməsi;
5.10. Xocavənd Rayon Məhkəməsi;
5.11. İmişli Rayon Məhkəməsi;
5.12. Kürdəmir Rayon Məhkəməsi;
5.13. Laçın Rayon Məhkəməsi;
5.14. Lerik Rayon Məhkəməsi;
5.15. Lənkəran Rayon Məhkəməsi;
5.16. Masallı Rayon Məhkəməsi;
5.17. Neftçala Rayon Məhkəməsi;
5.18. Saatlı Rayon Məhkəməsi;
5.19. Sabirabad Rayon Məhkəməsi;
5.20. Salyan Rayon Məhkəməsi;
5.21. Şirvan Şəhər Məhkəməsi;
5.22. Ucar Rayon Məhkəməsi;
5.23. Yardımlı Rayon Məhkəməsi;
5.24. Zərdab Rayon Məhkəməsi;
5.25. Lənkəran Ağır Cinayətlər Məhkəməsi;
5.26. Cəlilabad Hərbi Məhkəməsi;
5.27. Füzuli Hərbi Məhkəməsi;
5.28. Tərtər Hərbi Məhkəməsi (Şirvan Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);
5.29. Şirvan İnzibati-İqtisadi Məhkəməsi.

**6. Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri:**

6.1. Ağdaş Rayon Məhkəməsi;
6.2. Balakən Rayon Məhkəməsi;
6.3. Göyçay Rayon Məhkəməsi;
6.4. İsmayıllı Rayon Məhkəməsi;
6.5. Qax Rayon Məhkəməsi;
6.6. Qəbələ Rayon Məhkəməsi;
6.7. Mingəçevir Rayon Məhkəməsi;
6.8. Oğuz Rayon Məhkəməsi;
6.9. Şəki Rayon Məhkəməsi;
6.10. Yevlax Rayon Məhkəməsi;
6.11. Zaqatala Rayon Məhkəməsi;
6.12. Şəki Ağır Cinayətlər Məhkəməsi;
6.13. Gəncə Hərbi Məhkəməsi (Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

6.14. Tərtər Hərbi Məhkəməsi (Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına daxil olan ərazi vahidlərində baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar üzrə);

6.15. Şəki İnzibati-İqtisadi Məhkəməsi.

**7. Bakı Ağır Cinayətlər Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

7.1. Bakı şəhəri Binəqədi rayonu;
7.2. Bakı şəhəri Xətai rayonu;
7.3. Bakı şəhəri Xəzər rayonu;
7.4. Bakı şəhəri Qaradağ rayonu;
7.5. Bakı şəhəri Nərimanov rayonu;
7.6. Bakı şəhəri Nəsimi rayonu;
7.7. Bakı şəhəri Nizami rayonu;
7.8. Bakı şəhəri Sabunçu rayonu;
7.9. Bakı şəhəri Səbail rayonu;
7.10. Bakı şəhəri Suraxanı rayonu;
7.11. Bakı şəhəri Yasamal rayonu;
7.12. Abşeron rayonu;
7.13. Xaçmaz rayonu;
7.14. Xızı rayonu;
7.15. Qobustan rayonu;
7.16. Quba rayonu;
7.17. Qubadlı rayonu;
7.18. Qusar rayonu;
7.19. Siyəzən rayonu;
7.20. Sumqayıt şəhəri;
7.21. Şabran rayonu;
7.22. Şamaxı rayonu;
7.23. Şuşa rayonu;
7.24. Zəngilan rayonu.

**8. Gəncə Ağır Cinayətlər Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

8.1. Ağdam rayonu;
8.2. Ağstafa rayonu;
8.3. Bərdə rayonu;
8.4. Daşkəsən rayonu;
8.5. Gədəbəy rayonu;
8.6. Gəncə şəhəri Kəpəz rayonu;
8.7. Gəncə şəhəri Nizami rayonu;
8.8. Goranboy rayonu;
8.9. Göygöl rayonu;
8.10. Xankəndi şəhəri
8.11. Xocalı rayonu;
8.12. Kəlbəcər rayonu;
8.13. Qazax rayonu;
8.14. Naftalan şəhəri;
8.15. Samux rayonu;
8.16. Şəmkir rayonu;
8.17. Tərtər rayonu;
8.18. Tovuz rayonu.

**9. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

9.1. Ağcabədi rayonu;
9.2. Ağsu rayonu;
9.3. Astara rayonu;
9.4. Beyləqan rayonu;
9.5. Biləsuvar rayonu;
9.6. Cəbrayıl rayonu;
9.7. Cəlilabad rayonu;
9.8. Füzuli rayonu;
9.9. Hacıqabul rayonu;
9.10. Xocavənd rayonu;
9.11. İmişli rayonu;
9.12. Kürdəmir rayonu;
9.13. Laçın rayonu;
9.14. Lerik rayonu;
9.15. Lənkəran rayonu;
9.16. Masallı rayonu;
9.17. Neftçala rayonu;
9.18. Saatlı rayonu;
9.19. Sabirabad rayonu;
9.20. Salyan rayonu;
9.21. Şirvan şəhəri;
9.22. Ucar rayonu;
9.23. Yardımlı rayonu;
9.24. Zərdab rayonu.

**10. Şəki Ağır Cinayətlər Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

10.1. Ağdaş rayonu;
10.2. Balakən rayonu;
10.3. Göyçay rayonu;
10.4. İsmayıllı rayonu;
10.5. Qax rayonu;
10.6. Qəbələ rayonu;
10.7. Mingəçevir şəhəri;
10.8. Oğuz rayonu;
10.9. Şəki rayonu;
10.10. Yevlax rayonu;
10.11. Zaqatala rayonu.

**11. Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

11.1. Naxçıvan şəhəri;
11.2. Babək rayonu;
11.3. Culfa rayonu;
11.4. Kəngərli rayonu;
11.5. Ordubad rayonu;
11.6. Sədərək rayonu;
11.7. Şahbuz rayonu;
11.8. Şərur rayonu.

**12. 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

12.1. Bakı şəhəri Binəqədi rayonu;
12.2. Bakı şəhəri Qaradağ rayonu;
12.3. Bakı şəhəri Nəsimi rayonu;

12.4. Bakı şəhəri Səbail rayonu;
12.5. Bakı şəhəri Yasamal rayonu.

**13. 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

13.1. Bakı şəhəri Xətai rayonu;
13.2. Bakı şəhəri Xəzər rayonu;
13.3. Bakı şəhəri Nərimanov rayonu;
13.4. Bakı şəhəri Nizami rayonu;
13.5. Bakı şəhəri Sabunçu rayonu;
13.6. Bakı şəhəri Suraxanı rayonu.

**14. Gəncə İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

14.1. Ağdam rayonu;
14.2. Ağstafa rayonu;
14.3. Bərdə rayonu;
14.4. Daşkəsən rayonu;
14.5. Gədəbəy rayonu;
14.6. Gəncə şəhəri;
14.7. Goranboy rayonu;
14.8. Göygöl rayonu;
14.9. Xankəndi şəhəri;
14.10. Xocalı rayonu;
14.11. Kəlbəcər rayonu;
14.12. Qazax rayonu;
14.13. Naftalan şəhəri;
14.14. Samux rayonu;
14.15. Şəmkir rayonu;
14.16. Tərtər rayonu;
14.17. Tovuz rayonu.

**15. Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

15.1. Abşeron rayonu;
15.2. Xaçmaz rayonu;
15.3. Xızı rayonu;
15.4. Qobustan rayonu;
15.5. Quba rayonu;
15.6. Qubadlı rayonu;
15.7. Qusar rayonu;
15.8. Siyəzən rayonu;
15.9. Sumqayıt şəhəri;
15.10. Şabran rayonu;
15.11. Şamaxı rayonu;
15.12. Şuşa rayonu;
15.13. Zəngilan rayonu.

**16. Şirvan İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

16.1. Ağcabədi rayonu;
16.2. Ağsu rayonu;
16.3. Astara rayonu;
16.4. Beyləqan rayonu;
16.5. Biləsuvar rayonu;
16.6. Cəbrayıl rayonu;

16.7. Cəlilabad rayonu;
16.8. Füzuli rayonu;
16.9. Hacıqabul rayonu;
16.10. Xocavənd rayonu;
16.11. İmişli rayonu;
16.12. Kürdəmir rayonu;
16.13. Laçın rayonu;
16.14. Lerik rayonu;
16.15. Lənkəran rayonu;
16.16. Masallı rayonu;
16.17. Neftçala rayonu;
16.18. Saatlı rayonu;
16.19. Sabirabad rayonu;
16.20. Salyan rayonu;
16.21. Şirvan şəhəri;
16.22. Ucar rayonu;
16.23. Yardımlı rayonu;
16.24. Zərdab rayonu.

**17. Şəki İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

17.1. Ağdaş rayonu;
17.2. Balakən rayonu;
17.3. Göyçay rayonu;
17.4. İsmayıllı rayonu;
17.5. Qax rayonu;
17.6. Qəbələ rayonu;
17.7. Mingəçevir şəhəri;
17.8. Oğuz rayonu;
17.9. Şəki rayonu;
17.10. Yevlax rayonu;
17.11. Zaqatala rayonu.

**18. Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

18.1. Naxçıvan şəhəri;
18.2. Babək rayonu;
18.3. Culfa rayonu;
18.4. Kəngərli rayonu;
18.5. Ordubad rayonu;
18.6. Sədərək rayonu;
18.7. Şahbuz rayonu;
18.8. Şərur rayonu.

**19. Bakı Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**

19.1. Bakı şəhəri Binəqədi rayonu;
19.2. Bakı şəhəri Xətai rayonu;
19.3. Bakı şəhəri Xəzər rayonu;
19.4. Bakı şəhəri Qaradağ rayonu;
19.5. Bakı şəhəri Nərimanov rayonu;
19.6. Bakı şəhəri Nəsimi rayonu;
19.7. Bakı şəhəri Nizami rayonu;
19.8. Bakı şəhəri Sabunçu rayonu;
19.9. Bakı şəhəri Səbail rayonu;
19.10. Bakı şəhəri Suraxanı rayonu;

19.11. Bakı şəhəri Yasamal rayonu;
19.12. Abşeron rayonu;
19.13. Xaçmaz rayonu;
19.14. Xızı rayonu;
19.15. Qobustan rayonu;
19.16. Quba rayonu;
19.17. Qusar rayonu;
19.18. Siyəzən rayonu;
19.19. Sumqayıt şəhəri;
19.20. Şabran rayonu;
19.21. Şamaxı rayonu;
19.22. Şuşa rayonu.
**20. Cəlilabad Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**
20.1. Astara rayonu;
20.2. Biləsuvar rayonu;
20.3. Cəlilabad rayonu;
20.4. Hacıqabul rayonu;
20.5. Lerik rayonu;
20.6. Lənkəran rayonu;
20.7. Masallı rayonu;
20.8. Neftçala rayonu;
20.9. Salyan rayonu;
20.10. Şirvan şəhəri;
20.11. Yardımlı rayonu.
**21. Füzuli Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**
21.1. Beyləqan rayonu;
21.2. Cəbrayıl rayonu;
21.3. Füzuli rayonu;
21.4. Xocavənd rayonu;
21.5. İmişli rayonu;
21.6. Qubadlı rayonu;
21.7. Laçın rayonu;
21.8. Saatlı rayonu;
21.9. Sabirabad rayonu;
21.10. Zəngilan rayonu.
**22. Gəncə Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**
22.1. Ağstafa rayonu;
22.2. Daşkəsən rayonu;
22.3. Gədəbəy rayonu;
22.4. Gəncə şəhəri Kəpəz rayonu;
22.5. Gəncə şəhəri Nizami rayonu;
22.6. Göygöl rayonu;
22.7. Xankəndi şəhəri;
22.8. Xocalı rayonu;
22.9. Kəlbəcər rayonu;
22.10. Qazax rayonu;
22.11. Mingəçevir şəhəri;
22.12. Samux rayonu;
22.13. Şəmkir rayonu;
22.14. Tovuz rayonu.
**23. Tərtər Hərbi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:**
23.1. Ağcabədi rayonu;

23.2. Ağdam rayonu;
23.3. Ağdaş rayonu;
23.4. Ağsu rayonu;
23.5. Balakən rayonu;
23.6. Bərdə rayonu;
23.7. Goranboy rayonu;
23.8. Göyçay rayonu;
23.9. İsmayıllı rayonu;
23.10. Kürdəmir rayonu;
23.11. Qax rayonu;
23.12. Qəbələ rayonu;
23.13. Oğuz rayonu;
23.14. Şəki rayonu;
23.15. Tərtər rayonu;
23.16. Ucar rayonu;
23.17. Yevlax rayonu;
23.18. Zaqatala rayonu;
23.19. Zərdab rayonu.

## Azərbaycan Respublikası Prezidentinin İnzibati və yardımçı vəzifələrin təsnifat toplusunun təsdiq edilməsi haqqında 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanına və Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında 2008-ci il 9 iyul tarixli 2934 nömrəli Sərəncamına əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 8, maddə 440; 2006-cı il, № 3, maddə 229, № 6, maddə 498; 2007-ci il, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008-ci il, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009-cu il, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010-cu il, № 2, maddə 80, № 3, maddə 183) ilə təsdiq edilmiş İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusuna aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1.1. 2.1.2-ci və 3.2.2-ci bəndlərin üçüncü abzaslarında Azərbaycan Respublikası Milli Məclisinin Aparatının təminedici şöbəsinin müdiri, sözlərindən sonra Azərbaycan Respublikası Milli Məclisi sədrinin köməkçisi, sözləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının təminedici şöbəsinin müdiri, sözlərindən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin köməkçisi, sözləri əlavə edilsin;

1.2. 2.1.3-cü və 3.2.3-cü bəndlərin üçüncü abzaslarından Azərbaycan Respublikası Milli Məclisi sədrinin köməkçisi, sözləri çıxarılsın;

1.3. 2.1.4-cü və 3.2.4-cü bəndlərin onuncu abzaslarında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının təminedici şöbəsinin müdir müavini, yardımçı şöbəsinin müdiri və müdir müavini, sözlərindən sonra Naxçıvan Muxtar Respublikası Baş nazirinin köməkçisi, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyi rəhbərinin müavini, sözləri əlavə edilsin;

1.4. 2.1.5-ci və 3.2.5-ci bəndlər üzrə:

1.4.1. beşinci abzaslarda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında sözlərindən sonra , Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyində sözləri, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, sözlərindən sonra sədrin köməkçisi, sözləri, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın)

Aparatında sektor müdiri, baş mühasib, sözlərindən sonra müvəkkilin (ombudsmanın) köməkçisi, sözləri əlavə edilsin;

1.4.2. doqquzuncu abzaslarda Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında Aparatın rəhbəri və rəhbərin müavini, sözlərindən sonra Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin rəhbəri, sözləri əlavə edilsin;

1.5. 2.1.6-cı və 3.2.6-cı bəndlərin altıncı abzaslarında Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında (təminedici və yardımçı) şöbə müdiri və müdir müavini sözlərindən sonra , rəhbərin köməkçisi, Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin aparatlarında (təminedici və yardımçı) şöbə müdiri və müdir müavini sözləri əlavə edilsin;

1.6. 2.1.7-ci və 3.2.7-ci bəndlərin ikinci abzaslarının sonuna nöqtəli vergül işarəsindən əvvəl , Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi sözləri əlavə edilsin;

1.7. 2.1.7-ci və 3.2.7-ci bəndlərin üçüncü abzaslarında, 2.1.8-ci və 3.2.8-ci bəndlərdə, 2.1.9-cu və 3.2.9-cu bəndlərin ikinci abzaslarında, 2.3.6-cı və 3.4.6-cı bəndlərin üçüncü abzaslarında mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan sözləri Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan sözləri ilə əvəz edilsin;

1.8. 2.3.2-ci və 3.4.2-ci bəndlərin üçüncü abzaslarında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında sözlərindən sonra , Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyində sözləri əlavə edilsin;

1.9. 2.3.6-cı və 3.4.6-cı bəndlərin ikinci abzaslarında Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının sözlərindən sonra , Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin sözləri əlavə edilsin.

2. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 497 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1044; 2007-ci il, № 11, maddə 1107; 2009-cu il, № 2, maddə 77; 2010-cu il, № 3, maddə 183) 2.6-cı bəndində ikinci halda Azərbaycan Respublikasının sözləri ikinci halda Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının sözləri ilə əvəz edilsin.

3. Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 iyul tarixli 2934 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 7, maddə 645, № 8, maddələr 723, 731; 2009-cu il, № 6, maddələr 419, 421, № 12, maddə 1029; 2010-cu il, № 3, maddə 183) 2 nömrəli əlavəsinə aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

3.1. İnzibati vəzifələrin təsnifatları üzrə:

3.1.1. İkinci təsnifatın üçüncü qrafasında Azərbaycan Respublikası Milli Məclisinin Aparatının təminedici şöbəsinin müdiri; sözlərindən sonra Azərbaycan Respublikası Milli Məclisi sədrinin köməkçisi; sözləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının təminedici şöbəsinin müdiri sözlərindən sonra ; Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin köməkçisi sözləri əlavə edilsin;

3.1.2. Üçüncu təsnifatın üçüncü qrafasından Azərbaycan Respublikası Milli Məclisi sədrinin köməkçisi; sözləri çıxarılsın;

3.1.3. Dördüncü təsnifatın on dördüncü qrafasında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının təminedici şöbəsinin müdir müavini; sözlərindən sonra

Naxçıvan Muxtar Respublikası Baş nazirinin köməkçisi; Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyi rəhbərinin müavini; sözləri əlavə edilsin;

3.1.4. Beşinci təsnifat üzrə:

3.1.4.1. onuncu qrafada Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında sözlərindən sonra , Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyində sözləri, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib sözlərindən sonra , sədrin köməkçisi sözləri əlavə edilsin;

3.1.4.2. on altıncı və iyirminci qrafalarda Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının Aparatının sözləri Naxçıvan Muxtar Respublikasının nazirliklərinin, dövlət komitələrinin Aparatının sözləri ilə əvəz edilsin;

3.1.4.3. on yeddinci qrafada Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında, sözlərindən sonra Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyində, sözləri əlavə edilsin;

3.1.4.4. aşağıdakı məzmunda iyirmi birinci, iyirmi ikinci və iyirmi üçüncü qrafalar əlavə edilsin:

Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin rəhbəri 640

Naxçıvan Muxtar Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının Aparatının rəhbəri 540

Naxçıvan Muxtar Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının Aparatının rəhbərinin müavini 510

3.1.5. Altıncı təsnifat üzrə:

3.1.5.1. on üçüncü qrafada Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında sözləri Naxçıvan Muxtar Respublikasının nazirliklərinin, dövlət komitələrinin aparatlarında sözləri ilə əvəz edilsin, yardımçı şöbənin müdir müavini sözlərindən sonra , rəhbərin köməkçisi sözləri əlavə edilsin;

3.1.5.2. aşağıdakı məzmunda on yeddinci qrafa əlavə edilsin:

Naxçıvan Muxtar Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin aparatlarında:

- təminedici şöbənin müdiri 420
- təminedici şöbənin müdir müavini 400
- yardımçı şöbənin müdiri 390
- yardımçı şöbənin müdir müavini, rəhbərin köməkçisi 370

3.1.6. Yeddinci təsnifat üzrə:

3.1.6.1. ikinci və beşinci qrafalarda Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında sözləri Naxçıvan Muxtar Respublikasının nazirliklərinin, dövlət komitələrinin aparatlarında sözləri ilə əvəz edilsin;

3.1.6.2. dördüncü qrafada Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzlərində sözlərindən sonra , Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatında sözləri əlavə edilsin;

3.1.6.3. aşağıdakı məzmunda altıncı, yeddinci və səkkizinci qrafalar əlavə edilsin:

Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan orqanların rəhbərləri 38

Naxçıvan Muxtar Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin aparatlarında sektor müdiri, baş mühasib 343

Naxçıvan Muxtar Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin aparatlarında:

- baş məsləhətçi 330

- böyük məsləhətçi 315
- aparıcı məsləhətçi 300
- məsləhətçi 290

3.1.7. Səkkizinci təsnifata aşağıdakı məzmunda üçüncü qrafa əlavə edilsin:

Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan orqanların rəhbərlərinin müavinləri 290

3.1.8. Doqquzuncu təsnifata aşağıdakı məzmunda səkkizinci və doqquzuncu qrafalar əlavə edilsin:

Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan orqanların aparatlarında sektor müdiri, baş mühasib 217

Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan orqanların aparatlarında:

- baş məsləhətçi 194
- böyük məsləhətçi 189
- aparıcı məsləhətçi 184
- məsləhətçi 179

3.2. Yardımçı vəzifələrin təsnifatları üzrə:

3.2.1. İkinci təsnifatda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sözlərindən sonra Aparatında, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyində sözləri əlavə edilsin;

3.2.2. Altıncı təsnifatda Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının sözləri Naxçıvan Muxtar Respublikasının nazirliklərinin, dövlət komitələrinin və digər mərkəzi icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondunun, Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzinin, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan orqanların sözləri ilə əvəz edilsin.

4. Bu fərman 2010-cu il 15 mart tarixindən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 1 oktyabr 2010-cu il

## Azərbacan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı
## (çıxarış)

1. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1.3. 2010-cu il sentyabrın 2-də səlahiyyət müddəti bitən Hafiz Qəmbər oğlu Nəsibov Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərarın 1.1-ci bəndi 2010-cu il iyulun 21-dən, 1.2-ci, 1.4-cü və 1.5-ci bəndləri 2010-cu il avqustun 28-dən, 1.3-cü bəndi 2010-cu il sentyabrın 2-dən qüvvəyə minir.

***O. ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

*Bakı şəhəri 22 iyun 2010-cu il.*

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında
## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

1. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1.1. 2010-cu il sentyabrın 2-də səlahiyyət müddəti bitən aşağıdakı hakimlər Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Allahverdiyev Əli Kərim oğlu,
Kuimova Vera Gennadiyevna,
Qurbanov Yusifəli Süleyman oğlu,
Məmmədov Fəxrəddin Rüstəm oğlu.

1.2. Vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar olaraq aşağıdakı hakimlər 2010-cu il sentyabrın 2-dən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Quliyev Vüqar Kərim oğlu,
Məmmədov Qabil Neymət oğlu.

2. Bu qərar 2010-cu il sentyabrın 2-dən qüvvəyə minir.

***O.ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 22 iyun 2010-cu il.*

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında
## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

1. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1.1. 2010-cu il sentyabrın 2-də səlahiyyət müddəti bitən aşağıdakı hakimlər Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Allahverdiyev Əli Kərim oğlu,
Kuimova Vera Gennadiyevna,
Qurbanov Yusifəli Süleyman oğlu,
Məmmədov Fəxrəddin Rüstəm oğlu.

1.2. Vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar olaraq aşağıdakı hakimlər 2010-cu il sentyabrın 2-dən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Quliyev Vüqar Kərim oğlu,
Məmmədov Qabil Neymət oğlu.

2. Bu qərar 2010-cu il sentyabrın 2-dən qüvvəyə minir.

***O.ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 22 iyun 2010-cu il.*

**Azərbaycan Respublikasının bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
**(çıxarış)**

Məhkəmə-Hüquq Şurasının hakim vəzifəsinə namizədlərə dair təqdimatına baxaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alıram:

...

5. Aşağıdakı şəxslər Naxçıvan Muxtar Respublikasının məhkəmələrinin hakimləri təyin edilsinlər:

**Naxçıvan Şəhər Məhkəməsi**
Allahverdiyev Mehman Dünyamalı oğlu
**Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi**
İbrahimov İlham Sadət oğlu
Rəcəbov Əsəd İsa oğlu

6. Bu Sərəncamın 1-ci və 2-ci bəndləri 2011-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 26 oktyabr 2010-cu il

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında Naxçıvan Muxtar Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında Naxçıvan Muxtar Respublikasının Qanununa aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 10-1.2-ci maddədə salınması sözündən sonra , seçkinin nəticələrinə təsir məqsədi ilə vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi sözləri əlavə edilsin.

2. 20-ci maddə üzrə:

2.1. 20.4-cü maddədən və digər aktlar sözləri çıxarılsın;

2.2. 20.8-ci maddədə təyin edilməlidir sözləri seçilməlidir sözü ilə əvəz edilsin.

3. 23.2.5-ci və 29.1.5-ci maddələrdən seçki bülletenlərinin qoyulması üçün zərflərin, sözləri, 23.2.9-cu maddədən seçki bülletenin qoyulması üçün zərflərin, sözləri çıxarılsın.

4. 24-cü maddə üzrə:

4.1. adında işinin təşkili sözləri fəaliyyət istiqamətləri sözləri ilə əvəz edilsin;

4.2. 24.1-ci maddə çıxarılsın, birinci abzas 24.1-ci maddə hesab edilsin.

5. 28.5-ci maddədə 75 rəqəmi 58 rəqəmi ilə əvəz edilsin.

6. 75.7-ci maddə üzrə:

6.1. birinci cümlədə təqdimatla sözü hüquq-mühafizə orqanlarına və ya sözləri ilə əvəz edilsin;

6.2. ikinci cümlədə qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna öz qərarı ilə xəbərdarlıq edir və ya qanunsuz təşviqat fəaliyyətinin qarşısının alınması barədə təqdimatla məhkəməyə müraciət edir sözləri təqsirli şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlər görür sözləri ilə əvəz edilsin.

7. 77.3.1-ci maddədə 250 rəqəmi 30 rəqəmi ilə, 77.4.1-ci maddədə 50 rəqəmi 100 rəqəmi ilə əvəz edilsin.

8. 80.1-ci, 83.4-cü və 84.2.2-ci maddələrdə Milli sözü Mərkəzi sözü ilə əvəz edilsin.

9. 90.4-cü maddənin birinci cümləsində üzvlərinin sözü üzvlərindən birinin sözləri ilə əvəz edilsin.

10. 97.2-ci maddənin birinci cümləsində dairə seçki komissiyalarında sözləri Mərkəzi Seçki Komissiyasında sözləri ilə əvəz edilsin.

11. 99.2.2-ci, 99.2.5-99.2.10-cu, 99.2.12-ci və 99.2.13-cü maddələrdən və bu haqda əvvəl edilmiş xəbərdarlıq nəzərə alınmadıqda sözləri çıxarılsın.

12. 101.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

101.1.2. seçkinin nəticələrinə təsir məqsədi ilə vəzifə səlahiyyətlərindən sui-istifadə edənlər;

13. 101.1.21-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 101.1.22-ci və 101.1.23-cü maddələr əlavə edilsin:

101.1.22. seçkilərdə iştirak etdiyi müddətdə xidməti vəzifələrinin icrasını dayandırmayan dövlət və ya bələdiyyə xidmətində olan qeydə alınmış namizədlər;

101.1.23. seçici imzalarının toplanmasında iştirak edən hüquqi şəxslər, dövlət və bələdiyyə orqanlarının, qurumların və təşkilatların vəzifəli şəxsləri..

14. 102-ci maddə üzrə:

14.1. adında Seçki komissiyaları tərəfindən cərimələrin sözləri Cərimələrin sözü ilə əvəz edilsin;

14.2. mətnində cərimə tətbiq sözləri cərimənin tətbiqi üçün məhkəməyə müraciət sözləri ilə əvəz edilsin.

15. 103.3-cü maddədə 2-ci və 4-cü sözləri 2-ci, 4-cü və 5-ci sözləri ilə əvəz edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 24 iyun 2010-cu il.

## Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında Naxçıvan Muxtar Respublikasının Qanununa dəyişikliklər və əlavə edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında Naxçıvan Muxtar Respublikasının Qanununa aşağıdakı dəyişikiliklər və əlavə edilsin:

1. 2-ci maddədə:

1.1. I hissə aşağıdakı redaksiyada verilsin:

I. Vəkillər Kollegiyasının Nizamnaməsini, İxtisas və İntizam Komissiyalarının əsasnamələrini qəbul etmək, onlara əlavə və dəyişikliklər etmək, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədrini, sədr müavinini və digər üzvlərini, İntizam Komissiyasının sədrini və üzvlərini seçmək, Vəkillər Kollegiyasının büdcəsini və üzvlük haqqının həcmini müəyyən etmək Vəkillər Kollegiyası üzvlərinin Ümumi yığıncağının müstəsna səlahiyyətidir.;

1.2. II hissə çıxarılsın;

1.3. III hissənin üçüncü cümləsində bir sözü iki sözü ilə əvəz edilsin.

2. 8-ci maddənin VII hissəsinə aşağıdakı məzmunda birinci cümlə əlavə edilsin:

Barəsində vəkillik fəaliyyəti ilə məşğul olmanın dayandırılması haqqında qərar qəbul edilmiş şəxs Vəkillər Kollegiyasının seçkili orqanlarında vəzifəyə seçilə bilməz

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 24 iyun 2010-cu il.

## Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında
## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyəti orqanlarında və dövlət qulluğunda xidmətlərinə görə

Qurbanov Yusifəli Süleyman oğluna - **Əməkdar hüquqşünas fəxri adı;**
Eminova Rahidə Mirmurtuz qızına - **Əməkdar dövlət qulluqçusu fəxri adı** verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 2 oktyabr 2010-cu il.

***Əli Kərim oğlu Allahverdiyev***
*Ali Məhkəmənin hakimi*

## Ədalət mühakiməsinin həyata keçirilməsində insan hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi təcrübəsi

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərindən biri ölkəmizin əsas qanununun hazırlanması və qəbul edilməsi, Konstitusiyada insan hüquq və azadlıqlarının təsbit olunması və onların müdafiəsinə dair prinsipial qaydaların nəzərdə tutulmasıdır. Təsadüfi deyil ki, Konstitusiyanın III fəsli bütövlüklə əsas insan hüquq və azadlıqlarına həsr olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi, 71-ci maddəsində isə bu hüquq və azadlıqların gözlənilməsi və qorunması qanunvericilik, icra və məhkəmə hakimiyyətinin borcu kimi müəyyən edilmişdir.

Ümumbəşəri dəyərlərə malik olan insan hüquq və azadlıqları bir sıra beynəlxalq müqavilələrin predmetini təşkil edir. Ölkəmizdə pacta sunt servanda (müqavilələr icra olunmalıdır) prinsipinə müvafiq olaraq beynəlxalq öhdəliklərin yerinə yetirilməsi prioritet məsələlərdən biridir. Təsadüfi deyil ki, Konstitusiyanın 148-ci maddəsinin II hissəsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri dövlətin qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi elan edir. Konstitusiyanın 151-ci maddəsi Azərbaycan Respublikasının normativ-hüquqi aktları ilə ziddiyət yarandığı təqdirdə beynəlxalq müqavilələrin üstünlüyünü tanıyır. Əsas Qanunun 12-ci maddəsinin II hissəsində isə deyilir: ... Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Bir tərəfdən konstitusiyada insan hüquq və azadlıqlarının təsbit olunması və onların müdafiəsinin dövlətin, o cümlədən məhkəmə hakimiyyəti orqanlarının əsas vəzifəsi kimi göstərilməsi, digər tərəfdən isə konstitusiyanın bu hüquq və azadlıqların məhz beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsi qaydasını nəzərdə tutması Azərbaycanın hüquq sisteminə və məhkəmə təcrübəsinə prinsipial yeniliyin - presedent hüququnun gətirilməsinə yol açmış, bunun üçün hüquqi zəmin yaratmışdır.

Doğrudan da bu, Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən köklü yenilik idi. Əvvəllər bizə yad olan presedent sözü latınca əvvəlki, qabaqcadan gələn deməkdir.

Bu söz hazırda anoloji vəziyyətlər üçün nümunə olan davranış modeli mənasını ifadə edir. Məhkəmə presedenti dedikdə isə, konkret iş üzrə məhkəmənin əvvəllər çıxardığı qərarın sonradan oxşar işlərin həlli zamanı tətbiq olunması başa düşülür. Presedent hüququ nəzəriyyəsi məhkəmə presedentini hüququn mənbəyi kimi görən, məhkəmələri təkcə hüquq tətbiq edən orqanlar kimi deyil, eyni zamanda normayaradıcılığı ilə məşğul olan orqanlar kimi qəbul edən təlimdir. Hazırda dünya dövlətlərinin təxminən üçdə bir hissəsində məhkəmə presedenti hüququn mənbəyi kimi tətbiq olunmaqdadır.

Sovetlər Birliyi dövründə digər postsovet ölkələri kimi, Azərbaycan Respublikası da məhkəmə presedentini hüququn mənbəyi kimi qəbul etmirdi. Lakin Konstitusiyanın sözü gedən normaları beynəlxalq müqavilələri, deməli, həm də bu müqavilələri tətbiq etmək, onlar barəsində təfsirlər vermək səlahiyyətində olan beynəlxalq məhkəmələrin qərarlarını milli hüququn mənbəyi kimi qəbul etmək üçün şərait yaratmışdır.

Konstitusiyanın qəbul edilməsindən sonra Azərbaycan dövlətinin və ona rəhbərlik edən Ulu öndər Heydər Əliyevin ardıcıl və məqsədyönlü siyasəti bu istiqamətdə aparılan işləri daha da sürətləndirmişdir. Görülən işlər nəticəsində Azərbaycan Respublikası Avropa Şurasının tərkibinə daxil olub 25 dekabr 2001-ci il tarixli Qanunla insan hüquq və azadlıqları ilə bağlı ən nüfuzlu beynəlxalq aktlardan sayılan İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında 1950-ci il 4 noyabr tarixli Konvensiyanı təsdiq etmişdir. Ölkəmizə münasibətdə həmin beynəlxalq akt 15 aprel 2002-ci ildən etibarən hüquqi qüvvəyə minmişdir. Əgər insan hüquqlarına və beynəlxalq müqavilələrin üstün hüquqi qüvvəsinə dair müddəaların ölkə Konstitusiyasına daxil edilməsi ilə presedent hüququnun tətbiqi üçün hüquqi zəmin, uyğun şərait yaradılmışdırsa, Azərbaycan Respublikasının Avropa Konvensiyasına qoşulması nəticəsində dövlətimiz Avropa Məhkəməsinin presedent hüququnu birbaşa tanımış oldu və üzərinə bu beynəlxalq məhkəmənin presedentlərini tətbiq etmək öhdəliyi götürdü. Çünki İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının məcburi qüvvəsini və icrasını nəzərdə tutan Konvensiyanın 46-cı maddəsində deyilir ki, Razılığa gələn Yüksək Tərəflər, Məhkəmənin onların tərəf olduqları işlər üzrə qəti qərarını icra etməyi öhdələrinə götürürlər. Konvensiyanın 46-cı maddəsi bu və ya digər iştirakçı dövlətin tərəf olduğu işlər üzrə Avropa Məhkəməsinin qəbul etdiyi qərarın həmin dövlət üçün məcburi qüvvəsini təsbit etsə də, bu müddəanı Konvensiyanın digər normaları ilə birlikdə götürməklə təfsir etdikdə, aydın görünür ki, konkret dövlətin iştirak etmədiyi iş üzrə məhkəmənin qəbul etdiyi qərar da presedent kimi götürülə və istənilən iştirakçı dövlətin məhkəmə təcrübəsində istifadə oluna bilər. Ona görə ki, bütün iştirakçı dövlətlər, o cümlədən Azərbaycan Respublikası Avropa Konvensiyasını imzalamaqla və yaxud ona qoşulmaqla bu beynəlxalq müqavilənin normalarını milli hüququnun tərkib hissəsi kimi tanımışdır. Avropa Məhkəməsi isə Konvensiyanın 32-ci maddəsinə əsasən səlahiyyətlərinə aid olan istənilən fərdi şikayətə, dövlətlərarası işə baxdıqda və yaxud Avropa Şurasının Nazirlər Komitəsinin sorğusu ilə məsləhət rəyi verdikdə, Avropa Konvensiyasının müddəalarını şərh və tətbiq edir. Beləliklə, Avropa Məhkəməsinin istənilən dövlətin tərəf olduğu iş üzrə çıxardığı qərar bütün iştirakçı dövlətlər üçün mütləq olan Avropa Konvensiyasının bu və ya digər maddəsinə dair rəsmi təfsiri əks etdirdiyindən hər bir ölkə, o cümlədən Azərbaycan Respublikası üçün presedent rolunda çıxış edir və uyğun hallarda hüququn mənbəyi kimi istifadə edilməlidir.

Azərbaycan dövləti Avropa Məhkəməsinin qərarlarının ölkənin hüquq sisteminə presedent-hüququn mənbəyi kimi inteqrasiyasını təmin etmək üçün milli qanunvericiliyin təkmilləşdirilməsi sahəsində mühüm addımlar atmış, bu istiqamətdə siyasətini ardıcıl olaraq davam etdirəcəyini aydın şəkildə nümayiş etdirmişdir. Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 431-1 və Cinayət-Prosessual Məcəlləsinin 455 və 456-cı maddələrinə əsasən Avropa Məhkəməsi Azərbaycan məhkəmələrinin işə baxarkən Avropa Konvensiyasının müddəalarını pozduğunu

müəyyən edərsə, bu fakt yerli məhkəmələr tərəfindən qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə yenidən baxmaq üçün əsasdır. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun 111-ci maddəsində isə nəzərdə tutulub ki, hakimlər barəsində intizam icraatının başlanılması üçün səbəblərdən biri də Avropa Məhkəməsinin qərarlarında əks olunan qanun pozuntularıdır. Qeyd olunan qaydalar mülki və cinayət işləri üzrə ədalət mühakiməsinə Avropa Məhkəməsinin presedentlərinin birbaşa təsir göstərməsini təmin edir və milli məhkəmə təcrübəsinin beynəlxalq məhkəmənin insan hüquq və azadlıqlarına dair hüquqi mövqeləri əsasında formalaşmasına şərait yaradır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının ölkəmizin məhkəmələri tərəfindən tətbiq edilməsini insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasına təminat verən, məhkəmə fəaliyyətinin keyfiyyətinə ciddi təsir göstərən amil kimi qiymətləndirir. Təsadüfi deyil ki, məhkəmə sisteminin müasirləşdirilməsi məsələlərinə həsr olunmuş Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanında Azərbaycan Respublikası Ali Məhkəməsinə, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkil edilməsi və onun məhkəmə təcrübəsində nəzərə alınması tövsiyə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin tövsiyəsinə uyğun olaraq bu sahədə görülən işlər sırasında Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli qərarı mühüm yer tutur. Plenum qərarında İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının təsir dairəsinin yalnız konkret iş və həmin işin iştirakçıları ilə məhdudlaşmadığı, bu qərarların presedent olaraq daha geniş istifadəyə əsas olduğu vurğulanır. Qeyd edilir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları yalnız onun icraatında olan işlərin həllinə deyil, həmçinin geniş mənada Konvensiya normalarının izah edilməsinə, qorunmasına, inkişafına xidmət edir və bu yolla dövlətlərin Konvensiya iştirakçısı kimi daşıdıqları öhdəliklərə riayət olunmasına yardım göstərir. Plenum milli məhkəmələr tərəfindən İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanın, eləcə də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının birbaşa tətbiq edilməsini mümkün sayaraq məhkəmələrə izah etmişdir ki, insan və vətəndaş hüquq və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı, Konvensiya müddəalarını rəhbər tutmalı və bu zaman İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər.

Sözsüz ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi üçün müvafiq normativ-hüquqi əsasların, əlverişli hüquqi mühitin yaradılması böyük əhəmiyyətə malikdir. Lakin o da şübhəsizdir ki, yalnız bu cür hüquqi əsasların yaradılması ilə Avropa Məhkəməsinin presedentlərinin məhkəmə təcrübəsində geniş tətbiq edilməsini təmin etmək mümkün deyil. Müxtəlif təşkilati işlər də görülməlidir ki, Avropa Məhkəməsinin presedentləri hər bir hakim üçün əlçatan olsun, milli hüquq normaları kimi işlək hüquq mənbəyinə çevrilsin. Bu məqsədlərə çatmaq üçün Azərbaycan Respublikasında zəruri tədbirlər həyata keçirilməkdədir. Görülən işlər sırasına hakimliyə namizədlər üçün uzunmüddətli tədris kurslarında Avropa Məhkəməsinin presedent hüququnun tədris edilməsini, Avropa Məhkəməsinin hakimlərinin iştirakı ilə beynəlxalq konfransların keçirilməsini, Avropa Məhkəməsinin qərarlarının Azərbaycan dilində nəşr edilməsini, o cümlədən məhkəmənin bülleteninin buraxılmasını, ayrıca olaraq presedent xarakterli qərarların ölkədə fəaliyyət göstərən bütün məhkəmələrə çatdırılmasını, tematik kursların, seminarların təşkil edilməsini, təcrübə mübadiləsi məqsədilə digər ölkələrə, beynəlxalq qurumlara səfərlərin həyata keçirilməsini misal göstərmək olar. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi,

Azərbaycan Respublikasının Ali Məhkəməsi, digər yuxarı məhkəmələr tərəfindən konkret işlərlə bağlı tətbiq edilməsi də presedentlərin eyni cür təfsir olunmasına və ölkə məhkəmələri tərəfindən daha geniş istifadə edilməsinə köməklik edir.

Yuxarıda qeyd olunduğu kimi Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanında Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə də Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkili və tətbiqi ilə bağlı tövsiyələr verilmişdir. Bu tövsiyələrin reallaşdırılması məqsədi ilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyi tərəfindən Ali Məhkəmə və muxtar respublikada fəaliyyət göstərən bütün birinci instansiya məhkəmələri üçün hər cür şərait yaradılmışdır. Muxtar Respublika məhkəmələrinin hakimləri tərəfindən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin öyrənilməsi həm hakimlərin ölkə miqyaslı tədbirlərə cəlb edilməsi, həm də muxtar respublikanın daxilində təşkil olunan tədbirlər vasitəsi ilə həyata keçirilir.

Bir neçə ildir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi təcrübəsinin öyrənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində hər ayın sonuncu şənbə günü muxtar respublika məhkəmələrinin sədr və hakimlərinin iştirakı ilə seminarlar keçirilir.

Ali Məhkəmənin Bülleteninin hər buraxılışında Avropa Məhkəməsinin presedent xarakterli qərarları ilə bağlı analitik yazılar verilir, milli qanunvericiliklə kifayət qədər tənzimlənməyən insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeləri açıqlanır, bu məsələlərin həlli ilə bağlı hakimlərə müvafiq tövsiyələr olunur.

İnsan hüquqları ilə bağlı muxtar respublikada mütəmadi olaraq keçirilən konfranslar da Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsində mühüm rol oynayır. Görülən işlərin nəticəsidir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri muxtar respublikada fəaliyyət göstərən məhkəmələr tərəfindən konkret işlərə baxılması, qərarların qəbul edilməsi prosesində nəzərə alınaraq tətbiq edilir.

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təcrübəsində bir neçə mülki iş üzrə qəbul edilən qərarların əsaslandırılmasında Avropa Məhkəməsinin presedent təcrübəsi nəzərə alınmış və mülki mübahisəyə şamil edilən milli hüquq norması müvafiq insan hüquq və azadlıqları barəsində Avropa Məhkəməsinin hüquqi mövqeyi rəhbər tutulmaqla təfsir və tətbiq edilmişdir.

Bu cür işlərə Naxçıvan MR Ali Məhkəməsinin Mülki işlər üzrə kollegiyasının birinci instansiya məhkəməsinin qərardadından verilmiş şikayətə baxılması haqqında 13 fevral 2008-ci il tarixli qərardadını misal olaraq göstərmək olar. Həmin işdə Naxçıvan Şəhər Məhkəməsi qüvvəyə minmiş və icra olunmuş qətnamədən apellyasiya şikayəti vermə müddətini onun çıxarılmasından iki ildən artıq müddət keçdikdən sonra 15 noyabr 2007-ci ildə bərpa etmişdi. Müddətin bərpa edilməsi haqqında qərardadını məhkəmə şikayətçi tərəfindən həmin müddətin üzrlü səbəblərdən buraxılması ilə əsaslandırmış və bunun hüquqi əsası kimi Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 133-cü maddəsinə istinad etmişdi. Gerçəkdən də Mülki-Prosessual Məcəllənin 133-cü maddəsi üzrlü səbəblərin olmasını müddətin bərpasına əsas verən yeganə hal kimi göstərir. Lakin Ali Məhkəmənin Mülki işlər üzrə kollegiyası MPM-in 133-cü maddəsini məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsindən istənilən müddət keçdikdən sonra da apellyasiya qaydasında mübahisələndirilməsinə imkan verən norma kimi təfsir etməkdən, yəni üzrlü səbəblərin olmasını müddətin bərpası üçün əsas verən yeganə amil kimi qəbul etməkdən imtina etdi. Məhkəmə kollegiyası hesab etdi ki, hüququn aliliyi və cəmiyyətin ümumi maraqları nöqteyi-nəzərindən hətta üzrlü səbəblərin olması belə qanuni qüvvəyə minmiş və icrasından uzun müddət keçmiş qətnaməyə yenidən baxılmasına bəraət qazandıra bilməz. Bu nəticəyə gələrkən apellyasiya kollegiyası Avropa Məhkəməsinin V.K.Nelyubin Rusiya Federasiyasına qarşı iş üzrə 12 oktyabr 2006-cı il tarixli qərarını presedent olaraq nəzərə aldı. Həmin qərarda Avropa

Məhkəməsi Konvensiyanın 6-cı maddəsinin 1-ci paraqrafında təsbit edilən məhkəmə müdafiəsi hüququnun reallaşdırılmasını hüquqi-müəyyənlik prinsipinə əməl olunması ilə əlaqələndirərək, qeyd etmişdi ki, konvensiya iştirakçılarının hüquq sistemlərində verilməsi hər hansı müddət hüdudları ilə məhdudlaşdırılmayan şikayət əsasında artıq qüvvəyə minmiş və icrası məcburi olan məhkəmə qərarının ləğv edilməsi imkanının nəzərdə tutulması ədalətli məhkəmə araşdırmasına (məhkəmə müdafiəsinə) olan hüququ illyuziyaya çevirir və hüququn aliliyini bəyan edən Avropa Konvensiyasının Preambulası ilə bir araya sığmır. Odur ki, Avropa Məhkəməsinin göstərilən hüquqi mövqeyini əsas tutan kollegiya müddətin bərpa edilməsi haqqında birinci instansiya məhkəməsinin qərardadını ləğv etdi.

Digər bir işdə isə Naxçıvan MR Ali Məhkəməsinin Mülki işlər üzrə kollegiyası 19 iyun 2009-cu il tarixli qətnaməsi ilə Azərbaycan Respublikası Mülki Məcəlləsinin mülkiyyət hüququnun əldə edilməsi ilə bağlı normalarını İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Akimova Azərbaycana qarşı iş üzrə 27 sentyabr 2007-ci il tarixli qərarının müddəalarını nəzərə almaqla təfsir etdi. Məhkəmə kollegiyası mübahisəli torpaq sahəsinin mülkiyyət hüququnun obyekti kimi daşınmaz əmlakın dövlət reyestrində ancaq ərlə-arvad arasında nikahın pozulmasından sonra qeydə alındığına baxmayaraq, həmin daşınmaz əmlakın ərin istifadəsinə birgə nikah dövründə verildiyini, yəni qanuni gözlənilən mülkiyyət olduğunu nəzərə alıb onu ərlə arvadın birgə mülkiyyəti kimi qəbul etdi.

Avropa Məhkəməsinin presedentlərinin məhkəmə təcrübəsində tətbiqi ilə bağlı sonda onu qeyd etməliyik ki, həmin qərarlara istinad etmək hər bir işdə məqsəd kimi görülməməlidir. Nə vaxt ki, milli hüquq norması insan hüquq və azadlıqları ilə bağlı məsələni kifayət qədər təzimləmir və yaxud ziddiyətli şəkildə tənzimləyir - ancaq bu cür vəziyyətlərdə presedentlərdən istifadə edilməsi faydalı ola bilər. Çünki bu işdə əsas məqsəd presedentlərdən formal olaraq istifadə etmək deyil, pozulmuş insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə müdafiəsini təmin etmək, ədalət mühakiməsinin səmərəliliyini və keyfiyyətini artırmaqdır.

**İstifadə olunmuş normativ aktların və ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. Qanun, 2009.
2. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında 1950-ci il 4 noyabr tarixli Konvensiya.
3. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi. Bakı, Qanun, 2009.
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, Qanun, 2010.
5. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun, 2010.
6. Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdiril¬məsi və Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı.
7. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin arxiv materialları (Naxçıvan MR Ali Məhkəməsinin Mülki İşlər üzrə kollegiyasının birinci instansiya məhkəməsinin qərardadından verilmiş şikayətə baxılması haqqında 13 fevral 2008-ci il tarixli qərardadı; Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki İşlər üzrə kollegiyasının 19 iyun 2009-cu il tarixli qətnaməsi).

**Yusifəli Süleyman oğlu Qurbanov**
*Ali Məhkəmənin hakimi*

## Yaşayış binasının tərkib hissəsindən istifadə hüququna müvafiq kompensasiya verilməsi yolu ilə xitam verilməsinin bəzi xüsusiyyətləri

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.2-ci maddəsində razılaşma olmadıqda mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verilməsi yolu ilə yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi imkanı nəzərdə tutulmuşdur. Maddənin məzmunundan görünür ki, qanunverici istifadə hüququ olan şəxsin deyil, yalnız mülkiyyətçinin müvafiq kompensasiya verilməklə istifadə hüququna xitam verilməsini tələb etmək hüququnun olmasını müəyyənləşdirmişdir. İstifadə hüququna bazar qiyməti ilə müvafiq kompensasiyanın verilməsi yolu ilə xitamının tələb edilməsi Mülki Məcəllədə nəzərdə tutulmuş tələblərin və digər hüquqların alqı-satqısını nəzərdə tutmur və kompensasiyanın bazar qiymətlərinə uyğun olaraq yalnız pul ödəməklə həyata keçirilməsini əsas şərt kimi göstərmir. Ona görə də hesab edirik ki, qanunda həmin normanın bir qədər dəqiqləşdirilərək yaşayış binasının tərkib hissəsindən istifadə hüququna müvafiq əvəzləşmə yolu ilə xitam verilməsi kimi təsbit olunması daha məqsədəuyğun olardı. Qanunda yaşayış binasının tərkib hissəsindən istifadə hüququna kompensasiya verilməklə xitam olunması imkanı nəzərdə tutulsa da, onun necə həyata keçirilməsi, ödənilməsi, nəzərdə tutulan kompensasiyanın hansı qaydada və nəyin əsasında bazar qiymətinə uyğunlaşdırılması, kompensasiyanın məbləğinin aşağı həddi, bu zaman istifadə hüququ əldə etmiş keçmiş ailə üzvlərinin sayının nəzərə alınması, mülkiyyətçi tərəfindən yaşayış sahəsi ilə naturada təminat verilərsə, onun hansı qaydada sənədləşdirilməsi və s. kimi məsələlərin tənzimlənməsinə dair hər hansı bir müddəa nəzərdə tutulmamış və qanunda bu əsasda istifadə hüququna xitam verilməsi məhkəmənin vəzifəsi kimi deyil, hüququ kimi göstərilməklə həmin məsələlərin həlli məhkəmənin mülahizəsinə buraxılmışdır.

Qeyd etmək lazımdır ki, qanunda bazar qiyməti ilə müvafiq kompensasiyanın verilməsi yolu ilə ifadəsinin işlədilməsi də qeyri-müəyyənlik yaradır, zahirən belə çıxır ki, mülkiyyətçi bazar qiymətinə uyğun pul şəklində hər hansı kompensasiyanı təklif

etməzsə, onun iddiası rədd olunmalıdır. Təsəvvür edək ki, şəxsin mülkiyyətində bir otaqlı yaşayış evi var. Qanunla müəyyən edilmiş qaydada həmin yaşayış sahəsindən istifadə hüququ əldə etmiş keçmiş ailə üzvünün, məsələn, gəlinin istifadə hüququna xitam verilməsi üçün mülkiyyətçi tərəfindən təklif olunan pul şəklində olan kompensasiyanı məhkəmə hansı meyarlara əsaslanıb ədalətli əvəz kimi qiymətləndirməlidir?

Qanuna görə istifadə hüququ şəxsin yalnız həmin mənzildə yaşaması ilə məhdudlaşır, başqa sözlə, bu hüquq şəxsin mənzilə pay hüququnun olması demək deyil. AR MM-in 228.3-cü maddəsinə əsasən yaşayış binasının tərkib hissəsindən istifadə hüququ alqı-satqının, girovun və icarənin müstəqil predmeti ola bilməz. Burada mənzilin bazar qiymətinə uyğun dəyərinin bölünüb hansısa bir hissəsinin istifadəçiyə verilməsindən və ya istifadəçiyə bir otaqlı mənzilin alınıb verilməsindən söhbət gedə bilməz. Belə məqamlarla bağlı R.Ağalarovun şikayəti üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 26 sentyabr 2006-cı il tarixli qərarında göstərilmişdir ki, kompensasiya institutu istifadəçiyə mənzilin bölünməsi və ya onun dəyərindən müəyyən payın ödənilməsini tələb etmək hüququnu verməsə də o, yaşayış sahəsindən istifadə etmək hüququnun adi xitamını deyil, onun elə bir əvəzləşdirilməsini nəzərdə tutur ki, mülkiyyətçinin hesabına istifadəçiyə davamlı surətdə və müəyyən müddət daxilində başqa yerdə əvvəlki mənzildə ona xas olmuş şəraitlə müqayisədə oxşar yaşamaq imkanı versin. Qərardan o da aydın olur ki, istifadəçiyə mənzildə yaşamaq imkanının verilməsi onun yaşadığı ərazi hüdudları ilə məhdudlaşmır və bu məsələ yalnız ona əvvəlki mənzildəki şəraitlə müqayisədə oxşar şəraitin təmin edilməsi ilə əlaqələndirilir. Fikrimizcə, mülkiyyətçi müəyyən dövr ərzində özünun mülahizəsinə uyğun seçdiyi yerdə istifadəçiyə yaşayış hüququna kompensasiya olaraq əvvəlki yaşayış şəraitinə uyğun şəraitlə təmin etməyi təklif etdikdə, bu, məhkəmə tərəfindən ədalətli əvəz kimi qiymətləndirilə bilər. Bu isə mülkiyyətçinin öz mülahizəsi ilə seçdiyi yerdə hər hansı bir evin və ya onun bir hissəsinin alınmasında, evin tikilməsində, istifadəçiyə maddi köməklik göstərilməsi məqsədilə müəyyən məbləğ nəğd pulun ona verilməsində və ya istifadəçinin yaşadığı əvvəlki şəraitə uyğun şəraitli yaşayış evinin müəyyən müddətə kirayə müqaviləsi əsasında haqqının ödənilərək onun istifadəsinə verilməsində və s. digər formada ifadə oluna bilər. Mülkiyyətçi öz əmlakı üzərində hüquqlarını istifadəçinin və ya məhkəmənin mülahizəsinə görə deyil, mövcud hüquq əsasında həyata keçirdiyindən məhkəmə bununla bağlı istifadəçinin rəyini nəzərə alıb mülkiyyətçinin təklif etdiyi pul şəklində olan kompensasiyanı artırmağa və ya digər qaydada əvəzləşmə variantını təklif etməyə onu məcbur edə bilməz. Məhkəmə yalnız toplanmış sübutlar əsasında mülkiyyətçi tərəfindən təklif olunan əvəzləşmənin istifadə hüququna xitam verilməsi üçün ədalətli olub-olmamasını araşdırıb hüquqi qiymət verməlidir. Nəzərə alınmalıdır ki, pul şəklində ödənilən kompensasiya ayrıca mənzilin mülkiyyət kimi əldə olunmasına deyil, keçmiş ailə üzvünün başqa yerdə yaşamaq, yəni yaşayış sahəsindən istifadə etmək hüququnun ağlabatan müdddət ərzində təmin olunmasına kifayət etməlidir. Məhkəmə təcrübəsindən misal olaraq göstərmək olar ki, birinci instansiya məhkəməsində iki azyaşlı uşağı ilə birlikdə istifadə hüququ əldə etmiş keçmiş ailə üzvünün - gəlinin istifadə hüququna mülkiyyətçinin təklif etdiyi 7500 manat kompensasiya müqabilində xitam verilmiş, qətnamədən narazı qalan cavabdeh apellyasiya şikayətində təklif olunan kompensasiyanın azlıq təşkil etməsini, hazırkı bazar qiymətlərinə cavab verən ədalətli əvəz kimi 15000 manat pulun verilməli olduğunu göstərmişdir. Cavabdehin apellyasiya şikayətinə baxan Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi apellyasiya baxışında mülkiyyətçi tərəfindən kompensasiya qismində təklif olunan əlavə 1500 manatı da nəzərə alaraq göstərmişdir ki, ekspert rəyinə əsasən təklif olunan kompensasiya Naxçıvan şəhərinin hətta mərkəzi küçələrində yerləşən bir otaqlı mənzilin dəyərinin 60 faizini, yəni onun

dəyərinin əhəmiyyətli hissəsini təşkil etdiyindən, habelə həmin pul məbləği cavabdehin uşaqları ilə birlikdə 8 ildən artıq müddətə kirayə müqaviləsi əsasında ayrıca mənzildən istifadə hüququ əldə etməyə imkan verdiyindən itirilmiş istifadə hüququnun ədalətli əvəzi kimi qəbul olunmalıdır.

Rusiya Federasiyasının Mənzil Məcəlləsinin 31-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuşdur ki, mülkiyyətçi keçmiş ərə, arvada və başqa ailə üzvlərinə münasibətdə aliment öhdəliyindədirsə, keçmiş ailə üzvünün tələbi ilə məhkəmə mülkiyyətçinin üzərinə ailə üzvünü başqa yaşayış sahəsi ilə təmin etmək vəzifəsini də qoya bilər. Bununla bağlı Rusiya Federasiyası Ali Məhkəməsi Plenumu Mənzil Məcəlləsinin tətbiqi zamanı ortaya çıxan bəzi məsələlər barədə 02 iyul 2009-cu il tarixli qərarında göstərmişdir ki, bunu həyata keçirərkən məhkəmələr konkret vəziyyəti nəzərə almalıdırlar. Bu zaman məsələn, keçmiş ailə üzvünün nikahda olma müddətini, mülkiyyətçi ilə keçmiş ailə üzvünün bir yerdə yaşama müddətini, tərəflərin yaşını, səhhətini, maddi vəziyyətlərini, mülkiyyətçinin aliment öhdəliyini icra etdiyi müddəti, mülkiyyətçidə əlavə pul vəsaitinin və ya əlavə yaşayış sahəsinin olmasını və s. kimi halları nəzərə almalı və məhkəmə ədalət, humanizm, məhkəmə qətnaməsinin icra olunmasının reallığı, ağlabatanlılıq prinsiplərini rəhbər tutmalıdır. Qərarda, həmçinin göstərilmişdir ki, məhkəmə mülkiyyətçini keçmiş ailə üzvünü kirayə müqaviləsi və ya əvəzsiz istifadə müqaviləsi və ya mülkiyyət hüququ əsasında (yaşayış sahəsi almaq, bağışlama, ev tikmək və s.) yaşayış sahəsi ilə təmin etməyə məcbur edə bilər.

Azərbaycan Respublikasının yeni Mənzil Məcəlləsində və Mülki Məcəlləsində haqlı olaraq belə bir qayda nəzərdə tutulmayıb. Hesab edirik ki, belə bir qaydanın nəzərdə tutulması mülkiyyətçinin hüquqlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına səbəb olardı.

İndi isə, mülkiyyətçiyə məxsus yaşayış evindən istifadə ilə bağlı hansı şəxslərin hüquqlarının kompensasiya oluna bilməsi məsələsinə aydınlıq gətirək. Mülki Məcəllənin 228.1-ci və 228.2-ci maddələrinə əsasən mülkiyyətçinin ailə üzvləri və digər şəxslərin mülkiyyətçiyə məxsus yaşayış binasının tərkib hissəsindən istifadə hüquqlarının əmələ gəlməsi, həyata keçirilmə şərtləri və xitamı mülkiyyətçi ilə bağlanan notariat qaydasında təsdiqlənən yazılı razılaşma ilə müəyyənləşdirilir və həmin hüquq daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqda etibarlı sayılır. Deməli, qanunun yuxarıda sözü gedən tələbinə uyğun istifadə hüququ əldə etmiş şəxslərin hüquqları kompensasiya oluna bilər. Bundan başqa, Mülki Məcəllənin 228.5-ci maddəsinin mənasına görə mülkiyyətçinin hər hansı ailə üzvü deyil, yalnız onunla birgə yaşayan ailə üzvləri, yəni onun əri və ya arvadı, valideynləri və uşaqları hər hansı yazılı razılaşma olmadan yaşayış sahəsindən mülkiyyətçi ilə bərabər istifadə etmək hüquqlarına malik olduqlarından həmin şəxslərə münasibətdə onların da hüquqlarının kompensasiyası mümkündür. Konstitusiya Məhkəməsinin yuxarıda adı çəkilən qərarında göstərilmişdir ki, yaşayış evi mülkiyyətçisinin ailə üzvlərinin və digər şəxslərin yaşayış sahəsindən istifadə qaydası, o cümlədən belə istifadəyə xitam verilməsi qüvvədən düşmüş Mənzil Məcəlləsinin 123-cü maddəsində müəyyən olunmasa da, hər iki tərəfin hüquqları üçün qeyri-müəyyənlik yarandığından qanunun analogiyası tətbiq edilməklə Mülki Məcəllədə göstərilmiş kompensasiya institutu həmin münasibətlərə də tətbiq oluna bilər. Mübahisə halında mənzil hüquq münasibətlərinin nə vaxtdan yaranmasının müəyyən olunması vacibdir. Əgər mübahisəli mənzil hüquq münasibətləri 2000-ci ilədək, yəni hazırkı Mülki Məcəllənin qüvvəyə mindiyi vaxtadək əmələ gəlmişdirsə, qanunun zamana görə qüvvəsi prinsipinə əsasən həmin münasibətlərə Mülki Məcəllənin və 01 oktyabr 2009-cu ildən qüvvəyə minmiş Mənzil Məcəlləsinin müvafiq normaları deyil, qüvvədən düşmüş Mənzil Məcəlləsinin 123-cü maddəsinin müddəaları tətbiq olunmalı, həmin maddəyə müvafiq olaraq ailə üzvlərinin yaşayış sahəsindən istifadə hüququnun yaşayış evinin mülkiyyətçisi ilə ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılması nəzərə alınaraq mübahisə

halında onların istifadə hüquqlarının xitamı üçün kompensasiya ödənilməsi təmin edilməlidir.

Mülki Məcəllənin 228.2-ci maddəsində müəyyən olunan yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda anlayışının geniş mənası vardır. Belə ki, bu ifadənin mənasını istifadə hüququna xitam verilməsi əsaslarının mülkiyyətçi ilə istifadəçi arasında əvvəlcədən mövcud olmuş yazılı razılaşmada birbaşa göstərilməməsi və yaxud mülkiyyətçinin istifadə hüququna xitam verilməsi üçün təklif etdiyi kompensasiyaya - əvəzləşməyə istifadəçi tərəfindən razılığın olmaması kimi də başa düşmək olar. AR MM-in 228.2-ci maddəsinin mənasına görə belə nəticəyə gəlmək olar ki, mülkiyyətçinin mənzilin tərkib hissəsindən istifadə hüququna müvafiq kompensasiyanın müqabilində xitam verilməsini tələb etmək hüququ mənzildən istifadə hüququnun əmələ gəlməsini və həyata keçirilməsini tənzimləyən notariat qaydada təsdiq olunmuş yazılı razılaşmanın bağlandığı, lakin istifadə hüququnun üçüncü ünsürü olan - ona xitam verilməsi barədə tərəflər arasında razılığın əldə edilmədiyi hallarda yaranır. Həmin norma, həmçinin o hallarda tətbiq oluna bilər ki, tərəflər arasında bağlanmış razılaşmada mülkiyyətçiyə məxsus yaşayış binasından istifadə hüququnun həyata keçirilməsi ilə bağlı konkret müddət müəyyənləşdirilməsin və ya müəyyənləşdirilmiş müddət qurtarmamış mülkiyyətçi öz mülahizəsi ilə həmin hüquqa xitam verilməsini tələb etsin. AR MM-in 228.2-ci maddəsinin mənasına görə istifadə hüququna xitam verilməsi də razılaşma ilə müəyyən olunduğundan tərəflər yazılı razılaşmada qanunla qadağan olunmayan istənilən şərtlərlə istifadə hüququna xitam verilməsi əsasını göstərə bilərlər (məsələn, ailə münasibətlərinin kəsilməsi, istifadə hüququ əldə etmiş şəxsin torpaq sahəsi və ya yaşayış evi əldə etməsi, müəyyən hadisənin baş verməsi, razılaşdırılmış yaşama müddətinin keçməsi, mülkiyyətçinin yaşayış sahəsi üzərində sərəncam verməsi halları və s.). Burada tərəflər arasında bağlanmaqla notariat qaydasında təsdiqlənən yazılı razılaşma müqavilə xarakteri daşıyır və tərəflər öhdəlik münasibətlərində olurlar. Razılaşmada göstərilmiş istifadə hüququna xitam verilməsi üçün əsas olan hallar baş verdikdə tərəflər arasında mövcud olmuş hüquq münasibətləri öz əhəmiyyətini itirmiş olur və belə halda itirilmiş hüququn kompensasiyası əmələ gəlmədiyindən şəxsin mülkiyyətçiyə məxsus yaşayış evindən çıxarılması üçün əsas yaranır.

Ailə münasibətlərinə xitam verildikdə keçmiş ailə üzvünün hansı hallarda saxlanılan istifadə hüququna xitam verilməsini aydınlaşdırmaq bu məsələnin həllində vacib əhəmiyyətə malikdir. Qanunvericilikdə mülkiyyətçinin ailə üzvləri, yəni valideynləri, uşaqları ilə ailə münasibətlərinin xitamı nəzərdə tutulmamışdır, çünki bu münasibətlər təbii xarakter daşımaqla dəyişilməzdir. Konstitusiya Məhkəməsinin hüquqi mövqeyinə görə mülkiyyətçi ilə birgə yaşayan ailə üzvlərinin yaşayış binasının tərkib hissəsindən onunla bərabər istifadə hüququ mülkiyyətçi ilə bağlanan müqavilədən deyil, yalnız tərəflər arasında qurulan etibarlı ailə əlaqələrindən yaranır. Mülkiyyətçi ilə digər ailə üzvlərinin, yəni yaşayış sahəsinə qanunla müəyyən olunmuş qaydada köçürdüyü ailə üzvlərinin ərinin və ya arvadının arasında mövcud olmuş ailə münasibətlərinin kəsilməsi halında ailə münasibətlərinə xitam verilir. Ailə münasibətlərinə xitam verilmiş şəxs keçmiş ailə üzvü hesab edilir. Əvvəlki qaydalardan fərqli olaraq yeni Mənzil Məcəlləsində mülkiyyətçi ilə ailə münasibətlərinə xitam verilmiş şəxslərin keçmiş ailə üzvləri adlandırılması bir çox normalarda öz əksini tapmışdır (Mənzil Məcəlləsinin 30.4, 30.5 və 30.6-cı maddələri). Mülkiyyətçi ilə ailə münasibətlərinə xitam verilməsinin əsasını ailə üzvü olmuş şəxsin nikahının pozulması, nikahın etibarsız hesab edilməsi təşkil edir. Qeyd etmək lazımdır ki, boşanma ilə əlaqədar ailə münasibətlərinə xitam verilməsi heç bir halda yetkinlik yaşına çatmayan uşaqların yaşayış evindən istifadə hüquqlarının xitamına səbəb olmur. Qüvvədən düşmüş Mənzil Məcəlləsinin 123-cü maddəsində mülkiyyətçinin ailə üzvlərinin yaşayış evinin mülkiyyətçisi ilə ailə münasibətlərinə xitam verildiyi halda da istifadə hüququnun saxlanılması nəzərdə

tutulmuşdu. Əgər mübahisəli hüquq münasibəti həmin Məcəllənin qüvvədə olduğu dövrdə yaranmışdırsa, burada heç bir ziddiyətli məqamlar meydana gəlmir, həmin qanunla keçmiş ailə üzvünün saxlanılan istifadə hüququ mülkiyyətçinin tələbinə əsasən kompensasiya verilməsi yolu ilə xitam oluna bilər, çünki keçmiş ailə üzvü mülkiyyətçinin şifahi razılığına əsasən yaşayış sahəsinə köçürüldüyü andan həmin yaşayış sahəsindən istifadə etmək hüququna malik olur. Yeni Mənzil Məcəlləsində həmin münasibətlər əvvəlkindən fərqli qaydada nizama salınmışdır. Belə ki, Məcəllənin 30.4-cü maddəsində göstərilmişdir ki, əgər yaşayış sahəsinin mülkiyyətçisi ilə keçmiş ailə üzvü arasında başqa razılaşma yoxdursa, yaşayış sahəsinin mülkiyyətçisi ilə ailə münasibətlərinə xitam verildikdə keçmiş ailə üzvünün həmin yaşayış sahəsindən istifadə hüququ saxlanmır. Burada qeyd olunan razılaşma dedikdə, mülkiyyətçi ilə keçmiş ailə üzvü arasında yaşayış sahəsindən istifadə hüququnun əmələ gəlməsinə, həyata keçirilməsi şərtlərinə və xitamına aid olan notarial qaydada təsdiq edilmiş yazılı razılaşmanın olması başa düşülməlidir. Mülkiyyətçi ilə keçmiş ailə üzvü arasında qanunda göstərildiyi kimi başqa razılaşma, yəni tutaq ki, ailə münasibətlərinin kəsilməsinin yaşayış sahəsindən istifadə hüququna təsir etməyəcəyi şərti ilə bağlanmış razılaşma olduqda, yaşayış sahəsindən istifadə hüququ saxlanılır və mübahisə halında həmin hüququn kompensasiyasına yol verilir. Mövcud razılaşma olmadıqda isə ailə münasibətlərinə xitam verildiyi andan keçmiş ailə üzvünün istifadə hüququ itirilir. Mülki Məcəllənin 228.5-ci maddəsində də həmin şəxslərin yaşayış binasının tərkib hissəsindən istifadə hüququnun mülkiyyətçi ilə ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılması nəzərdə tutulur. Zahirən elə görünür ki, mülkiyyətçinin digər ailə üzvlərinin (ərin, arvadın) istifadə hüquqları hər bir halda maneəsiz olaraq hətta ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılır. Lakin əslində bu, belə deyil. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə dair Konstitusiya Məhkəməsi Plenumunun 27 may 2008-ci il tarixli qərarında göstərilmişdir ki, AR MM-in 228.1-ci və 228.2-ci maddələrinə əsasən yazılı bağlanılmış notariat qaydasında təsdiq edilib müvafiq reyestrdə qeydə alınaraq yaşayış binasının tərkib hissəsi üzərində digər ailə üzvlərində yaranmış istifadə hüququ nikah münasibətlərinin mövcudluğu ilə hər hansı formada əlaqələndirilməmişdir, notariat qaydasında təsdiqlənən yazılı razılaşma üzrə daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış yaşayış binasının tərkib hissəsindən istifadə hüququ müstəqil mahiyyətə malikdir və bu hüquqa xitam verilməsi şərtləri tərəflərin razılaşmada ifadə etdikləri iradələrindən asılıdır (razılaşmada həmin hüquqa xitam verilməsinin nikahın pozulması ilə əlaqələndirilməsi istisna olunmur).

Beləliklə, yuxarıda qeyd olunduğu kimi əgər razılaşmada ailə münasibətlərinə xitam verilməsinin istifadə hüququnun itirilməsinə səbəb olacağı əks olunmuşdursa, ailə münasibətlərinə xitam verilməsi ilə bir vaxtda istifadə hüququna da xitam verilir. Qanunverici bununla da mülkiyyətçinin Konstitusiyada təsbit edilmiş mülkiyyət hüquqlarının qorunmasına təminat verir və ona məxsus əmlakın yüklülüyünü onun özünün razılığı və iradəsindən asılı edir.

Hesab edirik ki, Məcəllənin 228.5-ci maddəsinin mətninin dördüncü cümləsinin **razılaşmada göstərilmədikdə** həmin şəxslərin yaşayış binasının tərkib hissəsindən istifadə hüququ mülkiyyətçi ilə ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılır redaksiyasında verilməsi mövcud anlaşılmazlığı aradan qaldırmış olar.

Yaşayış evinin mülkiyyətçisi dəyişdikdə, mülkiyyət hüququ itirildikdə, mülkiyyət hüququna xitam verildikdə keçmiş ailə üzvünün yaşayış sahəsindən istifadə hüququnun saxlanılıb-saxlanılmaması və bununla əlaqədar hər hansı əvəzləşmənin - kompensasiyanın verilib-verilməməsi ilə bağlı qeyd etmək lazımdır ki, Mülki Məcəllənin 228.4-cü maddəsinə əsasən yaşayış evinə və ya mənzilə mülkiyyət hüququnun keçməsi yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi üçün əsas deyildir,

lakin yaşayış otağından istifadə hüququ olan şəxsin mülkiyyət hüququndan imtina barədə həmin hüquq keçənədək notariat qaydasında təsdiqlənmiş öhdəlik verdiyi hal istisna təşkil edir. Hesab edirik ki, normada yaşayış otağından istifadə hüququ olan şəxsin həmin otağa mülkiyyət hüququndan imtinası müddəası bu münasibətləri tənzimləyən mövcud mülki hüquq normalarının mahiyyətinə ziddir. Belə ki, Mülki Məcəllənin 228.1-ci və 228.2-ci maddələrinin tələblərinə uyğun əldə edilmiş yaşayış binasının tərkib hissəsindən istifadə hüququ mülkiyyət hüququ demək deyildir və o, yalnız MM-in 152.1-ci maddəsində nəzərdə tutulan mülkiyyət hüququnun elementlərindən birini təşkil edir. Həmin normanın mahiyyəti ondan ibarətdir ki, yaşayış binasının tərkib hissəsindən istifadə hüququ olan şəxs həmin yaşayış sahəsinə mülkiyyət hüququ başqasına keçənədək, yəni mülkiyyətçi ölənədək, əmlak barəsində bağışlama, dəyişmə, alqı-satqı müqaviləsi bağlananadək öz hüququndan notarial qaydada imtina edərsə, mülkiyyət hüququ başqasına keçəndən sonra onun istifadə hüququ qanuna görə saxlanılmır. Lakin belə bir imtinanın olmadığı təqdirdə onun saxlanılan istifadə hüququna yalnız yeni mülkiyyətçi tərəfindən verilən kompensasiya ilə xitam verilməsi mümkündür. Bu məhdudiyyət mülkiyyətçinin ailə üzvlərinə, yəni onun arvadına və ərinə, uşaqlarına və ya valideynlərinə şamil edilmir. Konstitusiya Məhkəməsinin yuxarıda qeyd olunan qərarına görə mülkiyyətçinin ailə üzvlərinin yaşayış binasının tərkib hissəsindən onunla bərabər istifadə hüququ mənzil hüququnun predmeti (obyekti) kimi nəzərdən keçirilməli və ailə üzvlərinin bu hüququ onlardan birinin mülkiyyətində mövcud olan yaşayış sahəsində onunla bərabər istifadə etməyi ehtiva edən hərəkət kimi qiymətləndirilməlidir. Həmin əmlakın özgəninkiləşdirilməsinə və ya mülkiyyətçi tərəfindən sərəncam hüququnun başqa yolla həyata keçirilməsinə isə bu hüququn mövcudluğu təsir etmir, ona görə ki, yaşayış binasının tərkib hissəsindən mülkiyyətçinin ailə üzvlərinin onunla bərabər istifadə etmək hüququ mülkiyyət hüququnun Mülki Məcəllənin 152.1-ci maddəsində nəzərdə tutulan elementlərindən biri olan istifadə hüququnu təşkil etmir. Yaşayış binasının tərkib hissəsindən (mülkiyyət hüququnun tərkib hissəsi olan) istifadə hüququnun yaranması üçün Mülki Məcəllənin 228.1-ci və 228.2-ci maddəsinə riayət edilməsi tələb olunur.

Mülkiyyət hüququ başqasına keçdikdə yaşayış sahəsi digər ailə üzvünün (istər ailə münasibətlərinə xitam verilmiş keçmiş ailə üzvü, istərsə də belə münasibətlər davam edən ailə üzvü olsun) istifadə hüququ ilə yüklü olur və yeni mülkiyyətçi ilə başqa razılaşma olmadığı təqdirdə onun hüququ kompensasiya verilməsi yolu ilə xitam olunmalıdır. Təcrübədə bu özünü vərəsəlik münasibətlərində daha qabarıq surətdə göstərir. Belə ki, vərəsələr miras əmlakı qəbul edib qanuna müvafiq qaydada mülkiyyət hüquqları əldə etdikləri vaxtdan əmlakın mülkiyyətçisi dəyişilmiş olur. Mülkiyyətçinin dəyişilməsi qanunda göstərildiyi kimi istifadə hüququnun xitamına səbəb olmadığından miras şərikləri ilə istifadəçi arasında razılaşma olmadıqda onlar müştərək qaydada kompensasiya verilməsi yolu ilə həmin hüququn xitamını tələb edə bilərlər. Təcrübədə elə hallar olur ki, vərəsələr miras əmlakı mülkiyyətlərinə keçirməyə səy göstərmirlər və bu əsasa görə miras əmlakın mülkiyyətçisi dəyişilmir. Lakin buna baxmayaraq, digər ailə üzvünün yaşayış sahəsindən istifadə hüququ keçmiş mülkiyyətçi ilə əvvəldən olmuş yazılı razılaşma əsasında saxlanılmış olur və onun hüquqlarının vərəsələr tərəfindən məhdudlaşdırılmasına yol verilmir.

Yeni Mənzil Məcəlləsinin 30.5-ci maddəsində göstərilir ki, əgər yaşayış sahəsinin mülkiyyətçisi ilə keçmiş ailə üzvü arasında başqa razılaşma yoxdursa, məhkəmənin bu Məcəllənin 30.4-cü maddəsinin müddəaları nəzərə alınmaqla qəbul edilmiş qərarı ilə müəyyənləşdirilən yaşayış sahəsindən istifadə müddəti başa çatdıqda keçmiş ailə üzvünün yaşayış sahəsindən istifadə hüququna xitam verilir. Göstərilən müddət başa çatanadək keçmiş ailə üzvünün yaşayış sahəsindən istifadə hüququna mülkiyyətçinin yaşayış sahəsinə mülkiyyət hüququna xitam verilməsi ilə eyni vaxtda xitam verilir. İlk baxışdan elə görünür ki, AR MM-in 228.4-cü maddəsi ilə yeni Mənzil Məcəlləsinin 30.5-ci maddəsinin məzmunu arasında ziddiyyət var. Belə ki, Mülki Məcəllənin həmin

normasına görə yaşayış evinə və ya mənzilə mülkiyyət hüququnun keçməsi istifadə hüququnun xitamına səbəb olmadığı halda, Mənzil Məcəlləsinin həmin normasına əsasən mülkiyyət hüququnun xitamı yaşayış sahəsindən istifadə hüququnun xitamına səbəb olur. Lakin əslində bu belə deyil. Mənzil Məcəlləsinin adı çəkilən normasının məzmununa diqqətlə nəzər yetirdikdə aydın olur ki, bu, yalnız məhkəmə qərarı əsasında saxlanılmış istifadə hüququna şamil edilir.

Yuxarıda qeyd olunduğu kimi yeni Mənzil Məcəlləsində keçmiş ailə üzvünün mülkiyyətçiyə məxsus yaşayış evindən istifadə hüquqlarının mülkiyyətçinin iradəsindən asılı olmayaraq məhkəmə qərarı əsasında müəyyən müddətə saxlanılması qaydası nəzərdə tutulmuşdur. Məcəllənin 30.4-cü maddəsində göstərilmişdir ki, yaşayış sahəsinin mülkiyyətçisinin keçmiş ailə üzvünün yaşayış sahəsini əldə etməyə və ya yaşayış sahəsindən istifadə hüquqlarını həyata keçirməyə əsasları olmadıqda, yaşayış sahəsinin keçmiş ailə üzvünün maddi vəziyyəti və diqqətəlayiq digər hallar özünü yaşayış sahəsi ilə təmin etməyə imkan vermədikdə, keçmiş ailə üzvünün göstərilən mülkiyyətçiyə məxsus olan yaşayış sahəsindən müəyyən müddətə istifadə hüququ məhkəmənin qərarı əsasında saxlanıla bilər və həmin hüququn xitamının əsasını mülkiyyətçinin mülkiyyət hüququna xitam verilməsi təşkil edir. Bunu keçmiş ailə üzvünə qanunla verilən kompensasiya kimi də qiymətləndirmək olar. Bu o hallarda mümkün olur ki, Məcəllədə göstərildiyi kimi keçmiş ailə üzvünün yaşayış sahəsindən istifadə hüquqlarını həyata keçirməyə heç bir əsası olmur (məsələn, razılaşmada müəyyən olunmuş müddət keçmiş olur və ya razılaşmada müəyyən olunmuş istifadə hüququna xitam verilməsinə səbəb olacaq hallar baş verir və s.). Bir sözlə, həmin hüquq itirilmiş olduğundan mülkiyyətçi hüquqa kompensasiya verilməklə xitam olunmasını deyil, keçmiş ailə üzvünün yaşayış sahəsindən çıxarılmasını tələb edir və yaxud keçmiş ailə üzvü həmin halların olması səbəbindən yaşadığı əvvəlki yerdən istifadə hüququnun təmin edilməsini məhkəmədən xahiş edir. Belə halda məhkəmə qanunda göstərilən halları nəzərə alaraq keçmiş ailə üzvünün istifadə hüququnu müəyyən müddətə saxlaya bilər. Burada maraqlı cəhət odur ki, keçmiş ailə üzvünün istifadə hüququnun saxlanılması üçün onun əvvəldən qanunla müəyyən olunmuş qaydada istifadə hüququ olmalıdır. Çünki maddənin özündə birbaşa göstərilir ki, keçmiş ailə üzvünün istifadə hüququ məhkəmənin qərarı əsasında saxlanıla bilər. Yəni burada söhbət əvvəldən mövcud olmuş hüququn saxlanılmasından gedir. Keçmiş ailə üzvünün əvvəldən istifadə hüququ olmuş olsa da belə, sonda istifadə hüquqlarını həyata keçirməyə heç bir əsası qalmır və bununla da qanunla müəyyən edilmiş qaydada istifadə hüququ əldə etməyib mülkiyyətçinin şifahi razılığı əsasında bir neçə il ona məxsus evdə yaşayan keçmiş ailə üzvünün vəziyyətində qalır. Müqayisə etdikdə aydın olur ki, müxtəlif hüquqi vəziyyətdə olan qeyd olunan şəxslərin son nəticədə yaşayış sahəsindən istifadə hüquqları olmur. Ona görə də hesab edirik ki, qanunvericilikdə dəyişiklik edilməklə həmin normanın, göstərilən əsaslar olduqda həm əvvəldən istifadə hüququ olub sonradan bu hüquqları həyata keçirməyə əsasları olmayan, həm də mülkiyyətçinin şifahi razılığı əsasında köçürülüb orada uzun müddət ərzində yaşayıb sonradan mülkiyyətçi tərəfindən çıxarılan keçmiş ailə üzvünə münasibətdə tətbiq edilməsi sosial ədalətin bərpasına yönəlmiş olar. Rusiya Federasiyasının Mənzil Məcəlləsində də məhkəmənin keçmiş ailə üzvünün yaşını, səhhətini, xəstəliyini, işləməməsini və s. halları nəzərə alıb onun müəyyən müddətə istifadə hüququnu saxlaması nəzərdə tutulmuşdur.

Müddətin məhkəmə tərəfindən müəyyən edilməsi mülkiyyətçinin hüquqlarının müdafiəsinə yönəldilmişdir. Mülkiyyətçinin hüquqlarının təminatı kimi Məcəllənin 30.5-ci maddəsində xüsusi olaraq göstərilmişdir ki, məhkəmə qərarı əsasında saxlanılan istifadə müddəti başa çatanadək keçmiş ailə üzvünün yaşayış sahəsindən istifadə hüququna mülkiyyətçinin yaşayış sahəsinə mülkiyyət hüququna xitam verilməsi ilə eyni vaxtda, yaxud məhkəmənin qərarı ilə belə hüququn saxlanılmasına əsas olmuş hallar aradan qalxdıqda xitam verilir. Qanunun mənasına görə məhkəmənin müəyyən etdiyi

müddətin başlanğıcından sonunadək istənilən vaxtda mülkiyyət hüququna mülkiyyətçinin ölümü, daşınmaz əmlakın məhvi, yaşayış evinin alqı-satqısı, bağışlanması, dəyişdirilməsi yolu ilə xitam verilərsə, məhkəmə tərəfindən müəyyən edilən müddətin nə qədər qalmasından, istifadə hüququnun saxlanılmasına səbəb olmuş halların qalmaqda davam etməsindən asılı olmayaraq avtomatik olaraq istifadə hüququna xitam verilir və bununla əlaqədar mülkiyyətçinin kompensasiya ödəmək vəzifəsi yaranmır. Bu da mülkiyyətçinin onun ölümündən başqa digər hallarda yüklü olan əmlakı üzərində müvafiq sərəncam verməsinə olan hüquqi təminatdır.

Mülkiyyətçinin hüquqlarının müdafiəsinə yönələn addım kimi onu da qeyd etmək lazımdır ki, məhkəmə tərəfindən müəyyən edilmiş konkret müddətin olmasından asılı olmayaraq, əgər istifadə hüququnun saxlanılmasına səbəb olmuş hallar aradan qalxdıqda, yəni keçmiş ailə üzvünün maddi vəziyyəti özünü yaşayış sahəsi ilə təmin etməyə imkan verdikdə digər vasitələr hesabına yaşayış sahəsi ilə təmin edildikdə, vərəsəlik yolu ilə yaşayış sahəsi əldə etdikdə və s. hallarda onun istifadə hüququna xitam verilməlidir. Mülkiyyətçi, həmçinin məhkəmə qərarı əsasında saxlanılmış istifadə hüququna kompensasiya verilməsi yolu ilə xitam verilməsini də tələb edə bilər. Burada qanun yalnız keçmiş ailə üzvünün özünə münasibətdə istifadə hüququnun saxlanılmasına səbəb olmuş halların aradan qalxmasını nəzərdə tutur. Başqa sözlə, mülkiyyətçinin keçmiş ailə üzvünün atasının və ya onun digər qohumlarının bir neçə yaşayış sahəsinə malik olması, onların maddi vəziyyətinin əlavə yaşayış sahəsi əldə etməyə imkan verməsi halları keçmiş ailə üzvünə münasibətdə həmin əsasla yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi üçün əsas deyildir.

Keçmiş ailə üzvünün mülkiyyətçiyə məxsus evdə yaşadığına görə haqqın ödənilib-ödənilməməsi və müddətin nə qədər müəyyən edilməsi barədə qanunda düzünə göstəriş olmasa da, hüquq ədəbiyyatında hüquq münasibətlərinin iştirakçılarının bərabərliyi və kirayə müqaviləsinin əvəzli olması prinsipindən çıxış edən bəzi hüquqşünaslar belə hesab edirlər ki, istifadəyə görə keçmiş ailə üzvündən haqq tutulması bütünlüklə ədalətlidir və müddət ağlabatan olmalıdır. Belə olduqda mülkiyyətçinin mənafeyi qorunmuş olar.

Rusiya Federasiyası Ali Məhkəməsinin yuxarıda adı çəkilən qərarında da göstərilir ki, mülkiyyətçinin ölümü, mülkiyyətin əqd əsasında başqasına keçməsi ilə əlaqədar mülkiyyət hüququna xitam verildiyi vaxtdan keçmiş ailə üzvlərinin yaşayış sahəsindən istifadə hüquqlarına xitam verilir. İstisna olaraq göstərilmişdir ki, əgər keçmiş ailə üzvü mənzil özəlləşərkən adına özəlləşən şəxslə, yəni mülkiyyətçi ilə bir yerdə yaşayıb onunla yaşayış sahəsindən bərabər istifadə etmək hüququna malik olmaqla özəlləşməyə razılıq vermişsə, onun istifadə hüququ müddətsiz xarakter daşıyır, hətta yaşayış sahəsi üzərində mülkiyyət hüququ alqı-satqı, dəyişmə, bağışlama, renta, vərəsəlik qaydasında başqasına keçdikdə belə həmin hüquq saxlanılır.

Beləliklə, mənzil və mülki hüquq normalarının müqayisəli təhlilindən belə nəticəyə gəlmək olur ki, yalnız qanunla müəyyən edilmiş qaydada yaşayış binasının tərkib hissəsindən istifadə hüququ əldə etmiş şəxslərin hüquqlarına mülkiyyətçi tərəfindən müvafiq kompensasiya verilməsi yolu ilə xitam verilə bilər və məhkəmənin qərarı ilə əvvəllər qanunla müəyyən edilmiş qaydada istifadə hüququ əldə edib sonradan həmin hüquqları həyata keçirməyə əsası olmayan şəxslərin istifadə hüquqları müəyyən müddət ərzində saxlanıla bilər.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2009.
2. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi. Bakı, Qanun, 2009.

3. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi (2002-ci il yanvarın 1-dək olan dəyişiklik və əlavələrlə). Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2002.
4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, Qanun, 2010.
5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları. Bakı, Qanun, 2002.
6. Rusiya Federasiyası Ali Məhkəməsinin 2 iyul 2009-cu il tarixli Plenum Qərarı.

***Əli Kərim oğlu Allahverdiyev***
*Ali Məhkəmənin hakimi,*
*Hakimlərin Seçki Komitəsinin üzvü*

## Hakimlərin intizam məsuliyyətinə cəlb olunmalarıbilə bağlı Məhkəmə-Hüquq Şurasının 2010-cu ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında

Hakimlərin mütəmadi olaraq Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qərarları ilə tanış edilməsini Bülletenin bu sərlövhəsinin əsas məqsədlərindən biri kimi müəyyən etmişik. Hakimlərin intizam məsuliyyətinə cəlb olunmalarına dair qərarların digər hakimlərə çatdırılmasının vacibliyi, xüsusilə intizam tənbehlərinə səbəb olan pozuntular barədə hakim korpusunun məlumatlandırılmasının zəruriliyi hakimlərin statusuna həsr olunmuş beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. Hesab edirik ki, bununla həm hakimlərin özünüidarəsi sahəsində şəffaflıq təmin olunur, həm də eyni pozuntuların digər hakimlər tərəfindən törədilməsi hallarının qarşısı alınmış olur. Bu məqsədlərdən çıxış edərək Bülletenin hazırkı buraxılışında 2010-cu ilin birinci yarısında Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi bir sıra qərarlar barəsində ümumiləşdirilmiş məlumatları və buna dair müvafiq təhlili muxtar respublika hakimlərinin diqqətinə çatdırmaq istərdik.

2010-cu ilin birinci yarısında Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin intizam məsuliyyətinə cəlb olunması haqqında 16 qərar qəbul edilmişdir. Bu qərarlar Məhkəmə-Hüquq Şurasının 04 fevral 2010-cu il tarixli iclasında qəbul olunmuşdur**[1]**. Həmin qərarlar əsasında barələrində intizam icraatı başlanılan hakimlərdən 7 nəfərinə (Bakı şəhəri Səbail, Əzizbəyov (hazırda Xəzər), Suraxanı, Yasamal, Binəqədi, Nizami rayon məhkəmələrinin və Sumqayıt şəhər məhkəməsinin hakimlərinə) töhmət verilmiş,

iki nəfərinə (Yasamal və Səbail rayon məhkəməsinin hakimlərinə) irad tutulmuş, 2 nəfərin (Binəqədi və Yasamal rayon məhkəməsinin hakimləri) barəsində iş yerinin dəyişdirilməsi, 3 nəfərin (Binəqədi, Yasamal və Sabunçu rayon məhkəməsinin hakimlərinin) isə hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinə müraciət olunmuşdur.

Barələrində intizam icraatı başlanılmış 2 nəfər hakim haqqında intizam icraatlarına xitam verilmişdir. Bununla yanaşı, icraata xitam verilən intizam işlərində də hakimlər tərəfindən pozuntulara yol verilməsi müəyyən olunmuş, lakin Məhkəmə-Hüquq Şurası həmin nöqsanların xarakterini və digər diqqətəlayiq halları nəzərə alıb icraatın müzakirə ilə bitirilməsini məqsədəmüvafiq hesab etmişdir.

İntizam icraatının başlanılmasına 15 halda Azərbayan Respublikası Ali Məhkəməsi sədrinin, bir halda isə Şirvan Apellyasiya Məhkəməsinin sədrinin (hakim barəsində müvafiq apellyasiya məhkəməsinin çıxardığı xüsusi qərardadla əlaqədar) müraciətləri əsas olmuşdur. Eyni zamanda, bir hakim barəsində intizam icraatı həm Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin, həm də Bakı Apellyasiya Məhkəməsinin sədrinin (hakim barəsində müvafiq apellyasiya məhkəməsinin çıxardığı xüsusi qərardadla əlaqədar) müraciətləri əsasında başlanılmışdır.

15 halda intizam icraatının başlanılmasına səbəb Ali Məhkəmə tərəfindən Bakı şəhərinin rayon məhkəmələrində və Sumqayıt Şəhər Məhkəməsində 2008-ci ildə təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlanılma müddətinin uzadılması barədə təqdimatlara və həbsin ev dustaqlığı ilə əvəz olunmasına dair vəsatətlərə baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsi zamanı birinci instansiya məhkəmələrinin hakimləri tərəfindən qanun pozuntularına yol verilməsinin aşkar edilməsi olmuşdu. 1 halda isə intizam icraatı mülki işlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı yol verdikləri nöqsanlara görə müvafiq apellyasiya məhkəməsinin çıxardığı xüsusi qərardad nəticəsində başlanılmışdır.

Bir halda hakimin intizam məsuliyyətinə cəlb olunmasına həm cinayət, həm də mülki mühakimə icraatında yol verdiyi qanun pozuntuları səbəb olmuşdur (Binəqədi rayon məhkəməsinin sabiq hakimi R.C.Qəhrəmanova).

Cinayət-mühakimə icraatında yol verilən intizam icraatına əsas olmuş konkret pozuntulara gəldikdə, qeyd olunmalıdır ki, həmin nöqsanlar həm maddi, həm də prosessual hüquq normalarının pozulmasında ifadə edilmişdir. Belə ki, Məhkəmə-Hüquq Şurasının Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sabiq hakimi Y.Ə.Kərimovun, Yasamal Rayon Məhkəməsinin sabiq hakimi S.Ə.Məmmədovanın və Binəqədi Rayon Məhkəməsinin sabiq hakimi R.C. Qəhrəmanovanın barəsində çıxardığı 04 fevral 2010-cu il tarixli qərarlarından görünür ki, həmin hakimlərin barəsində intizam icraatlarına təqsirləndirilən şəxslərin barələrində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlanılma müddətlərinin uzadılmasına dair təqdimatlara baxılarkən qanunsuz olaraq qətimkan tədbiri növündə həbsin müddətini qanunla müəyyən olunmuş həddən artıq təyin etməklə və həbs qətimkan tədbiri müddətlərinin uzadılmasında qanunvericiliyin tələblərini dəfələrlə kobud şəkildə pozmaları əsas olmuşdur.

Məhkəmə-Hüquq Şurasının Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin sabiq hakimi S.Məmmədovanın barəsində çıxardığı 04 fevral 2010-cu il tarixli qərarından görünur ki, həmin hakimin sədrliyi ilə çıxarılmış 8 fevral 2008-ci il tarixli qərarları ilə istintaq orqanı tərəfindən Azərbaycan Respublikası CM-in 177.2.1-ci maddəsində nəzərdə tutulan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən R.Qasıməliyev və R.Qasıməliyevin, 7 avqust 2008-ci il tarixli qərarı ilə istintaq orqanı tərəfindən CM-in 206.1-ci maddəsində nəzərdə tutulan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən M.Yakubovun, 8 avqust 2008-ci il tarixli qərarları ilə istintaq orqanı tərəfindən CM-in 221.2.1 və 221.3-cü maddələrində nəzərdə tutulan az ağır cinayət

əməlini törətməkdə təqsirləndirilən Z.Ələkbərov və H.Abdullayevin barələrində qanunsuz olaraq üç ay müddətinə, 24 may 2008-ci il tarixli qərarı ilə istintaq orqanı tərəfindən Azərbaycan Respublikası CM-in 120.2.1-ci maddəsində nəzərdə tutulan xüsusilə ağır cinayət əməlini törətməkdə təqsirləndirilən R.Alıyevin barəsində isə qanunsuz olaraq dörd ay müddətinə həbs qətimkan tədbiri seçilmişdir.

Bundan başqa, hakim S.Məmmədovanın istintaq orqanı tərəfindən CM-in 234.2-ci maddəsində nəzərdə tutulan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən Q.Nağıyevin haqqında iki ay müddətinə həbs qətimkan tədbiri seçilməsi barədə təqdimata baxılması ilə əlaqədar çıxardığı 28 yanvar 2008-ci il tarixli qərarın nəticəvi hissəsində onun barəsində həbs qətimkan tədbiri seçilsin sözlərinin əvəzinə barəsində həbs qətimkan tədbirinin seçilməsi məsələsinə baxasınız sözlərinin yazılması təqsirləndirilən şəxs haqqında həbs qətimkan tədbiri seçilməməsi ilə nəticələnmiş, Azərbaycan Respublikası CM-in 245-ci maddəsində nəzərdə tutulan az ağır cinayət törətməkdə təqsirləndirilən K.Kazımovun haqqında həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimata baxılarkən 25 may 2008-ci il tarixli qərarın nəticəvi hissəsində Qurbanov Həsən Qalib oğlunun barəsində qətimkan tədbiri qismində həbs seçilməklə prosessual məcburiyyət tədbiri tətbiq edilsin sözləri yazılmış, bununla da, faktiki olaraq həbs qətimkan tədbiri K.Kazımovun barəsində deyil, başqa şəxsin haqqında seçilmişdir. Şuranın qərarında birinci instansiya məhkəməsinin hakimi tərəfindən Azərbaycan Respublikası CPM-in 158.1-ci maddəsinin və konstitusion hüquq olan azadlıq hüququnun məhdudlaşdırılmasını nəzərdə tutan həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimatlara baxılarkən altı nəfər barəsində qətimkan tədbiri növündə həbsin müddəti qanunla müəyyən olunmuş həddən artıq müəyyən edilməsi göstərilməklə qanunvericiliyin tələblərinin kobudcasına pozulması kimi qeyd olunmuşdur.

Bu tipli nöqsanlara Yasamal Rayon Məhkəməsinin hakimi S.X.Əhmədova tərəfindən təqsirləndirilən şəxs A.Mamıyevin barəsində olan işə baxılması zamanı da yol verilmişdir. Belə ki, Şuranın 4 fevral 2010-cu il tarixli qərarından görünür ki, hakim S.Əhmədova 23 mart 2008-ci il tarixli qərarı ilə Azərbaycan Respublikası CM-in 177.1 və 185.2-ci maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə təqsirləndirilən A.Mamıyevin barəsində həbs qətimkan tədbirinin seçilməsinə dair təqdimata baxarkən həbs qətimkan tədbiri seçilməsi məsələsi faktiki olaraq həll edilməmiş, qəbul olunan qərarın nəticəvi hissəsində A.Mamıyevin barəsində həbs qətimkan tədbiri seçilməsi məsələsinə baxasınız sözləri qeyd olunmuşdur. Bundan əlavə, S.Əhmədova tərəfindən Azərbaycan Respublikası CM-in 103 və 107-ci maddələri ilə təqsirləndirilən digər şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsinə dair təqdimata baxılarkən də kobud qanun pozuntularına yol verilmiş, 22 iyun 2008-ci il tarixli qərarın nəticəvi hissəsində təqsirləndirilən şəxs qismində cəlb edilsin sözləri yazılmış, bununla da əslində təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilməmişdir. Habelə, həmin təqdimat üzrə 17 iyun 2008-ci il tarixli başqa bir qərarın da olması aşkar edilmişdir. Həmin qərarda da kobud nöqsanlara yol verilərək təqsirləndirilən şəxs barəsində həbsdə saxlama müddəti və müddətin hesablanması tarixini göstərmədən həbs qətimkan tədbirinin seçildiyi qeyd edilmişdir.

Sabunçu Rayon Məhkəməsinin sabiq hakimi Y.Ə.Kərimovun barəsində olan qərardan görünür ki, o, təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlanılma müddətinin uzadılması barədə təqdimatlara baxarkən qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozmuşdur. Belə ki, CM-in 234.2-ci maddəsində nəzərdə tutulan və heç də mürəkkəb olmayan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən Ə.Zeynalovun haqqında Sabunçu rayon məhkəməsinin 27 may 2008-ci il tarixli qərarı ilə 2 ay müddətinə həbs qətimkan tədbiri seçilmiş, bundan sonra cinayət əməlini törədərkən anlaqlı olub-olmamasını aydınlaşdırmaq məqsədi ilə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatlarına

əsasən təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddəti məhkəmənin müxtəlif hakimlərinin 25 iyul, 25 avqust və 25 sentyabr 2008-ci il tarixli qərarları ilə hər dəfə bir ay müddətinə və nəhayət, hakim Y.Kərimovun 25 oktyabr 2008-ci il tarixli qərarı ilə təkrarən 2 ay müddətinə - cəmi 4 dəfə olmaqla ümumilikdə 5 ay müddətinə uzadılmışdır. Hakim Y.Kərimovun göstərilən qərarı ilə Ə.Zeynalovun həbsdə saxlanılma müddəti 2 ay həddində, yəni 25 dekabr 2008-ci il tarixinədək uzadılarkən CPM-in 159.2 və 159.7.2-ci maddələrinin tələbləri kobud surətdə pozularaq təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddəti qanunda nəzərdə tutulan həddi bir ay keçmişdir.

Bundan əlavə, istintaq orqanı tərəfindən CM-in 177.2.2 və 177.2.3-cü maddələrində nəzərdə tutulan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayan R.Korobeynikovun haqqında hakim Y.Kərimovun 7 iyun 2008-ci il tarixli qərarı ilə 2 ay müddətinə həbs qətimkan tədbiri seçilərkən CPM-in 434.1-ci maddəsinin tələbi açıq-aydın pozulmuşdur. Həmin maddəyə əsasən yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxsin haqqında həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir. R.Korobeynikova istinad edilən əməli az ağır olsa da, zorakı cinayət hesab edilmədiyi üçün onun haqqında həbs qətimkan tədbirinin seçilməsi qanunsuz olmuşdur.

Zorakı hesab edilməyən az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbiri seçilməsi səbəbindən o, haqqında 10 oktyabr 2008-ci ildə ittiham hökmü çıxarılıb cərimə cəzasına məhkum olunanadək dörd ay üç gün qanunsuz olaraq həbsdə saxlanılmışdır.

C.Talıbovun CM-in 120.2.5, 120.2.6, 178.2.2, 178.2.4 və 228.1-ci maddələri ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə təqsirləndirilən şəxs qanunsuz olaraq 20 gün həbsdə saxlanıldıqdan sonra hakim Y.Kərimov həbsdə saxlama müddətinin uzadılması haqqında 19 avqust 2008-ci il tarixdə qərar qəbul etmişdir.

Bundan əlavə, intizam məsuliyyətinə cəlb olunmuş Binəqədi Rayon Məhkəməsinin sabiq hakimi R.Qəhrəmanovanın cinayət mühakimə icraatında yol verdiyi nöqsan ondan ibarət olmuşdur ki, o, 09 avqust 2008-ci il tarixli qərarı ilə istintaq orqanı tərəfindən CM-in 263.2-ci maddəsində nəzərdə tutulan az ağır və CM-in 264-cü maddəsində nəzərdə tutulan böyük ictimai təhlükə törətməyən cinayət əməlini törətməkdə təqsirləndirilən R.Şıxəliyevin, 09 avqust 2008-ci il tarixli qərarı ilə istintaq orqanı tərəfindən CM-in 234.1-ci maddəsində nəzərdə tutulan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən M.Quliyevin və 12 noyabr 2008-ci il tarixli qərarı ilə istintaq orqanı tərəfindən CM-in 234.1-ci maddəsində nəzərdə tutulan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən H.Əliyevin barəsində qanunsuz olaraq 3 ay müddətində həbs qətimkan tədbiri seçməklə CM-in 15.2, CPM-in 158 və 159-cu maddələrinin tələblərini pozmuşdur.

Eyni nöqsanlara Binəqədi Rayon Məhkəməsinin hakimi S.İsmayılova tərəfindən baxılan az ağır cinayət əməllərini törətməkdə təqsirləndirilən 8 nəfər haqqında həbs qətimkan tədbiri seçilməsi barədə verilmiş təqdimatlara baxılarkən də yol verilmişdir. 07 yanvar 2008-ci il tarixli qərarı ilə CM-in 234.1-ci maddəsi ilə təqsirləndirilən M.Babayev, 09 yanvar 2008-ci il tarixli qərarı ilə CM-in 234.2-ci maddəsi ilə təqsirləndirilən Ü.Cəfərov və E.Məlikov, 09 fevral 2008-ci il tarixli qərarı ilə CM-in 234.2-ci maddəsi ilə təqsirləndirilən N.Abdullayeva, 07 iyun 2008-ci il tarixli qərarı ilə CM-in 29, 177.2.4-cü maddəsi ilə təqsirləndirilən Ş.Hacıyev, 07 iyul 2008-ci il tarixli qərarı ilə CM-in 221.2.1 və 221.3-cü maddəsi ilə təqsirləndirilən V.Həsənov və F.Sultanov, 13 sentyabr 2008-ci il tarixli qərarı ilə CM-in 178.2.2 və 178.2.4-cü maddəsi ilə təqsirləndirilən Y.Eminovun barəsində qanunsuz olaraq 3 ay müddətində həbs qətimkan tədbirləri seçilmişdir.

Məhkəmə-Hüquq Şurasının 4 fevral 2010-cu il tarixli qərarları ilə yol verdikləri nöqsanlara görə hakim S.Ə.İsmayılova və hakim S.X.Əhmədova intizam məsuliyyətinə cəlb edilməklə onların iş yerlərinin dəyişdirilməsi barədə qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidentinə təklif verilmişdir.

Məhkəmə-Hüquq Şurasının mülki işlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı yol verilən pozuntularla bağlı çıxardığı qərarlara gəldikdə, ilk növbədə qeyd olunmalıdır ki, məhz bu cür nöqsanlara görə hakimlərin intizam məsuliyyətinə cəlb olunma halları üstünlük təşkil edir. Bu nöqsanlar da hakimlər tərəfindən maddi və prosessual hüquq normalarının pozulmasında özünü göstərir. Belə ki, Məhkəmə-Hüquq Şurasının 4 fevral 2010-cu il tarixli qərarından görünür ki, sabiq hakim R.Qəhrəmanova tərəfindən iddiaçı M.Babayevanın cavabdehlər B.Babayev və B.Babayevaya qarşı nikahın pozulması, alimentin sabit pul məbləğində ödənilməsi, əmlakın bölüşdürülməsi, yaşayış sahəsinə istifadə hüququnun tanınması və mənzildən istifadə qaydasının müəyyən edilməsi və evə köçürülmə tələbinə dair mülki işə baxılarkən mülki prosessual qanunvericiliyin tələblərinin kobud pozulmasına görə onun barəsində 05 iyun 2009-cu ildə Bakı Apellyasiya Məhkəməsi tərəfindən xüsusi qərardad çıxarılmışdır. Şuranın qərarından məlum olur ki, sabiq hakim R.Qəhrəmanova tərəfindən sözü gedən mülki işə baxılarkən maddi və prosessual hüquq normaları pozulmuş, iş üzrə iddiaçının iddia tələblərinin ayrılması barədə qərardad qəbul edilməsinə baxmayaraq, mülki prosessual qanunvericiliyin tələblərini pozmaqla icraatın ayrılması barədə qərardadın icrasını təmin etməmiş, həmin iş üzrə icraatı davam etdirməklə və məhkəmə baxışının prinsiplərini pozmaqla müxtəlif tarixlərdə bir mülki iş üzrə üç qətnamə, yəni 27 noyabr 2007-ci ildə aliment tələbi barədə, 23 fevral 2008-ci ildə nikahın pozulması barədə və 17 mart 2008-ci ildə əmlak tələbi, mənzilə köçürülmə, mənzildən istifadə hüququnun tanınması və mənzildən istifadə qaydasının müəyyən edilməsi barədə qətnamələr qəbul etmiş, habelə əsassız olaraq MPM-in 259-260-cı maddələrinin tələblərini pozmaqla iddia ərizələrinin baxılmamış saxlanılması barədə qərardadlar, habelə qərardadlarla bağlı iş üzrə icraatın təzələnməsi barədə qərardadlar qəbul etmişdir.

Həmçinin, hakim R.Qəhrəmanova tərəfindən mülki prosessual qanunvericiliyin tələbləri kobud surətdə pozularaq qanunla nəzərdə tutulmuş qaydada tərəflərə çağırış vərəqələri və məhkəmə bildirişləri göndərilməmiş, nəticədə mübahisəli mənzil mülkiyyətçisi, iş üzrə cavabdeh B.Babayevanın iştirakı olmadan işə baxmaqla qanun və məhkəmə qarşısında bərabərlik, ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi prinsipləri, habelə onun ədalətli məhkəmə araşdırması hüququ pozulmuşdur.

Hakim R.Qəhrəmanova tərəfindən 17 mart 2008-ci ildə cavabdeh, yəni mübahisəli mənzilin mülkiyyətçisi B.Babayevanın iştirakı olmadan məhkəmə iclası keçirilmiş və iddiaçının əmlak tələbi, mənzilə köçürülmə, mənzildən istifadə hüququnun tanınması və mənzildən istifadə qaydasının müəyyən edilməsi barədə həmin iş üzrə üçüncü qətnamə qəbul edilmişdir. Hakim R.Qəhrəmanova həmçinin, maddi hüquq normalarını pozmaqla cavabdeh B.Babayevanın xüsusi mülkiyyətində olan iki otaqlı mənzil üzrə istifadə qaydasını müəyyən etmək adı altında faktiki olaraq cavabdehə məxsus olan evi bölmüş, həmin mənzilin bir otağını azyaşlı uşaqları ilə birlikdə iddiaçının, digər otağını isə cavabdeh B.Babayevanın istifadəsinə verilməsi barədə qətnamə qəbul etmiş, nəticədə mübahisəli mənzilin mülkiyyətçisinin mülkiyyət hüququ, habelə həmin mənzildə qeydiyyatda olan və yaşayan şəxslərin hüquqları pozulmuşdur. Beləliklə, işə baxan hakim tərəfindən Azərbaycan Respublikası MPM-in 8.1, 9.1, 14.1, 387.2.2, 387.3, 387.2.1-387.2.7-ci və Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun 99-cu maddəsinin tələblərini kobudcasına pozmuşdur.

Məhkəmə-Hüquq Şurasının 04 fevral 2010-cu il tarixli qərarları ilə qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozulmasına görə Bakı şəhəri Binəqədi Rayon

Məhkəməsinin hakimi R.C.Qəhrəmanovanın, Sabunçu Rayon Məhkəməsinin hakimi Y.Ə.Kərimovun və Yasamal Rayon Məhkəməsinin hakimi S.Ə.Məmmədovanın intizam məsuliyyətinə cəlb edilməklə səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidentinə təklif verilmişdir.

Cinayət mühakimə icraatının həyata keçirilməsi zamanı yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxslər barəsində həbsə alma qətimkan tədbirinin seçilməsi barədə təqdimatlara baxılarkən də intizam məsuliyyətinə cəlb etməyə əsas verən qanun pozuntularına yol verildiyindən Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin intizam məsuliyyətinə cəlb olunması haqqında 4 qərar qəbul edilmişdir. Həmin qərarlar əsasında Bakı şəhərinin Yasamal Rayon Məhkəməsinin hakimi A.Ə.Rzayevə, Suraxanı Rayon Məhkəməsinin hakimi N.T.Tağıyevə, Əzizbəyov (hazırda Xəzər) Rayon Məhkəməsinin hakimi F.Ə.Miriyevaya və Səbail Rayon Məhkəməsinin hakimi F.N.Nəsibovaya intizam tənbehi-töhmət verilmişdir.

Yuxarıda da qeyd olunduğu kimi Azərbaycan Respublikası CPM-in 434.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir.

Məhkəmə-Hüquq Şurasının 04 fevral 2010-cu il tarixli qərarından görünür ki, hakim F.Nəsibov 04 iyul 2008-ci il tarixli qərarı ilə Azərbaycan Respublikası CM-in 177.2.1-ci maddəsində nəzərdə tutulan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən, 14 noyabr 1990-cı ildə anadan olmuş yetkinlik yaşına çatmayan R.Abışovun haqqında qanunsuz olaraq 2 ay müddətində həbs qətimkan tədbiri seçmişdir. Zorakı hesab edilməyən az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbirinin seçilməsi səbəbindən o, haqqında 03 sentyabr 2008-cı il tarixdə barəsində başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbiri tətbiq edilənədək qanunsuz olaraq həbsdə saxlanılmışdır. R.Abışov 18 dekabr 2008-cı il tarixli hökmlə cərimə cəzasına məhkum edilmişdir. Yetkinlik yaşına çatmayan R.Abışovun azadlıq hüququnun əhəmiyyətli dərəcədə pozulması konkret halda hakim F.Nəsibovun onun barəsində həbs qətimkan tədbiri seçilməsinə dair təqdimata baxarkən CPM-in 434.1-ci maddəsinin tələblərinin kobud surətdə pozulması nəticəsində baş vermişdir.

Şuranın eyni tarixli qərarlarından görünür ki, hakim F.Ə.Miriyeva 18 iyul 2008-ci il tarixli qərarı ilə CM-in 177.2.1, 177.2.2 və 177.2.3-cü maddələrində nəzərdə tutulan az ağır zorakı olmayan cinayət əməlini törətməkdə təqsirləndirilən, 30 oktyabr 1991-ci ildə anadan olmuş yetkinlik yaşına çatmayan V.Mirzəyev və həmin tarixli qərarla CM-in 177.2.1, 177.2.2, 177.2.3 və 177.2.4-cü maddələri ilə təqsirləndirilən 01 yanvar 1992-ci ildə anadan olmuş, yetkinlik yaşına çatmayan İ.Rufullayev haqqında qanunsuz olaraq 2 ay müddətində həbs qətimkan tədbiri seçmişdir.

Hakim N.T.Tağıyevanın 07 mart 2008-ci il tarixli qərarı ilə CM-in 177.1-ci maddəsində nəzərdə tutulan böyük ictimai təhlükə törətməyən cinayət əməlini törətməkdə təqsirləndirilən, 25 iyun 1991-ci ildə anadan olmuş, yetkinlik yaşına çatmayan D.Orlov barəsində və 17 aprel 2008-ci il tarixli qərarla CM-in 177.1-ci maddəsi ilə təqsirləndirilən, 20 dekabr 1990-cı ildə anadan olmuş yetkinlik yaşına çatmayan N.Musayev barəsində qanunsuz olaraq 2 ay müddətinə həbs qətimkan tədbiri seçilmişdir.

Hakim Ə.Ə.Rzayevin 12 sentyabr 2008-ci il tarixli qərarı ilə CM-in 177.2.1 və 177.2.4-cü maddələrində nəzərdə tutulan az ağır cinayət əməlini törətməkdə təqsirləndirilən, 05 noyabr 1991-ci ildə anadan olmuş yetkinlik yaşına çatmayan O.Abdullayevin barəsində qanunsuz olaraq 2 ay müddətinə həbs qətimkan tədbiri seçilmişdir. O.Abdullayev haqqında 30 dekabr 2008-ci ildə ittiham hökmü çıxarılıb cərimə cəzasına məhkum olunanadək qanunsuz olaraq həbsdə saxlanılmışdır.

Bakı şəhərinin Səbail Rayon Məhkəməsinin hakimi F.N.Nəsibovun, Əzizbəyov (hazırda Xəzər) Rayon Məhkəməsinin hakimi F.Ə.Miriyevanın, Suraxanı Rayon Məhkəməsinin hakimi N.T.Tağıyevin və Yasamal Rayon Məhkəməsinin hakimi A.Ə.Rzayevin təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatlara baxılarkən yol verdikləri kobud qanun pozuntuları yetkinlik yaşına çatmayan R.Abışovun, V.Mirzəyevin, İ.Rufullayevin, D.Orlovun, N.Musayevin və O.Abdullayevin Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsi və İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi Haqqında Konvensiyanın 5-ci maddəsinin birinci hissəsində təsbit olunmuş azadlıq hüququnun əsassız olaraq məhdudlaşdırılmasına səbəb olmuşdur.

Məhkəmə-Hüquq Şurasının təhlil edilən qərarlarında cinayət mühakiməsi icraatına aid olan pozuntular sırasında həbsdə saxlanılma müddətlərinin uzadılması barədə təqdimatlara baxılarkən qanunda nəzərdə tutulmuş sənədlərin-təqsirləndirilən şəxslərin barələrində həbs qətimkan tədbirinin seçilməsi haqqında ilkin qərarların, təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərarların, müstəntiqin vəsatətinin və təqsirləndirilən şəxslərin tutulması haqqında protokolların surətlərinin təqdimata əlavə olunmamasına əhəmiyyət verilməməsi, bu sənədlər tələb olunmadan materiallar icraata qəbul edilərək həbsdə saxlanılma müddətinin uzadılması barədə təqdimatların təmin olunması, həbsdə saxlama müddəti və müddətin hesablanması tarixinin göstərilməməsi, qətimkan tədbirinin seçilməsinə dair təqdimata baxılarkən həbs qətimkan tədbiri seçilməsi məsələsinin faktiki olaraq həll edilməməsi maddi və prosessual hüquq normalarının pozulmasında ifadə olunmuşdur.

Hesab edirik ki, Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi qərarların, həmin qərarlarda intizam məsuliyyətinə səbəb olan əsaslar kimi müəyyən edilən halların öyrənilməsi faydalı olacaq və ümidvarıq ki, muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən işlərə baxılması zamanı belə hallara yol verilməyəcəkdir.

---

[1] Bu sərlövhənin hazırlanması zamanı Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 04 fevral 2010-cu il tarixli qərarlarına istinad olunmuşdur.

**Yunis Fərman oğlu Xəlilov**
*Ali Məhkəmənin baş məsləhətçisi*

## Azərbaycan Respublikasında hüquqi islahatların mühüm elementi kimi İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizin bütün sahələrində olduğu kimi dövlət quruculuğu və hüquq sistemində də köklü islahatlar aparılmışdır. Azərbaycan xalqının milli, mədəni və tarixi ənənələrinə söykənərək hüquqi, demokratik dövlət yaradılmasına və vətəndaş cəmiyyətinin bərqərar edilməsinə böyük imkanlar yaradan bu islahatlar ilk növbədə insan hüquqlarının daha etibarlı şəkildə təmin edilməsinə xidmət edir. Ölkəmizdə bu istiqamətdə həyata keçirilən hüquqi islahatların davamı kimi növbəti addım İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu və İnzibati Prosessual Məcəllənin qəbul edilməsi olmuşdur. Yazımızda adı çəkilən normativ aktların qəbulunu şərtləndirən zəruri amillər, həmin normativ aktların tənzimlədiyi münasibətlər və gətirdiyi yeniliklər barədə fikirlərimizi oxucularla bölüşmək istərdik.

İlk olaraq İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu və İnzibati Prosessual Məcəllənin qəbul edilməsini zəruri edən amilləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. *Konstitusion hüquq və azadlıqların daha möhkəm təmin olunması.* Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının

məhkəmədə müdafiəsinə təminat verilir (birinci hissə) və hər kəs dövlət orqanlarının, ... vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər (ikinci hissə). Adı çəkilən normativ aktların qəbulu vətəndaşların vəzifəli şəxslərin və dövlət orqanlarının qanunsuz qərar və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermək hüququnun təmin edilməsinin səmərəli prosessual-hüquqi sistemini yaratmaqla yanaşı, vətəndaşlara müdafiə olunmaq üçün geniş imkanlar verilməsini şərtləndirmişdir. Bu isə nəticədə konstitusion hüquqların reallıqda təmini mexanizmini əks etdirən əlverişli üsullar sırasına daha bir üsulun - inzibati mübahisələrə dair iddia vermək imkanının əlavə olunması deməkdir;

2. *Spesifik xarakter daşıyan inzibati mübahisələrə dair münasibətlərin nizama salınması.* İnzibati Prosessual Məcəllə qəbul edilənə qədər inzibati mübahisələrlə bağlı münasibətlər Mülki Prosessual Məcəllə ilə tənzimlənirdi. Bu münasibətlərin spesifikliyi, yəni həmin münasibətlərin mülki prosessual hüquq münasibətlərindən həm məzmun, həm də subyektiv tərkib (tərəflər) baxımından fərqli xarakterə malik olması bu sahəyə xüsusi və ixtisaslaşmış yanaşmanın müəyyən edilməsini tələb edirdi. Bu baxımdan ölkəmizdə inzibati mübahisələrə məhkəmə qaydasında baxılması və həll edilməsi ilə bağlı ayrıca prosessual məcəllənin qəbul edilməsi zərurətdən qaynaqlanmışdır.

3. *İnzibati orqanlar arasında qarşılıqlı hüquqi yardımın, eləcə də həmin orqanlarla fiziki və hüquqi şəxslər arasında münasibətlərin qurulmasında səmərəliliyin daha da artırılması.* Təsadüfi deyil ki, İnzibati icraat haqqında Qanununun tənzimlədiyi məsələlər sırasında inzibati orqanlar arasında qarşılıqlı hüquqi yardımın qaydaları və şərtləri, vətəndaşların inzibati orqanlara (müvafiq icra hakimiyyəti orqanları, onların yerli qurumları, bələdiyyələr, inzibati akt qəbul etmək səlahiyyəti olan hər hansı fiziki və ya hüquqi şəxsə) müraciət etmək hüquqları, bu orqanlar tərəfindən vətəndaşların ərizə və vəsatətlərinin qəbul edilməsi, qeydiyyata alınması və baxılması, inzibati orqanların qəbul etdiyi aktların əsaslandırılması və bu prosesdə ictimai nəzarətin təmin olunması, hər bir fərdin inzibati orqanların aktlarından şikayət vermək hüququnun həyata keçirilməsi imkanları, inzibati orqanların məsuliyyəti və sair kimi məsələlər mühüm yer tutur. Bütün bunlar isə inzibati orqanların qarşılıqlı əməkdaşlığına böyük stimul verməklə yanaşı, vətəndaşların inzibati orqanlara müraciətinin prosedur prinsip və təminatlarının həyata keçirilməsinə də geniş imkanlar yaradacaq, inzibati orqanlara inamı daha da artıracaqdır;

4. *Vətəndaş-məmur, vətəndaş-dövlət orqanı arasında yaranan inzibati münasibətlərin və bu münasibətlərdən doğan mübahisələrin tezliklə və daha operativ şəkildə tənzimlənməsi.* Bir nüansa diqqət yetirməklə fikrimizə aydınlıq gətirək. Süründürməçiliyin və ləngiməyin qarşısını almaq məqsədilə İnzibati icraat haqqında Qanunun 52-ci maddəsində səlahiyyətli inzibati orqanda ərizənin və ya müraciətin qeydiyyata alındığı vaxtdan ən geci 30 gün müddətində həmin inzibati orqanın inzibati aktın qəbul edilməsi və ya onun qəbul edilməsindən imtina olunması haqqında qərar qəbul edilməsi, bu müddətin müəyyən hallarda artırılması, lakin inzibati aktın qəbul edilməsi də daxil olmaqla hər bir halda inzibati icraatın ümumi müddətinin 90 gündən çox ola bilməməsi göstərilmişdir;

5. *Korrupsiyaya qarşı mütəmadi olaraq mübarizə aparılması.* İnzibati orqanların fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə milli strategiyanın həyata keçirilməsi qeyd olunan qanunların qəbul edilməsini şərtləndirən amillərdən biridir. Təsadüfi deyil ki, ABŞ-da uzun illərdir ki, qüvvədə olan İnzibati icraat haqqında qanuna xüsusi bir mənalı ad qoyulmuşdur - Gün işığında idarəetmə qanunu. Çünki hesab edilir ki, günəşin qaranlığı və gizli olan hər şeyi işığa çıxartma xüsusiyyəti vardır. Amerika və Avropada bu sahədə olan qanunvericilik aktlarının məqsədi korrupsiyanın qarşısını almaq, başqa sözlə, dövlət orqanlarının fəaliyyətində şəffaflığı təmin etmək olmuşdur. Məsələyə bu prizmadan baxdıqda, söyləmək olar ki, haqqında bəhs olunan normativ aktların qəbul edilməsi ölkədə korrupsiyaya qarşı həyata keçirilən kompleks tədbirlərin daha ardıcıl şəkildə davam etdirilməsinə güclü təkan verəcəkdir;

6. *Ölkədə vahid inzibati təcrübənin yaradılması.* Xüsusilə İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun qəbuluna qədər inzibati orqanların fəaliyyətinin prosedur qaydalarını (inzibati icraatı) tənzimləyən normalar yuxarıda da qeyd etdiyimiz kimi ayrı-ayrı qanunlarda nəzərdə tutulmuşdu. Buna görə də həmin normalar pərakəndə halda olub sistemsiz xarakter daşıyırdı. Bu sahədə vahid qanun olmadığından, hər bir inzibati orqanda icraat qaydaları da fərqli idi və əksər vaxt bu qaydalar inzibati orqanlardan daha çox, fiziki və hüquqi şəxslərin fəaliyyətini nizama salırdı. Nəticədə bu və ya digər şəxsə münasibətdə inzibati orqanın özünün davranışı hüquqi tənzimləmə predmetindən kənarda qalırdı.

Göründüyü kimi mövcud pərakəndəliyin və qeyri-müəyyənliyin aradan qaldırılmasına, demokratik, şəffaf və konstitusion prinsiplərə və təminatlara uyğun icraat qaydalarının, bütün inzibati orqanlar üçün eyni cür və vahid icraat prosedurasının müəyyən edilməsinə ehtiyac var idi.

İnzibati fəaliyyətin həyata keçirilməsi zamanı dövlət orqanlarında oxşar xarakterli inzibati aktların verilməsində, eləcə də inzibati şikayətlərə baxılmasında eyni cür və sabit qərar vermə öhdəliyi ilə bağlı vahid inzibati təcrübənin yaradılmasına duyulan bu ehtiyac qeyd olunan normativ aktların qəbulunu labüd edən zəruri amillərdəndir.

İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu və İnzibati Prosessual Məcəllənin xarakterinə və mahiyyətinə nəzər saldıqda aydın olur ki, İnzibati-Prosessual Məcəllə İnzibati icraat haqqında Qanunun məntiqi davamıdır və bu iki qanunvericilik aktını bir-birindən təcrid etmək olmaz. Belə ki, İnzibati icraat haqqında Qanun inzibati orqanların fəaliyyətini tənzimləyirsə, İnzibati-Prosessual Məcəllə sırf məhkəmələrin fəaliyyətinə aid inzibati hüquq münasibətləri ilə bağlı mübahisələri nizama salır.

Sözü gedən normativ aktlatın qəbul edilməsi və qüvvəyə minməsi məsələsinə gəldikdə, İnzibati icraat haqqında Qanun 21 oktyabr 2005-ci ildə qəbul edilmişdir. Qanunun 91-ci maddəsində isə onun qüvvəyə minməsi barədə deyilir: Bu qanun Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi ilə eyni gündə qüvvəyə minir.

İnzibati Prosessual Məcəlləsi isə 30 iyun 2009-cu ildə qəbul edilmişdir. Məcəllənin 2010-cu il yanvar ayının 1-dən qüvvəyə minməsi nəzərdə tutulsa da, 25 dekabr 2009-cu il tarixli qanunla edilmiş dəyişikliklə onun 2010-cu il sentyabr ayının 1-dən qüvvəyə minməsi qərara alınmışdır. Qısa müddət sonra isə İnzibati Prosessual Məcəllənin təsdiq edilməsi haqqında Qanuna dəyişiklik edilərək məcəllənin 2011-ci il yanvar ayının 1-dən qüvvəyə minməsi müəyyən edilmişdir.

Məcəllənin qüvvəyə minmə vaxtının gecikdirilməsinin səbəbi isə hər şeydən əvvəl sözü gedən qanunvericilik aktlarının tətbiqi üçün ölkədə zəmin hazırlamaq və hakimlər üçün təlim kurslarının təşkil edilməsi olmuşdur. Bundan başqa, inzibati mübahisələrə baxacaq olan məhkəmələrin və məhkəmə kollegiyalarının fəaliyyətə başlaması üçün tədbirlərin görülməsi də müəyyən qədər vaxt tələb edən proses olduğundan haqqında bəhs olunan normativ aktların qüvvəyə minmə vaxtı uzadılmışdır.

9 fəsil və 91 maddədən ibarət olan *İnzibati icraat haqqında*qanun inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı inzibati orqanlar tərəfindən həyata keçirilən fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini və prosedur qaydalarını müəyyən edir. Sözü gedən qanunun müddəaları həmçinin, inzibati orqanların fiziki və ya hüquqi şəxslərə münasibətdə faktiki xarakterli digər fəaliyyətinə (hərəkətlərinə) də şamil olunur.

Qanunda istifadə olunmuş əsas anlayışların leqal mənaları 2-ci maddədə təsbit olunmuşdur. Onlardan bir neçəsinə nəzər salaq:

- *İnzibati orqan* - Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları (Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları), onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxsdir.

İnzibati orqanın anlayışı sözü gedən qanun qəbul edilənə qədər qanunvericilik aktlarında yox idi. Məhz konkret anlayışın verilməsi sözü gedən orqanların dairəsinin müəyyənləşdirilməsi üçün hüquqi baza rolunu oynamışdır. Təsadüfi deyil ki, məhz bundan

sonra inzibati orqanların siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin İnzibati orqanların təsnifatının təsdiq edilməsi haqqında 2007-ci il 28 avqust tarixli 136 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Qanunun 3-cü maddəsindən aydın olur ki, həmin qanunun müddəaları inzibati orqanların aşağıdakı fəaliyyətinə şamil olunmur:

B· Cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyətinə;
B· İnzibati xətalara dair işlər üzrə fəaliyyətinə.

Məlumdur ki, inzibati orqanların sözü gedən sahələrdə olan fəaliyyətləri müvafiq olaraq cinayət prosessual və inzibati xətalar məcəllələri ilə tənzimlənir.

- *İnzibati akt* - inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədi ilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir. Qanunda konkret icraatın təşkili və həyata keçirilməsi ilə bağlı inzibati orqan tərəfindən qəbul edilən akt *aralıq inzibati akt*, maraqlı şəxsə hüquq verən və ya onun hüququnu təsdiq edən, yaxud onun üzərinə qoyulmuş vəzifəni (vəzifələri) götürən akt *əlverişli inzibati akt*, maraqlı şəxsi hüquqdan məhrum edən və ya onun hüququnu məhdudlaşdıran, yaxud onun üzərinə müəyyən vəzifə (vəzifələr) qoyan akt isə *əlverişsiz (yükləyici) inzibati akt* termini ilə ifadə olunmuşdur.

- *İnzibati şikayət* - hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədi ilə maraqlı şəxsin inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və ya yaxud inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən subordinasiya baxımından yuxarı inzibati orqana yazılı müraciətidir.

- *İnzibati icraat* - fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən İnzibati icraat haqqında Qanunla müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyətdir.

Qanunda inzibati orqana müraciət etmək hüququ, inzibati icraatın başlanması üçün əsaslar, ərizə və vəsatətlərin təqdim edilməsi, ərizənin forması və məzmunu, onların qəbul edilməsi və qeydiyyata alınması, inzibati icraatda iştirakçılar və nümayəndəlik, vəzifəli şəxsə, ekspertə, mütəxəssisə və ya tərcüməçiyə etiraz etmək üçün əsaslar və bu məqsədlə verilmiş ərizələrə baxılması və həll edilməsi qaydası, inzibati icraatda sübutlar, onların təqdim edilməsi, tələb olunması və qiymətləndirilməsi, inzibati icraatda müddətlər, kollegial inzibati orqanda inzibati icraat, inzibati aktla bağlı məsələlər, inzibati şikayətlər üzrə icraat, inzibati aktın icra edilməsi qaydası, inzibati orqanların məsuliyyəti və inzibati icraatla bağlı digər münasibətlər ətraflı şəkildə tənzimlənmişdir.

İnzibati Prosessual Məcəlləyə (bundan sonra İPM) gəldikdə isə, o, 17 fəsil, 129 maddədən ibarət olub inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin (bundan sonra - inzibati mübahisələr) məhkəmə aidiyyətini, həmin mübahisələrə məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir. Hesab edirik ki, İPM-də nəzərdə tutulan inzibati mübahisələrin dairəsini yalnız inzibati hüquq münasibətləri ilə bağlı yaranan mübahisələrlə məhdudlaşdırmaq doğru olmazdı. Buraya ümumi hüquq münasibətlərindən (məsələn, maliyyə, vergi münasibətləri və s.) yaranan bəzi mübahisələri də aid etmək olar.

İnzibati məhkəmə icraatı qaydasında aşağıdakı iddialara baxılır:

- şəxsin hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv olunmasına və ya dəyişdirilməsinə) dair iddialara (mübahisələndirmə haqqında iddia);

- inzibati orqanın üzərinə inzibati aktın qəbul edilməsi ilə bağlı müvafiq öhdəliyin qoyulmasına dair iddialara və ya inzibati orqanın hərəkətsizliyindən müdafiəyə dair iddialara (məcburetmə haqqında iddia);

- inzibati orqan tərəfindən inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətlərin edilməsinə dair iddialara (öhdəliyin icrası haqqında iddia);

- inzibati orqanın inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan və bilavasitə şəxsin hüquq və azadlıqlarını pozan qanunsuz müdaxiləsindən müdafiəyə dair iddialara (müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia);

- inzibati hüquq münasibətinin mövcud olmasına və ya olmamasına, habelə inzibati aktın etibarsız sayılmasına dair iddialara (müəyyən etmə və ya tanınma haqqında iddia);

- Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid olan məsələlər istisna olmaqla, normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddialara (qanunauyğunluq haqqında iddia);

- inzibati mübahisələrin həlli ilə bağlı əmlak tələbinə, habelə inzibati orqanların qanunsuz qərarları (inzibati aktları) və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi tələbinə dair iddialara;

- bələdiyyələrin inzibati nəzarət orqanlarının hərəkətlərinə qarşı və ya inzibati nəzarət orqanlarının bələdiyyələrə qarşı iddialarına.

İPM analogiya üzrə tətbiq institutunu tanıyır. Belə ki, İPM ilə başqa qayda müəyyən edilmədiyi və həmin məcəllə ilə nəzərdə tutulmuş prosessual prinsiplərə zidd olmadığı hallarda, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında (bundan sonra - inzibati məhkəmə icraatı) Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müddəaları tətbiq oluna bilər.

*Mülki Prosessual və İnzibati Pprosessual Məcəllələrdəki bir neçə oxşar prosessual normaları müqayisəli şəkildə təhlil etsək, aşağıdakıları söyləmək olar:*

1. İnzibati prosesin istənilən mərhələdə başa çatdırılmasına dair tərəflərin hüquqlarının tənzimlənməsi ilə bağlı qaydalar mülki prosesdə müəyyən edilmiş qaydalarla demək olar ki, uyğunluq təşkil edir. Yəni istər mülki (14.3-cü maddə), istərsə də inzibati prosessual (15.2-ci maddə) məcəllədə tərəflər məhkəmə baxışını barışıq sazişi ilə və ya iddiaçının iddiadan imtina etməsi, yaxud da cavabdehin iddianı etiraf (qəbul) etməsi ilə sona çatdıra bilərlər. Lakin mülki prosesdən fərqli olaraq inzibati prosesdə tərəflərə mübahisəyə baxılmasını *hüquqi mübahisənin nizamlanması barədə müştərək bəyanatla* da yekunlaşdırmaq imkanı verilmişdir. Bu isə mübahisənin məhkəmə müdaxiləsi olmadan qarşılıqlı razılıq əsasında həlli deməkdir. Məsələn, tutaq ki, məhkəmə prosesi zamanı iddiaçının mübahisələndirdiyi inzibati akt onu qəbul edən inzibati orqanın özü tərəfindən ləğv edilir. Bu zaman barışıq sazişindən fərqli olaraq iddiaçı ilə cavabdeh arasında hər hansı bir güzəştli razılaşma əldə olunmur. Sadəcə tərəflər öz aralarında olan mübahisənin həll olunduğunu məhkəmədə bəyan edirlər.

2. MPM-in 175.3-cü maddəsinə əsasən İşə ... şifahi baxılır. Məhkəmələrdə işlərə şifahi baxılması tələbinin müəyyən edilməsi isə məhkəmə baxışının aşkarlığı prinsipindən (MPM-in 10-cu maddəsi) törəyən qaydadır.

Maraqlı cəhət odur ki, İPM-in məhkəmə baxışının şifahiliyi prinsipini təsbit edən 16-cı maddəsi məhkəmə tərəfindən mübahisəyə şifahi məhkəmə baxışı (şifahi dinləmələr) qaydasında baxılmasını nəzərdə tutsa da, bu qaydadan istisna kimi iki halı da müəyyən etmişdir. Birinci istisna hal şifahi məhkəmə baxışının keçirilməməsinə dair tərəflərin qarşılıqlı razılığı ilə bağlıdır. Tərəflər qarşılıqlı razılıqlarını məhkəməyə açıq şəkildə bildirsələr, mübahisə şifahi məhkəmə baxışı (şifahi dinləmələr) keçirilmədən də həll edilə bilər. İkinci istisna isə, məhkəmənin işlə əlaqədar sənədlər və sair materiallar əsasında adi qərardad formasında qəbul etdiyi məhkəmə aktlarına (yəni prosesin yekunu olmayan və işi mahiyyəti üzrə həll etməyən qərardadlara) münasibətdə mövcuddur. Bu zaman tərəfin razılığının olub-olmamasından asılı olmadan şifahi baxışın keçirilməməsi məhkəmənin ixtiyarındadır.

3. MPM-in 21.2-ci maddəsinə əsasən Etiraz etmə və ya öz-özünə etiraz etmə yazılı formada əsaslandırılmalıdır. İPM-in 19.2-ci maddəsindən isə aydın olur ki, inzibati məhkəmə icraatı zamanı məhkəmə iclasının gedişində etiraz haqqında vəsatət şifahi formada verilə bilər.

4. MPM-dən fərqli olaraq İPM-də yeni bir məhkəmə aktı növünün - məhkəmə sərəncamının (20.1-ci maddə) adı çəkilir. Həmin məcəllənin 20.1-ci maddəsində deyilir ki, Müddətin axımının başlanmasına səbəb olan məhkəmə qərarları, qərardadları, **sərəncamları** (bundan sonra вЂ" məhkəmə aktları) ... proses iştirakçılarına ... təqdim edilməlidir.

5. İPM-də ilk dəfə olaraq məhkəmə aktının kütləvi informasiya vasitələrində dərc olunma yolu ilə elan edilmə üsulu müəyyən olunmuşdur. Belə ki, İPM-in 21-ci maddəsinə görə məhkəmə aktının 40 nəfərdən çox şəxsə elan edilməsinin tələb olunduğu hallarda, məhkəmə həmin aktın kütləvi informasiya vasitələrində dərc olunma yolu ilə elan edilməsi haqqında qərardad qəbul edə bilər. Məsələyə məhkəmə baxışının aşkarlığı və məhkəmə üzərində ictimai nəzarətin təmin olunması prizmasından yanaşsaq, sözü gedən müddəanın necə böyük əhəmiyyət daşıdığını anlamaq olar.

Azərbaycan Respublikasında inzibati mübahisələrə baxan məhkəmələrə gəlincə, AR İPM-in 2-ci maddəsində təsbit olunmuşdur ki, qanunla başqa aidiyyət qaydası müəyyən edilməmişdirsə, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatı inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmələr, habelə inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyaları tərəfindən həyata keçirilir. Buradan isə aydın olur ki, İnzibati Prosessual Məcəllənin tətbiqinədək Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan və birinci instansiya məhkəməsi qismində fəaliyyət göstərən yerli iqtisad məhkəmələrinin adında və strukturunda əhəmiyyətli dəyişiklik edilmiş, həmin məhkəmələr daha geniş səlahiyyətlərə malik yeni statuslu məhkəmələrə çevrilmişdir.

Digər bir yenilik isə, Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan apellyasiya məhkəmələrinin və Ali Məhkəmənin kollegiyaları ilə əlaqədardır. Belə ki, İnzibati Prosessual Məcəllənin tətbiqinədək adı çəkilən məhkəmələrin tərkibində fəaliyyət göstərən iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyalar inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə

məhkəmə kollegiyaları adlandırılmış, həmin kollegiyaların səlahiyyətləri genişlənərək mahiyyətcə yeni status qazanmışdır. Belə ki, məcəllənin 3-cü maddəsində deyilir: İnzibati mübahisələrə apellyasiya qaydasında Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyaları tərəfindən baxılır *(üçüncü hissə)*, İnzibati mübahisələrə kassasiya qaydasında Ali Məhkəmənin inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyası tərəfindən baxılır *(dördüncü hissə)*.

Qeyd edək ki, 22 iyun 2010-cu il tarixli Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikası Qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ilə iqtisad məhkəmələrinin adları dəyişdirilərək İnzibati-iqtisadi məhkəmələr adlandırılmış, müvafiq məhkəmələrin tərkibində fəaliyyət göstərən iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyanın adı isə İnzibati-iqtisadi kollegiya olaraq dəyişdirilmişdir.

15 iyul 2010-cu il tarixli Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və Məhkəmələr və hakimlər haqqında və Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin imzaladığı fərmanla isə inzibati mübahisələrin məhkəmə aidiyyəti ilə bağlı aşağıdakı məhkəmələrin təşkil edilməsi qərara alınmışdır:

Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi əsasında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi; 1 saylı Bakı Yerli İqtisad Məhkəməsi əsasında 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi; 2 saylı Bakı Yerli İqtisad Məhkəməsi əsasında 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi; Gəncə Yerli İqtisad Məhkəməsi əsasında Gəncə İnzibati-İqtisadi Məhkəməsi; Sumqayıt Yerli İqtisad Məhkəməsi əsasında Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi; Şəki Yerli İqtisad Məhkəməsi əsasında Şəki İnzibati-İqtisadi Məhkəməsi; Şirvan Yerli İqtisad Məhkəməsi əsasında Şirvan İnzibati-İqtisadi Məhkəməsi.

İPM-in Azərbaycan Respublikasının məhkəmə sistemi üçün spesifik xüsusiyyətlərindən biri də məcəllədə bəzi mübahisələrə dair iddialara birinci instansiya məhkəməsi qismində Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyaları tərəfindən baxılması müddəasının *(AR İPM-in 3.2-ci maddəsi)* nəzərdə tutulmasıdır. Məcəllənin XV, XVI və XVII fəsillərində nəzərdə tutulmuş həmin mübahisələrə dair iddialar aşağıdakılardır:

1. Normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair iddialar üzrə icraat - Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinə uyğun olaraq yoxlanılması Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müstəsna səlahiyyətinə aid edilmiş normativ xarakterli aktlar istisna olmaqla, dövlət və bələdiyyə orqanları tərəfindən qəbul edilmiş normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına və onların etibarsız (qüvvədən düşmüş) hesab edilməsinə dair iddia qaldırıla bilər;

2. Siyasi partiyalarla bağlı mübahisələrə dair işlər üzrə icraat - Siyasi partiyaların dövlət qeydiyyatı, eləcə də onların ləğv edilməsi ilə bağlı mübahisələrə apellyasiya instansiyası məhkəmələri tərəfindən baxılır;

3. Kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlər üzrə icraat - Teleradio yayımına xüsusi razılığın (lisenziyanın) verilməsindən və ya xüsusi razılığın (lisenziyanın) müddətinin uzadılmasından imtina olunması, eləcə də kütləvi informasiya vasitələrinin istehsalına və ya yayımına xitam verilməsi və ya fəaliyyətinin dayandırılması ilə bağlı mübahisələrə apellyasiya instansiyası məhkəmələri tərəfindən baxılır.

Göründüyü kimi sözü gedən mübahisələrə dair iddialara birinci instansiya məhkəməsi qismində apellyasiya məhkəmələri tərəfindən baxılır. İPM-də sadalanan hər üç işlərə dair mübahisə ilə bağlı apellyasiya məhkəməsinin qərarından Ali Məhkəməyə şikayət verilməsi *(AR İPM-in 123.6, 126.5, 128.4-cü maddələri)* nəzərdə tutulmuşdur.

Sonda belə nəticəyə gələ bilərik ki, ölkəmizdə fəaliyyətə başlaması nəzərdə tutulan inzibati-iqtisadi məhkəmələr insan və vətəndaşların hüquq və azadlıqlarının daha möhkəm təmin olunmasına böyük imkanlar yaradacaqdır.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**


1. 1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2010.
2. 2. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi. Bakı, Qanun, 2009.
3. 3. İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2008.
4. 4. **Kərimov S., Vəliyeva G.** İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu. Kommentariya. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2006.
5. 5. **Kərimov S., Vəliyeva G.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin Kommentariyası. Bakı, 2009.



**Yunis Fərman oğlu Xəlilov**

*Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi*


**2010-cu ilin iyun-oktyabr aylarında keçirilən tədbirlərin xülasəsi**

İyun ayının 9-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov Məhkəmə-Hüquq Şurasının növbəti iclasında iştirak etmişdir.

Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən ardıcıl islahatlar qeyd olunmuş, səlahiyyət müddətləri başa çatan yuxarı instansiya və digər məhkəmə hakimlərinin fəaliyyəti qiymətləndirilmiş, ali və apellyasiya instansiyası məhkəmələri hakimlərinin tərkibi və vakant ştatların komplektləşdirilməsi məsələlərinə baxılaraq bu məhkəmələrə yüksək hazırlıqlı hakimlərin təyinatı barədə təkliflər verilmişdir. İclasda, həmçinin məhkəmə sistemi fəaliyyətinin təkmilləşdirilməsi üzrə əlavə tədbirlər müzakirə olunmuşdur.

*в%о€ в%о€ в%о€*

İyun ayının 10-da Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasında Elektron media: Hüquqi tənzimləmə və təcrübə mövzusunda seminar keçirilmişdir. Seminarı giriş sözü ilə şuranın üzvü Sahil Tahirli açmışdır.

Tədbirdə Elektron media, televiziya və radio yayımının hüquqi tənzimlənməsi mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin baş məsləhətçisi Yunis Xəlilov elektron medianın əhəmiyyətini vurğulamış, eləcə də televiziya və radio yayımı ilə bağlı münasibətlərin tənzimləndiyi qanunvericilik aktlarında təsbit olunan normaları diqqətə çatdırmışdır. Daha sonra şura üzvü Fərasət Əsədullasoyun, şuranın baş məsləhətçisi Tural Həsənlinin çıxışları dinlənilmişdir.

Sonda jurnalistlərin sualları cavablandırılmışdır.

*в%о€ в%о€ в%о€*

İyun ayının 18-də Bakı şəhərində Məhkəmə-Hüquq Şurası tərəfindən yuxarı məhkəmə hakimləri, habelə ədliyyə, prokurorluq, Şuranın aparatı, Vəkillər Kollegiyasının nümayəndələrindən və hüquqşünas-alimdən ibarət tərkibdə yenidən formalaşdırılmış Hakimlərin Seçki Komitəsinin ilk iclası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının sədri Əli Allahverdiyev iclasda iştirak etmişdir.

İclasda bir sıra təşkilati məsələlərə baxılmış, Bakı Apellyasiya Məhkəməsinin sədri İman Nağıyev Hakimlərin Seçki Komitəsinin sədri seçilmişdir. İclasda hakimliyə namizədlərin seçilməsi prosesinin vəziyyəti, tədris kurslarının nəticələri üzrə yazılı və şifahi imtahanların təşkili və digər məsələlər də müzakirə edilmişdir.

*в%о€ в%о€ в%о€*

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının təşkilatçılığı ilə iyun ayının 18-də Azərbaycan Respublikasında İnsan hüquqları gününə həsr edilmiş İnsan hüquqlarının müdafiə sistemi: Beynəlxalq və milli təcrübə mövzusunda konfrans keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin sədrləri və hakimləri, Ali Məhkəmə Aparatının işçiləri, vəkillər, Naxçıvan Muxtar Respublikası Prokorurluğunun, Daxili İşlər və Ədliyyə Nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak etmişdir.

*в%о€ в%о€ в%о€*

Hakimliyə namizədlərin peşə hazırlığının yoxlanılması məqsədilə 27 iyul-4 avqust tarixləri arasında Hakimlərin Seçki Komitəsi tərəfindən şifahi imtahan keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının sədri Əli Allahverdiyev imtahanların keçirilməsində iştirak etmişdir.

20-dək beynəlxalq və yerli təşkilatlardan olan 30-dan çox müşahidəçinin iştirakı ilə keçirilən imtahanın nəticələri üzrə 78 nəfər hakimliyə namizədin biliyi məqbul sayılaraq onlar yekun müsahibəyə buraxılmışlar.

*в%о€ в%о€ в%о€*

Avqust ayının 27-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov Məhkəmə-Hüquq Şurasının növbəti iclasında iştirak etmişdir.

Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda hakimliyə namizədlərin çoxmərhələli seçimi nəticəsində 78 nəfər hüquqşünasın hakim vəzifəsinə hazırlanmaları üçün təlim mərhələsini uğurla başa vurduğu və hazırda yekun müsahibələrə cəlb olunduğu qeyd edilmişdir.

İclasda, həmçinin aparılmış qiymətləndirmə nəticələri üzrə fəaliyyəti məqbul bilinmiş 8 hakimin yenidən müxtəlif hakim vəzifələrinə təyinatı məqsədəmüvafiq hesab edilmiş, 10 hakimin səlahiyyətlərinə xitam verilmiş, o cümlədən 5 hakimin işində olan nöqsan və çatışmazlıqlar nəzərə alınaraq fəaliyyəti qeyri-məqbul hesab edildiyinə, 5 nəfərin isə hakimlik üçün son yaş həddinə çatmalarına görə səlahiyyətlərinə xitam verilmişdir.

İclasda hakimlər barədə başlanılmış intizam icraatlarına baxılaraq qanunvericiliyin tələblərini pozduqlarına görə 1 hakimə töhmət verilmiş, 2 hakimə isə irad tutulmuşdur.

*в‰€ в‰€ в‰€*

Sentyabr ayının 26-da Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası və bu qurumun muxtar respublikadakı regional bölməsi tərəfindən Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul imtahanı keçirilmişdir. İmtahan nəticəsində Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvü olmaq istəyən 23 namizəddən 11-i uğurla növbəti mərhələyə keçmişlər.

*в‰€ в‰€ в‰€*

Bu ilin sentyabr ayında Culfa Rayon Məhkəməsinin hakimi Polad Həsənov Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin Azərbaycanda məhkəmə-hüquq islahatlarının dəstəklənməsi layihəsi çərçivəsində Almaniyanın mülki işlər üzrə məhkəmələrinin işi ilə tanışlıq və təcrübə mübadiləsi aparmaq məqsədilə həmin ölkənin Köln, Manhaym və Heydelberq şəhərlərində səfərdə olmuşdur.

*в‰€ в‰€ в‰€*

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov Məhkəmə-Hüquq Şurasının oktyabr ayının 12-dən 15-dək keçirilən növbəti iclasında iştirak etmişdir.

Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda hakimliyə namizədlərlə bağlı Hakimlərin Seçki Komitəsinin təkliflərinə baxılmışdır.

İclasda məhkəmə sisteminin yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hakimlər hesabına komplektləşdirilməsi məqsədilə 78 nəfər hakimliyə namizəd bütün imtahanları, o cümlədən bir ilədək davam etmiş təlim mərhələsini və məhkəmələrdə stajkeçməni uğurla başa vurduqlarından onlar hakim vəzifəsinə layiq bilinmişlər.

*в‰€ в‰€ в‰€*

Oktyabrın 20-də Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasına üzvlüyə qəbul ilə əlaqədar şifahi müsahibə imtahanı keçirilmiş, 9 nəfər namizəd imtahandan müvəffəqiyyətlə keçmişdir.

*в‰€ в‰€ в‰€*

2010-cu ilin noyabr ayının 9-da Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin hakimlərindən ibarət nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin hakimləri Sərdar Özgüldür, Hakan Atasoy və Zəhra Ayla Perktaşı ilə görüşmüşdür.

Ali Məclisin Sədri xalqımızın xoş ovqatla qeyd etdiyi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günündə və 12 noyabr Konstitusiya günü ərəfəsində qonaqları Naxçıvanda salamlamaqdan məmnunluğunu bildirmiş, onlara muxtar respublikanın statusu, idarəetmə quruluşu, sərhədləri, elm və təhsil sahələri barədə məlumat vermiş, nümayəndə heyətinin səfərinin iki qardaş, dost ölkənin Konstitusiya Məhkəmələrinin qarşılıqlı əlaqələrində xüsusi yer tutacağına əminliyini ifadə etmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov da iştirak etmişdir.

Muxtar respublikaya iki günlük səfər çərçivəsində qonaqlar Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində də olmuş, burada hakimlərlə görüşmüş və məhkəmənin statusu, səlahiyyətləri və fəaliyyəti barədə məlumatlandırılmışlar.

***в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€***
***в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€***
***в‰€ в‰€ в‰€***

**Yunis Fərman oğlu Xəlilov**
*Mətbuat və ictimaiyyətlə*
*əlaqələr üzrə baş məsləhətçi*

## *Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 85 illiyinə həsr olunmuş tədbir keçirilmişdir*

Oktyabr ayının 3-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaranmasının 85-ci ildönümü qeyd olunmuşdur.

Ali Məhkəmənin kollektivi, eləcə də muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin sədr və hakimləri əvvəlcə xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanındakı əzəmətli abidəsi önünə güllər düzmüş, Ulu öndərin xatirəsini ehtiramla yad etmişlər.

Tədbir iştirakçıları Heydər Əliyev muzeyində olmuş, dövlətçiliyimizin qurulmasında və ölkəmizdə hüquq sisteminin inkişafında misilsiz xidmətlər göstərmiş fenomenal şəxsiyyət Ulu öndərin həyat yolunu, çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxmışlar.

Sonra tədbir Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin akt zalında davam etdirilmişdir. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin bu günədək keçdiyi uzun tarixi inkişaf yolu haqqında məlumat vermişdir.

Ali Məhkəmənin sədri qeyd etmişdir ki, 1993-cü ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi məhkəmə hakimiyyəti sahəsində də köklü islahatların həyata keçirilməsinin əsası qoyulmuşdur. Bu gün Ulu öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhkəmə-hüquq islahatlarını daim diqqət mərkəzində saxlayır, məhkəmə sisteminin inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmə orqanlarının işinin müasir tələblər səviyyəsində qurulmasında, eləcə də məhkəmə orqanlarının strukturunun müasirləşdirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbovun böyük xidmətləri vardır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 85 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təbrikini çatdırmış və qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində muxtar respublikada məhkəmə orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.

Daha sonra tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakim köməkçisi Gülay Qurbanova, Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sədri Mahmud Cəfərov çıxış etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 85 illiyinə həsr olunmuş tədbirdə muxtar respublikada fəaliyyət göstərən məhkəmə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, bütövlükdə isə məhkəmə sisteminin müasirləşdirilməsi sahəsində göstərdikləri diqqət və qayğıya görə Azərbaycan Respubllikasının Prezidenti Cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Cənab Vasif Talıbova Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün məhkəmələrin hakimləri və əməkdaşları adından dərin minnətdarlıq hissi ifadə olunmuş və bildirilmişdir ki, ədalət mühakiməsinin həyata keçirilməsində, insan hüquq və azadlıqlarının daha etibarlı qorunmasının təmin edilməsində məhkəmə hakimləri və əməkdaşları öz üzərlərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən etimadı doğrultmağa  çalışacaqlar!

Tədbirin sonunda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin bir qrup əməkdaşı mükafatlandırılmışdır.

*в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€*
*в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€*
*в‰€ в‰€ в‰€*

**Yunis Fərman oğlu Xəlilov**
*Mətbuat və ictimaiyyətlə*
*əlaqələr üzrə baş məsləhətçi*

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin internet saytı istifadəyə verilib

Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 19 yanvar 2006-cı il tarixli fərmanının 5-ci bəndində Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apellyasiya məhkəmələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə də məhkəmə

fəaliyyətinin hüquqi və informasiya təminatının həyata keçirilməsinin təkmilləşdirilməsi, yeni informasiya texnologiyalarının tətbiqinin təmin edilməsi tövsiyə olunmuşdur.

Bu tövsiyənin reallaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyi tərəfindən Ali Məhkəməyə hər cür şərait yaradılmışdır. Ötən illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xüsusi diqqət və qayğısı sayəsində məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, hüquqi və informasiya təminatının həyata keçirilməsinin daha da təkmilləşdirilməsi, məhkəmələrdə yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm işlər görülmüşdür. Həmin sahədə görülən işlərin davamı kimi bu ilin iyul ayında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin **www.supremecourt.nakhchivan.az** internet saytı hazırlanıb istifadəyə verilmişdir.

On beş minə yaxın yazılı materialı özündə toplayan saytın ana səhifəsinin dizayn tərtibatı sadə olduğu üçün ondan istifadə olduqca asandır.

Əsas səhifənin yuxarı hissəsində üst menyu, sol hissəsində isə əsas menyu quraşdırılmışdır. Üst menyuda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və muxtar respublikada fəaliyyət göstərən ümumi və ixtisaslaşdırılmış məhkəmələr haqqında geniş məlumatlar, həmin məhkəmə binalarının fotoşəkilləri əks olunmuş, Ali Məhkəmənin qəbul günlərinin cədvəli yerləşdirilmişdir.

Alt menyuda Məhkəmə sənədləri, Məhkəmə işləri və müraciətlər, İstifadəçilər üçün məlumat və Qanunvericilik bölmələrinə keçidlər mövcuddur. Qanunvericilik bölməsində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericilik aktlarının, eləcə də Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyaların mətnləri, habelə Avropa Məhkəməsinin bir sıra işlərlə bağlı qərarları təqdim olunur.

Saytda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin qərarları, Ali Məhkəmənin nəşri olan Bülletenin 2006-cı ildən bu günə qədər işıq üzü görən bütün nömrələrinin elektron mətnləri, Ali Məhkəmənin tarixi, məhkəmənin və onun aparatının strukturu haqqında məlumatlar, baxılmaq üçün təyin olunmuş mülki və cinayət işlərinin vaxtı, məhkəmə qərarları, ümumiləşdirmələrin nəticələri və məhkəmə iclaslarının vaxtı barədə informasiyalar yayımlanır.

İstifadəçilərə xidmət üçün saytda həmçinin, bir sıra dövlət hakimiyyəti orqanlarının saytlarının adları verilmişdir.

İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən saytda Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericilik aktlarına edilən ən son əlavələr və dəyişikliklər də müntəzəm olaraq yenilənir.

Ümidvarıq ki, Ali Məhkəmənin saytından yalnız hakimlər, məhkəmə işçiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları deyil, hüquqa, məhkəmə fəaliyyətinə maraq göstərən digər şəxslər də istifadə edəcək və beləliklə, saytımız muxtar respublika əhalisinin hüquq xidmətlərinə olan tələbatının ödənilməsinə mühüm töhfə olacaqdır.

*в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€*
*в‰€ в‰€ в‰€ в‰€ в‰€ в‰€*
*в‰€ в‰€ в‰€*